Bu bir xalq qəzetidi
ƏDALƏT

## DİN: "Böyük Britaniya səfirliyini yol verdiyi səhvi etiraf etməyə çağırırıq"

**Azərbaycan Daxili İşlər Nazirliyi (DİN) Böyük Britaniya səfirliyinə cavab verib. DİN-in Mətbuat Xidmətindən Adalet.az-a daxil olan məlumatda deyilir: "Artıq xəbər verildiyi kimi, 2022-ci il mayın 14-də bir qrup şəxs Səbail rayonu ərazisindəki "Fəvvarələr meydanı"nda müvafiq dövlət qurumları ilə razılaşdırılmamış aksiya keçirmişdir. Bu aksiyanın Azərbaycan Respublikasının "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanununa zidd keçirilməsinə baxmayaraq polis əməkdaşları tərəfindən aksiyaya müdaxilə edilməyib, əksinə iştirakçıların təhlükəsizliyi təmin olunub və aksiyanın yekununda müvafiq bəyanat səsləndirilib. Aksiya zamanı hər hansı insident qeydə alınmayıb və saxlanılan olmayıb.**

Bununla belə, elə həmin gün Böyük Britaniyanın Azərbaycandakı səfirliyinin polisin aksiyaya ciddi müdaxilə etməsi və çoxlu sayda saxlanılan şəxsin olması barədə yanlış məlumat yayması qəbuledilməzdir və Azərbaycanın daxili işlərinə əsassız müdaxilədir. Bu aksiyanın təşkilatçıları və iştirakçıları tərəfndən aksiyanın normal şəkildə keçdiyi və polisin davranışının qənaətbəxş qiymətləndirildiyi halda Böyük Britaniyanın Azərbaycandakı səfirliyinin aksiyaya yanlış qiymət verməsi və ittihamedici iddialarla çıxış etməsi başadüşülən deyil. Bu bəyanatı öz xidməti vəzifələrini yerinə yetirən polisin nüfuzuna xələl yetirmək cəhdi kimi qiymətləndiririk.

Böyük Britaniyanın Azərbaycandakı səfirliyini yaydığı bəyanatı təkzib etməyə və yol verdiyi səhvi etiraf etməyə çağırırıq.

Ümid edirik ki, Böyük Britaniyanın Azərbaycandakı səfirliyi iki ölkə arasında əməkdaşlığın və səmimi dialoqun inkişafına xidmət edəcək tərzdə fəaliyyət göstərəcək, süni siyasi əngəllər yaratmaq cəhdindən çəkiləcəkdir".

## İqtidar-müxalifət dialoqu davam edir

Bax: səh.2

## YIĞIŞIB ATIŞAQ "AZAL"ın BORCUNU ÖDƏYƏK



**Mətbuatda oxudum ki, "AZAL" ili 76 milyon manat ziyanla başa vurub. Və ümumiyyətlə, "AZAL"ın zərəri 1 milyard 760 milyon manatı ötüb.**

İndi "AZAL"ı zərərdən çıxarmağın iki yolu var: bir yolu odur ki, millət yığışıb atışsın bu pulu düzəltsin, "AZAL"ın da canı rahat olsun.

İkinci yolu da odur ki, "AZAL"ın prezidenti Cahangir Əsgərov çıxır ya Zaurun proqramına, ya da Xoşqədəm xanımın proqramına və deyir:

**- AZAL-ın dərdi var, AZAL xəstədir,**
**Təyyarə intizarda, göz yol üstədir...**

**"NƏRMİN İŞİ" NƏTƏHƏR GÜNDƏMİ ZƏBT EDİBSƏ, "TƏRTƏR İŞİ" YADDAN ÇIXIB. DEYƏSƏN, "AYTƏN MƏMMƏDOV HADİSƏSİ" DƏ "NƏRMİN İŞİ"Nİ VURUB GÜNDƏMDƏN ÇIXARACAQ.**



## ƏRDOĞANIN HAQQ SÖZÜNƏ NİYƏ ÇƏP BAXIRSINIZ?



**Qardaş ölkənin cümhurbaşkanı sayın Ərdoğan İsveçin və Finlandiyanın NATO-ya üzvlüyünə öz qəti etirazını bildirib. Baxıram, sosial şəbəkələrdə Ərdoğanın bu etirazına sərt münasibətlər bildirirlər ki, guya sayın cümhurbaşkanı Rusiyanın tərəfini tutur.**

Sayın Ərdoğan Rusiyanın yox, öz Türkiyəsinin tərəfini tutur. Bu iki ölkə PKK terror təşkilatına sinəsində yuva açıb, bu təşkilata nəinki dayaq durur, hələ tanıyır da.

**"Sumqayıt"ın belə acınacaqlı vəziyyətə düşməsi Baqadan çox Ayxan Abbasovu yandırıb tökür.**



"Mən bunu Parijin göbəyindən gətirmişdim".

Ayxan Abbasov da olmayan yerdən bir alababat "Sumqayıt" komandası yaratmışdı.

Nə isə, Baqa "Sumqayıt"ı baqaja qoydu. Və 27-ci turda da 9 oyunçu ilə "Sabah" 1 dəqiqədə "Sumqayıt"a 2 qol vurdu.

## Kəmaləddin Heydərov türkiyəli nazirlə görüşdü



**Azərbaycan Respublikasının fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının kənd təsərrüfatı və meşəçilik naziri Vahid Kirişçinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Bu barədə Fövqəladə Hallar Nazirliyi (FHN) məlumat yayıb.**

Bildirilib ki, qonaqları səmimiyyətlə salamlayan nazir Kəmaləddin Heydərov görüşün təsadüf etdiyi 19 may tarixinin Türkiyədə geniş qeyd olunan Atatürkü Anma, Gənclik və İdman Bayramı olması münasibətilə təbriklərini çatdırıb. Nazir K.Heydərov iki qardaş ölkə arasında bütün sahələrdə mövcud əlaqələrdən danışaraq, Azərbaycan və Türkiyə liderlərinin müdrik uzaqgörənliyi və siyasi iradəsi sayəsində bu əlaqələrin ən yüksək səviyyəyə qalxdığını qeyd edib. FHN-in fəaliyyət istiqamətlərindən ətraflı bəhs edən nazir K.Heydərov meşə yanğınları ilə mübarizə sahəsində iki nazirlik arasında əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyətini vurğulayıb. Bu çərçivədə, nazir meşə yanğınlarının monitorinqinin aparılması və meşələrin yanğından mühafizəsi sahəsində erkən xəbərdarlıq sistemlərinin tətbiqi, birgə təlimlərin təşkili və təcrübə mübadiləsinin həyata keçirilməsinin vacibliyini qeyd edib. Səmimi görüşə görə təşəkkürünü bildirən Türkiyə Respublikasının kənd təsərrüfatı və meşəçilik naziri Vahid Kirişçi ölkələrimiz arasında sıx əlaqələrin dinamik inkişafından danışaraq, nazir vəzifəsinə təyin olunduqdan sonra ilk səfər etdiyi ölkənin məhz qardaş Azərbaycan olmasından məmnunluq ifadə edib. V.Kirişçi meşə yanğınları ilə mübarizə sahəsində iki nazirlik arasında əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini qeyd edərək, bu mənada qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunub. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
Gündəlik hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 24 (5961) 21 may 2022-ci il
Qiyməti 30 qəpik

# DTX əməliyyat keçirdi



Bax:səh-2

## Ağlına dua yazsınlar

### NATO-nun emblemi



**Məlum məsələdir ki, sayın Ərdoğan İsveçin və Finlandiyanın NATO üzvlüyünə qəbul olunmasına öz qəti etirazını bildirib. Səbəbini də izah edib, PKK terror təşkilatlarına qucaq açdıqlarına görə. CNN-nin şərhçisi də Devid Andelman zavuç deyir ki, Türkiyə razı olmasa, onun özü NATO-dan qovulacaq.**

Əslində NATO ABŞ və Türkiyədən ibarətdir. O biri ölkələr Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı üzvləri kimi mənasız və dişsiz ölkələrdir.

Türkiyə NATO-dan çıxsa, NATO SSRİ-nin gününə düşər, yəni dalı üstə düşər.

**Tanınmış jurnalist Qadir İbrahimli Haqqa qovuşdu. Ailəsinə və doğmalarına səbr diləyirik.**

**Allah rəhmət eləsin!**



## Ankara İsveçin NATO-ya daxil olması üçün şərtlərini açıqlayıb



**Türkiyə Prezident Administrasiyasının Kommunikasiya Şöbəsinin rəhbəri Fahrettin Altun İsveçin "Expressen" qəzetində dərc olunan məqaləsində qeyd edib ki, Türkiyənin haqlı narahatlıqları aradan qaldırılmayana qədər İsveç NATO-ya üzv ola bilməyəcək.**

"Türkiyə kimi terrorun hədəfində olan ölkələr ikili standartları aradan qaldırmaq üçün var gücü ilə çalışırlar. Bunu nəzərə alsaq, İsveçin öz mövqeyinə yenidən baxmadan NATO-ya üzv olmaq cəhdinə müşahidəçi qalmaq Türkiyə üçün qəbuledilməzdir. Türkiyədə günahsız insanlara qarşı cinayətlərdə iştirak etmələrinə baxmayaraq, İsveçdə siyasi sığınacaq tapan şəxslərlə mübarizə, bizim nöqteyi-nəzərimizdən, ittifaqın ayrılmaz şərtidir", - Altun məqaləsində yazıb. O, əmin olduğunu bildirib ki, Türkiyə hökuməti Stortorgetdəki hücuma görə məsuliyyət daşıyan terror təşkilatına sığınacaq versə, İsveç xalqı bu gün türklərin yaşadığı hissləri yaşayacaq. "Şübhəsiz ki, İsveçin belə bir terror təhlükəsi ilə təhdid edilməməsinə şadıq. Lakin mən çox açıq şəkildə bildirmək istəyirəm ki, İsveç Türkiyənin haqlı narahatlıqları həll olunmayana qədər NATO-ya üzv ola bilməyəcək. Əgər İsveç NATO-nun ikinci ən böyük ordusununun hücum anında ölkənin müdafiəsinə qalxacağını gözləyirsə, bu faktı qəbul etməlidir", - məqalədə bildirilib.

## LAVAL DA ÇANTAKİASA BABAT BİR ŞAPALAQ VURDU



**"Neftçi" ilə "Zirə"nin oyununda "Neftçi"nin oyunçusu Laval "Zirə"nin oyunçusu Çantakiasa babat bir şapalaq vurdu, Hakim də onu yalnız sarı vərəqə ilə cəzalandırdı.**

"Zirə" də bu şapalağın əvəzini bir qolla çıxdı.

Sadəcə olaraq, biabırçılıq.

## "QƏBƏLƏ"Nİ TƏBRİK EDİRİK



***Belə bir çətin vəziyyətdə Avropa çempionatlarına vəsiqə qazandıqlarına görə, klubun prezidenti Fariz Nəcəfovu, baş məşqçisi Elmar Baxşıyevi və bütün kollektivi belə çətin vəziyyətdə Qəbələnin şərəfini qoruduqlarına görə təbrik edir və uğurlar arzulayırıq.***

**TƏBİB-in DƏ SƏLAHİYYƏTLƏRİ ƏLİNDƏN ALINDI, VERİLDİ SƏHİYYƏ NAZİRLİYİNƏ!**

## BİRİNİ BAŞDAŞININ ÜZÜNƏ, BİRİNİ İSƏ ARXASINA VURMAQ OLAR





**Dostumuz Aydın Can iki şəkil paylaşıb və belə bir status yazıb: "Xahiş edirəm, səmimi cavab verin: hansı şəkil başdaşına yaraşır?**

***P.S.*** Arxamdakı bayraq ona sevgimə və sədaqətimə şahiddir, fondakı ağac isə mənim qiyamət günü şahidim olacaq! Ki... Mən İmam Hüseyn uğrunda vuruşa görə... Həm vuruşmuşdum, həm də vuruşdan sonra gəlib o ağacla qalib qiyafəsində şəkil çəkdirmişdim!"

Biz də Aydın Cana məsləhət görürük ki, bayraqlı şəkli başdaşının üzünə, ağacla olan şəklini isə başdaşının arxa hissəsinə vurdursun.

Aydının bu statusunu oxuyanda yadıma bir hadisə düşdü, güldüm.

Atama Ağcabədi rayonunun Kolanı kəndində sadə bir başdaşı qoyurdum. Təbii ki, üz hissəsində şəkli də vardı. Kəndin ağsaqqallarından biri məni kənara çəkib dedi:

***- Məllim, gərək başdaşının arxasında da Məhəmmədin ayaq üstə bir şəklini də çəkdirərdin.***

Güldüm və bir az da əsəbi halda dedim:

***- Niyə, əsgərlikdə ölüb?!***

Adətən əsgərlikdə, ya polisdə xidmət zamanı, ya ümumiyyətlə, cavan ölənlərin başdaşının arxasında ayaqüstə formada bir şəkli olur.

## Dəlixana söhbəti

*Hüquq və təhsilin tələbələrini təcrübə üçün dəlixanaya aparırlar. Dəlilərdən biri tələbələrlə söhbət zamanı deyir:*

*- Mən dəli deyiləm. Atam ölüb, qardaşımla bacım məni bura saldırıb, atamın mal-mülkünü bölüşüblər ki, mənə pay düşməsin.*

*Müəllim qayıdır ki:*

*- İnanmıram.*



*Dəli:*

*- Əlbəttə inanmazsan. Oturmuşuq dəlixanada, məni də sizə dəli kimi təqdim ediblər. Bir bahalı restoranda oturub yeyib-içən zaman bunu söyləsəydim, elə qəşəng inanardın ki.*

*Tələbələrdən biri səhərisi gün dəlixanaya gedəndə bir blok bahalı siqaret aparır həmin dəliyə.*

*Dəli təşəkkür edib deyir:*

*- Siqaretə görə sağ ol, amma sən Həzrət Abbas müstəntiq olanda bu məsələni araşdır, məni burdan çıxart.*



*Emin Piri*

## "O"na məktub

**Salam, torpaq adam!**
**Burda həyat**
**gözlərinin rəngi kimi tez dəyişir.**
**Əsasən qəhvəyi,**
**ya da qara.**

**Burda işimizi sorsan;**
**"imitasiya".**
**ya da anlayacağın hədəf taxtası.**
**Arada mərmilər kimisə sığallayır,**
**ya da qışqırırır**
**hansısa ananın yuxusunda.**

**Göydə mərmilərlə toqquşur**
**anamızın duaları.**

(Ardı 5-ci səhifədə)

***Mehman CAVADOĞLU***

## Siyasətçilər müharibə, xalq sülh istəyir



***Mayın əvvəlindən davamlı etiraz aksiyaları keçirən Ermənistan müxalifəti iki günlük fasilədən sonra bu gün yenidən küçələrə çıxacaq. Parlamentin sədr müavini və müqavimət hərəkatının koordinatoru İşxan Saqatelyan keçən həftənin axırında keçirdiyi mətbuat konfransında gələn həftədən, yəni artıq bu gündən hərəkatın taktikasının dəyişəcəyini bildirmiş, ancaq yeni taktikanın detalları barədə konkret bir söz deməyib tərəfdarlarını intizar, əleyhdarlarınısa xof içində saxlamışdı. Paşinyanın hazırda Yerevanın küçələrində meydan sulayan, Gümrüdəsə daşqalaq olunan opponentləri 44 günlük müharibə bitəndən sonra onu devirmək üçün dinc etirazın bütün müasir və arxaik formalarından gen-bol istifadə etsələr də nəinki heç nəyə nail ola bilmədilər, hətta məğlubiyyətin isti izləriylə keçirilən sırf demokratik seçkini belə biabırcasına uduzdular. Baş nazirin bəxti onda gətirdi ki, postmüharibə dövrünün təlatümləri, sırf erməni üslublu vay-şüvənləri meydana yeni siyasi qüvvə çıxarda bilmədi və o yenə də gözdən düşmüş, etimad limitini itirmiş marginallarla üz-üzə qaldı.***

Bax: səh.3

## XORUZ DÖYÜŞDÜRMƏK, İT BOĞUŞDURMAQ QADAĞAN OLSA DA...

**Əvvəllər, xüsusilə Bakıda, eləcə də bəzi rayonlarda it boğuşdurmaq və xoruz döyüşdürmək bərk dəbdə idi. Sonra bunu tamamilə qadağan elədilər.**

Qədir Rüstəmov da xoruz döyüşdürməyi xoşlayardı, hətta ona Daşkənddən bir döyüşkən xoruz göndərmişdilər. Sonra o da tərgitdi. Qadağan olunduğuna görə yox, elə özünün xoşuna gəlmədi.

Yoxsa, Qədirə nə qoruq-qaytaq?

İndi bu missiyanı öz üzərinə özəl televiziya kanalları və mətbuat götürüb. Demokratiya olduğuna görə bunu qadağan etmək mümkün deyil. Ayağı yer tutan ya özəl kanallara qaçır, ya da mətbuata - qırğındı.

Bircə fərqi var ki, burda döyüşənlərə heç kim "stavka" qoymur.

**Buna da bir əncam çəkən tapılsaydı!**

## GÜNÜN LƏTİFƏSİ

### "ERMƏNİ RADİOSU"NDAN DAHA BİR ANEKDOT

Aşot təzəcə evlənir. Bir az keçəndən sonra arvadı Haykanuş deyir:

***- Aşot, deyəsən ananın, atanın xoşuna gəlmirəm.***

***- Ay qız, anamı, atamı boş ver, əsas odur sülhməramlıların xoşuna gələsən.***

# İlham Əliyev ICESCO-nun Baş direktorunu qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 20-də ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki qəbul edib.**

Adalet.az xəbər verir ki, dövlət başçısı ICESCO-nun Baş direktorunun keçən il Ağdam və Füzuliyə, bu il isə Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya səfərindən məmnunluğunu bildirib, Salim bin Məhəmməd əl-Malikin Şuşada təşkil edilən beynəlxalq konfransda iştirakını yüksək qiymətləndirib.

Prezident İlham Əliyev Azərbaycanın uzun illər ISESCO ilə səmərəli və uğurlu əməkdaşlıq həyata keçirdiyini vurğulayaraq torpaqlarımızın ermənilər tərəfindən işğal olunduğu, eləcə də 44 günlük müharibə dövründə ISESCO-nun ölkəmizin ədalətli mövqeyini davamlı dəstəklədiyinə görə minnətdarlığını bildirib. Dövlət başçısı qeyd edib ki, biz istərdik, UNESCO-nun nümayəndələri də işğaldan azad olunmuş ərazilərə səfər edərək ermənilərin törətdikləri dağıntıları öz gözləri ilə görsünlər. Lakin əfsuslar olsun ki, müharibənin bitməsindən il yarımdan artıq vaxt keçməsinə baxmayaraq, bu təşkilatın nümayəndələri həmin ərazilərə səfər etməyiblər. Prezident İlham Əliyev qeyd edib ki, ermənilər tərəfindən ölkəmizə vurulan maddi ziyanın qiymətləndirilməsində və bunun beynəlxalq ictimaiyyətə çatdırılmasında ISESCO-nun fəaliyyəti və onun ekspertlərinin iştirakı önəmli rol oynaya bilər.

Dövlət başçısı Bakıda ISESCO-nun Regional Ofisinin yaradılmasının əməkdaşlığımızın genişləndirilməsi işində əhəmiyyətini qeyd edib, bu təşkilatın Azərbaycanın haqq işinə göstərdiyi dostluq və tərəfdaşlıq dəstəyinə görə bir daha təşəkkürünü bildirib. Xoş sözlərə görə minnətdarlığını ifadə edən ICESCO-nun Baş direktoru işğaldan azad edilmiş ərazilərə bundan əvvəlki səfərini xatırladaraq həmin səfər zamanı orada gördükləri mənzərənin onları çox məyus etdiyini bildirdi, həmin ərazilərdə kütləvi dağıntıları, hər şeyin yerlə-yeksan olunduğunu gördüklərini deyib. Eyni zamanda Salim bin Məhəmməd əl-Malik budəfəki səfəri zamanı işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən böyük quruculuq işlərinin şahidi olduqlarını məmnunluqla qeyd edib. Bu yerlərin çox gözəl olduğunu vurğulayan ICESCO-nun Baş direktoru artıq xarici ölkələrdən də çox sayda insanın buraya gəlmək istədiklərini bildirib. Bu baxımdan, Salim bin Məhəmməd əl-Malik dövlət başçısının işğaldan azad edilmiş ərazilərə mütəmadi səfərlərini və bu səfərlər zamanı məscidləri ziyarətini, insanlarla görüşlərini, orada çalışanlara verdiyi mənəvi dəstəyi yüksək qiymətləndirib. ICESCO-nun Baş direktoru Şuşaya səfəri zamanı kilsəyə də baş çəkdiklərini və orada bərpa işlərinin yekunlaşmaq üzrə olduğunu qeyd edib.

# Şuşa Real Məktəbi bərpa ediləcək

**Prezident İlham Əliyev Şuşa şəhərində Şuşa Real Məktəbinin binasının layihələndirilməsi və bərpası ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Adalet.az xəbər verir ki, sərəncamla Şuşa şəhərində Şuşa Real Məktəbinin binasının layihələndirilməsi və bərpası məqsədilə Azərbaycanın 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Təhsil Nazirliyinə ilkin olaraq 1 milyon manat ayrılıb.

# Füzuli Peşə Liseyi tikiləcək

**Prezident İlham Əliyev Füzuli Peşə Liseyinin binasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.**

Adalet.az xəbər verir ki, Sərəncama əsasən, Füzuli Peşə Liseyinin binasının layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Təhsil Nazirliyinə ilkin olaraq 1 milyon manat ayrılıb.

Maliyyə Nazirliyi bu Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etməli, Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

## *Azərbaycanda Milli Müdafiə Universiteti yaradıldı*

**Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığı ilə Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğunlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində hərbi təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə Milli Müdafiə Universiteti yaradılıb.**

Bu barədə Adalet.az-a Müdafiə Nazirliyindən məlumat verilib.

Əvvəllər mövcud olan Silahlı Qüvvələrin Hərbi Akademiyası, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi və digər xüsusi təyinatlı təhsil müəssisələri öz fəaliyyətlərini yeni yaradılan Milli Müdafiə Universitetinin nəzdində Hərbi Elmi-Tədqiqat İnstitutu, Hərbi İdarəetmə İnstitutu, Heydər Əliyev adına Hərbi İnstitut, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi, Heydər Əliyev adına hərbi lisey, Cəmşid Naxçıvanski adına hərbi lisey və Tibb Universitetinin Hərbi Tibb Fakültəsi adı altında fəaliyyət göstərirlər.

Aparılan struktur islahatları çərçivəsində ordumuzda elm və hərbi təhsil sahəsi daha da uğurlu inkişaf edir.

## *Bakı Şəhər İcra Hakimiyyəti sakinlərə müraciət edib*

**Yaz mövsümü ilə əlaqədar sabah, may ayının 21-də Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən paytaxtda ümumşəhər daxili iməcliyinin keçirilməsi qərara alınıb.**

Bakı Şəhər İcra Hakimiyyətindən Adalet.az-a verilən məlumata görə, daxili iməclik zamanı prospekt və küçələr, səki kənarları, bordyur və işıq dirəkləri, məhəccərlər, mağaza vitrinləri, koşklər və dayanacaqlar, ağaclar və yaşıllıq zolaqları yuyulacaq, ağaclar budanacaq, həyət və məhəllələrdə təmizlik-abadlıq işləri görüləcəkdir.

Bakı Şəhər İcra Hakimiyyəti müəssisə, idarə və təşkilatların kollektivlərini, paytaxt sakinlərini bu iməclikdə fəal olmağa çağırır, həmçinin sahibkarlar və özəl sektorda çalışanlara müraciət edərək onları özlərinə məxsus ticarət, ictimai-iaşə və digər obyektlərin fasad və vitrinlərində, obyektlərinin qarşısında təmizlik və səliqə-sahman yaradılmasında iştirak etməyə dəvət edir.

Bununla da hər birimiz paytaxtımızın daha da gözəlləşməsinə öz töhfəmizi vermiş olacağıq.

# İqtidar-müxalifət dialoqu davam edir

**Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev son günlər artıq 7 siyasi partiya rəhbəri ilə görüşüb və bu görüşlər davam etməkdədir.**

Fakt odur ki, siyasi sistemdə tətbiq olunan yeni siyasi konfiqurasiya iqtidar-müxalifət, o cümlədən bütün partiyalar arasında dayanıqlı, sivil münasibətlər sistemi formalaşdırdı. Prezident İlham Əliyevin elan etdiyi islahatlar paketinin tərkib hissəsi olan, 2019-cu ildə həyata keçirilən kadr və sturuktur dəyişiklikləri çox keçmədən öz bəhrəsini verdi. Bu islahatların nəticəsində cəmiyyət 2020-ci ildən ölkənin siyasi sistemində yeni münasibətlərin şahidi oldu. Ali siyasi rəhbərliyin iradəsi ilə başlanan iqtidar-müxalifət dialoqu ölkədə siyasi qüvvələr arasındakı münasibətləri dünya standartlarına uyğunlaşdırdı.

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin 2020-ci ilin əvvəlindən siyasi partiyalarla apardığı dialoq iqtidarla müxalifət arasında əməkdaşlıq formatının təməl prinsiplərini və siyasi partiyalar arasında etimad mühitinin yaranmasına səbəb oldu. Yeni və sivil münasibətlərə əsaslanan bu model 2020-ci ilin ilk yarısında siyasi partiyalarla iqtidar arasında çoxillik problemləri və soyuq münasibətləri tamamilə aradan qaldırdı. Dövlətçilik prinsiplərinin qorunmasına xidmət edən yeni etimad mühiti 44 günlük Vətən müharibəsi zaman özünü bir daha təsdiqlədi. Bütün siyasi partiyalar Ali Baş Komandanın ətrafında birləşərək, Vətən müharibəsində hərbi və siyasi qələbənin qazanılmasında iştirak etdi.

Bu prosesin uğurla həyata keçirilməsində Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev və müvafiq şöbənin əməkdaşları Prezident İlham Əliyevin onların üzərinə qoyduğu vəzifəni uğurla tamamladılar.

2020-ci ildən bu günə qədər böyük bir yol keçilib. Davamlı xarakter alan iqtidar-müxalifət dialoqu hazırda geridönüşü olmayan və günbəgün inkişaf edən bir prosesdir. Bu dialoq indi yeni mərhələyə adlayıb. Artıq dialoqdan əməkdaşlıq modelinə keçid edilib. Ona görə də hazırda proses daha geniş spektrdə davam etdirilir.

Yeni siyasi münasibətlər sisteminin elə bir mərhələsindəyik ki, indi iqtidarla müxalifətin heç bir spektri arasında süni məsafə yoxdur. Münasibətlər və əlaqələr daimi və əlçatandır. Münasibətlərin yeni dövrün tələblərinə uyğun qurulması cəmiyyətin siyasi aktivliyinə də böyük mənada müsbət təsir edib. Əvvəlki illərdən fərqli olaraq, müxalifətə yönəlik strategiya tamamilə dəyişib. İqtidar müxalifətin, o cümlədən bütün siyasi partiyaların fəallaşmasında, cəmiyyətdə söz sahibinə çevrilməsində, siyasi təşkilatların siyasi diskussiya klubları və ya dərnəklər səviyyəsindən güclü siyasi institut formatına qədər güclənməsində maraqlıdır.

Siyasi partiyaların güclü bir siyasi institut kimi fəaliyyəti dövlətin möhkəmlənməsi və güclənməsi üçün iqtidarın həyata keçirdiyi strategiyanın tərkib hissəsidir.

Ölkədə stabilliyin dayanıqlı olmasının əsas bazasını təşkil edən subyektlərdən biri də siyasi partiyalardır. Ona görə də iqtidar mövcud siyasi partiyaların formal xarakterindən konseptual fəaliyyət modelinə malik siyasi institut modelinə keçidində siyasi təşklatlara mümkün qədər kömək etməyə çalışır. Davam edən dialoq və əməkdaşlığın da əsas məqsədi siyasi partiyaların fəaliyyət imkanlarının artırılması, güclü siyasi təsisata çevrilməsi üçün onlara maksimum imkanlar yaradılmasıdır. Siyasi fəaliyyət üçün partiyaların qərargahla təmini, müxtəlif siyasi tədbirlərin keçirilməsi, aktiv fəaliyyət imkanlarının genişləndirilməsi üçün dövlət tərəfindən müvafiq şərait yaradılması bunun bariz nümunəsidir.

Bu gün siyasi partiyalara mövqeyindən, siyasi baxışından, hakimiyyətə münasibətindən asılı olmayaraq, normal fəaliyyət üçün bütün imkanlar yaradılıb. Azərbaycan Respublikasının Milli Məclisinə keçirilən 2020-ci il seçkilərində 11 siyasi partiya təmsilçisi parlamentə seçildi. Hazırda Milli Məclisdə 11 siyasi partiya təmsil olunur. Son iki ildə 9 siyasi partiya dövlət qeydiyyatına alınıb.



İqtidar-müxalifət dialoqu başlayandan sonra müxalifət təmsilçilərinin cəmiyyətlə təmaslarında da ciddi aktivlik hiss olunur. Siyasi partiya təmsilçilərinin müxtəlif tribunalardan, efirlərdən partiya üzvləri və seçicilərlə ünsiyyət imkanları genişlənib. Bir zamanlar müxalifət nümayəndələrinin televiziya kanallarında çıxış etmək, öz fikir və təkliflərini dövlətə, cəmiyyətə çatdırmaq imkanları məhdud idi. İndi isə istənilən televiziya kanalında sərbəst çıxış etmək, dövlət siyasətinin formalaşmasında öz fikir və təklifləri ilə iştirak imkanları var. Bütün bu imkanlar siyasi partiyaların güclənməsinə təkan verir.

Azərbaycanda siyasi institutların inkişafı üçün yaradılan bütün imkanlar dövlət siyasətinin və Prezidentin elan etdiyi islahatlar paketinin tərkib hissəsidir. Ölkənin əsas və aparıcı siyasi partiyaları dialoqla başlayan və əməkdaşlıq modelinə keçidin yeni siyasi münasibətlər sistemində etdiyi dəyişiklikləri müsbət dəyərləndirir.

Xüsusi qeyd edək ki, iqtidar-müxalifət və siyasi partiyalar arasında dialoq ilk başlayanda, yeni siyasi konfiqurasiyalar yarananda, bəzi radikal qüvvələr bunu iqtidarın maraqlarına xidmət edən ötəri siyasi aksiyalardan biri, mövsümi missiya kimi xarakterizə etmək və cəmiyyəti çaşdırmaq istəyirdilər. Lakin onların təbliğatları baş tutmadı. Əksinə, cəmiyyət bu dialoq və əməkdaşlığı ölkədə sabitlik, stabillik baxımından müsbət qiymətləndirdi. Aparılan dialoq cəmiyyətin müxtəlif təbəqələri tərəfindən alqışlandı.

Bu gün siyasi diskussiyalar, siyasi qüvvələr arasında münasibətlər sosial şəbəkələr üzərindən qarşılıqlı təhdidlərdən uzaqlaşıb və qarşılıqlı etimad şəraitində davam edən canlı ünsiyyət formasına keçib. Gerçək təmaslar, faydalı fikir mübadilələri, məsləhətləşmələr, dövlətin gələcəyinə yönəlik fikirlər, təkliflər müzakirə edilir. Bu isə qarşılıqlı etimad mühitinin dərinləşməsinə xidmət edir. Birmənalı demək olar ki, bu gün siyasi partiyalarla iqtidar arasında siyasi etimad mühiti formalaşıb.

Qeyd etdiyimiz kimi Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev son iki həftədə Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə, Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev, Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev, Azərbaycan Yüksəliş Partiyasının sədri Anar Əsədli, Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev, Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov və Müstəqil Xalq Partiyasının sədri Əflan İbrahimovla görüşüb.

Görüşlərdə ölkədə aparılan məqsədyönlü islahatlar, bu islahatların ölkəmizin güclənməsinə, insanlarımızın rifah halının yaxşılaşmasına müsbət təsirləri, genişmiqyaslı islahatların məntiqi davamının yeni siyasi konfiqurasiyanın formalaşmasında özünü göstərməsi və nəticədə iqtidar-müxalifət siyasi dialoqunun dərinləşməsi prosesinin davam etdirilməsi ətrafında geniş fikir mübadiləsi aparılıb.

Eyni zamanda, Qələbədən sonra işğaldan azad edilmiş torpaqların yenidən qurulması, əhalinin sosial təminatının yaxşılaşdırılması və dövlət idarəetməsinin təkmilləşdirilməsi istiqamətində atılan addımlar, o cümlədən ölkədə korrupsiyaya qarşı sərt mübarizə tədbirləri və bu çoxşaxəli proseslərdə siyasi dialoq çərçivəsində müxalifət partiyalarının iştirakı kimi müsbət qiymətləndirilən məsələlər müzakirə edilib. Rəsmi məlumatlarda prosesin bundan sonra da davam edəcəyi bildirilir.

**Bütün bunlar Azərbaycan cəmiyyətinin inkişafının, yeni siyasi konfiqurasiyanın ölkədə yaratdığı yeni və dayanıqlı siyasi münasibətlər sisteminin davamlı olacağının göstəricisidir.**

**Cebhe.info**

# YUNANISTANIN BAŞ NAZİRİ BAYDENİN YANINDA DƏSMAL GÖTÜRÜB AĞLAYIB

**Deyib ki, Türkiyə Kiprin yarısını işğal edib, kömək istəyib.**

Kiprdə olmuşam. Yunanların Kipr türklərinə qarşı apardıqları soyqırımının şahidi olmuşam. Bir qəbiristanlıq vardı, yaşlı bir kişi pulsuz qəbiristanlığa qulluq edir, gələnlərə də məlumat verirdi. Bir kəndin yaxınlığında olan qəbiristanlıqda yatanların hamısı həmin kəndin sakinləri idi - yandırmışdılar, işgəncə vermişdilər. Necə ermənilər Qarabağda faşistlik eləmişdi, yunanlar da Kiprdə həmin faşistliyi etmişdilər. Qəbiristanlığa qulluq edən kişinin 5 uşağını və arvadını yandırmışdılar. O da elə ölü kimi bir şey idi, oturmuşdu qəbiristanlıqda - balalarının, arvadının yanında. Dəhşətli mənzərə idi. Hələ də o insanın dərdli sifəti gözümün qabağındadı. Ağlamaqdan gözünün yaşı da qurumuşdu.

Türkiyə Kipri işğal etməyib, bu adada yaşayan türklərin təhlükəsizliyini təmin edib.

Və adanın birləşməsi üçün referendum da keçirtdilər. Kipr türkləri bir dövlətdə birləşməyə razı olsalar da, yunan tərəf referendumda onun əleyhinə səs verdi. İndi Yunanıstanın baş naziri Miçotakis səfeh-səfeh danışır. Ona qulaq asanlar da ayaq üstə durub 3 dəqiqə onu səfeh-səfeh alqışlayır.

Yeri gəlmişkən, Kiprdə yunanların yaşadığı Ağdam boyda bir şəhər var ki, savaş zamanı yunanlar həmin şəhəri tərk edib, şəhər türklərin nəzarəti altındadı.

Türklər o şəhəri olduğu kimi saxlayıblar, nə qənimət üçün bir evə giriblər, nə də şəhərdə minlərlə maşına əl vurublar. Maşınları qalıb küçədə, evlər də dolu. Nə bir ev yandırıblar, nə də bir ev dağıdıblar. Deyiblər ki, nə vaxt barışıq olar, yunanlar gəlib öz şəhərlərinə sahib çıxarlar. Amma yunanlar türklər yaşayan hansı şəhərlərə, kəndlərə giriblərsə, ermənilər Ağdamı nə hala salıblarsa, o hala salıblar.

Bu bizim, yəni türklərin insanlığı, o da yunanların erməni kimi faşizmi.

**İndi gedib Baydendən imdad diləyirsən. Bayden hələ Ukrayna xalqı ilə rus xalqını qırdırmaqla məşğuldur. Əgər burda istəyinə nail olsa, sonra Çində çinlilərlə uyğurları qırdıracaq bir-birinə. Ondan sonra növbə yunanlarla türklərə çatacaq. Allah qoymasa.**

**Aqil ABBAS**

# Əhməd İsmayılov: "Azərbaycan mediası ciddi islahatlar dönəmini yaşayır"

**"Vətən müharibəsində Azərbaycan jurnalistləri peşə borclarını yerinə yetirməklə yanaşı, silaha sarılaraq da ölkənin müdafiəsinə qalxıb və onların əksəriyyəti dövlətin yüksək mükafatları ilə təltif olunublar".**

Adalet.az xəbər verir ki, bunu Medianin İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov Azərbaycan-Türkiyə Qeyri-Hökumət Təşkilatlarının Əməkdaşlıq Forumunda deyib.

Onun sözlərinə görə, vəzifə borclarını yerinə yetirərkən şəhid olan jurnalistlər də var: "Azərbaycan jurnalistləri birinci dəfə deyil ki, erməni terrorunun qurbanı olurlar. İndi isə Azərbaycan mediası öz işini qalib ölkənin və müasir çağırışların tempinə uyğunlaşdırmaq üçün yeni konseptual yanaşma sərgiləməlidir. 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidentinin ölkəmiz haqqında həqiqətlərin dünyaya çatdırılması istiqamətində yorulmaz fəaliyyəti media nümayəndələrinin öz peşə borclarını yerinə yetirərkən istinad etdikləri mötəbər mənbə və dəyərli nümunədir".

Ə.İsmayılov 44 günlük Vətən müharibəsində Azərbaycana dəstək göstərən Türkiyə mediasına təşəkkür edib: "Media nümayəndələri, qardaş ölkənin jurnalistləri dayanmadan döyüş bölgələrindən reportajlar hazırlamaqla haqq səsimizi dünyaya çatdırdılar. Bu gün Azərbaycan və Türkiyənin birgə media platforması mövcuddur. Platformamızın məqsədi Azərbaycan-Türkiyə ikitərəfli əlaqələrini və əməkdaşlığını media və kommunikasiya sahəsində gücləndirməklə strateji media ortaqlığının yaradılmasıdır. Bu istiqamətdə əsas fəaliyyətimiz beynəlxalq mediada, sosial şəbəkələrdə dünya ictimaiyyətini düzgün məlumatlandırmaqdır. Mediamızın birgə fəaliyyəti nəticəsində ölkələrimizə qarşı aparılan qarayaxma kampaniyalarına qarşı vahid cəbhədən cavab verəcəyik. Eyni zamanda türk dövlətlərinin ortaq mədəni dəyərlərinin təbliği istiqamətində işləməliyik".



İcraçı direktor bildirib ki, hazırda Azərbaycan mediası ciddi və əhatəli islahatlar dönəmini yaşayır: "Prezident İlham Əliyevin ötən il yanvarın 12-də imzaladığı "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" fərmanı ilə medianın inkişafında yeni bir mərhələnin bünövrəsi qoyulub.

MEDİA-nın yaradılması da məhz bu istiqamətdə həyata keçirilən quruculuq prosesinin tərkib hissəsidir. Agentlik media subyektlərinin fəaliyyətinin təkmilləşdirilməsi, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılması, onların sosial müdafiəsinin gücləndirilməsi, media sahəsində mütəxəssislər hazırlanması və onların əlavə təhsilinin təşkili, habelə media savadlılığının yüksəldilməsinə yönəlmiş genişmiqyaslı layihələr həyata keçirməkdədir.

Media sahəsində yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması, vətəndaş və cəmiyyət üçün ictimai maraq doğuran layihələrin həyata keçirilməsinin təşkili, həmçinin dövlət orqanları və qurumlarının, yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətinin əlaqələndirilməsinin həyata keçirilməsi MEDİA-nın əsas prioritetlərindəndir".

"Azərbaycanda plüralizmin, fikir və söz azadlığının təmin edilməsi, bütün media subyektlərinin inkişafı baxımından əlverişli mühitin yaradılması, eyni zamanda dövlətin jurnalist əməyinə diqqət və qayğısı bunun bariz sübutudur.

Bundan başqa, geniş ictimai müzakirələrdən sonra parlament tərəfindən qəbul edilmiş, dövlət başçısının imzaladığı "Media haqqında" qanun Azərbaycanın milli informasiya mühitinin sağlamlaşdırılmasına, onun rəqabət qabiliyyətini artırmağa, xüsusilə də media subyektlərinin iqtisadi müstəqilliklərinin gücləndirməsinə ciddi töhfədir.

Bizim ölkələrimiz haqqında həqiqətləri beynəlxalq auditoriyaya çatdırmaq üçün vətəndaş cəmiyyətinin fəallığı ilə yanaşı, jurnalistlərimiz arasında həmrəyliyə də ehtiyacımız var. Medialarımız öz peşəkar missiyasını yerinə yetirdiyi təqdirdə, səsimizin eşidilməsinə inanırıq. Azərbaycanın, Türkiyənin, bütünlükdə türk dünyasının həqiqətlərini işıqlandırmaq, beynəlxalq aləmi obyektiv informasiya ilə təmin etmək üçün peşəkarlığımızı və sayıqlığımızı artırmalıyıq", - o qeyd edib.

# *Ukraynalı ekspert: Avropa ikili oyun oynayır*

**ABŞ-ın 40 milyardlıq yardımı kifayət deyil, çünki Ukrayna bahalı daşınma və yeni silahlardan istifadə üzrə hərbçilərə təlim keçməli olacaq.**



Bunu ukraynalı hərbi ekspert Yuri Fedorov deyib.

"Sadəcə reallığı anlamaq lazımdır. Tez-tez deyirlər ki, Ukraynaya 40 milyardlıq silah gələcək. Amma hesab edirəm ki, faktiki silahlar 15 milyarda yaxındır. Çünki qalan vəsait nəqliyyat, təşkilati xərclər, təlim və bununla bağlı bir sıra digər məsələlərə xərclənəcək", - ekspert bildirib.

Fedorov Avropa ilə bağlı iddialarını da dilə gətirib:

"Həm Makron, həm də Şolts deyir ki, bu məsələnin diplomatik həllinə keçməyin vaxtı çatıb. Münaqişənin diplomatik həlli nədir? Atəşkəs! Atəşkəs o deməkdir ki, qoşunlar olduqları mövqelərdə qalırlar.

İkincisi isə sülhdür. Müharibə yoxdursa, deməli, artıq sülhdür. Belə bir atəşkəs sazişi Şimali və Cənubi Koreya arasında 1953-cü ildən qüvvədədir".

# DTX əməliyyat keçirdi

**Dövlət Təhlükəsizliyi (DTX) Xidməti tərəfindən beynəlxalq terrorçuluqla mübarizə istiqamətində həyata keçirilən kompleks əməliyyat-istintaq tədbirləri çərçivəsində daha əvvəl silahlı terror təşkilatının Türkiyə Respublikası ərazisində fəaliyyət göstərən birliklərinə üzv olma şübhəsi ilə Türkiyə ərazisində saxta pasportla Özbəkistan vətəndaşı İlyorjon İsanov kimi saxlanılaraq həbs edilib, lakin təqsiri sübuta yetirilmədiyi üçün azad edilən Azərbaycan vətəndaşı, 1977-ci il təvəllüdlü Osmanov Akif Aydın oğlunun dini düşmənçilik zəminində ölkə hüdudlarından kənarda terror aktlarının törədildiyi silahlı münaqişələrdə iştirakına əsaslı şübhələr müəyyən olunub.**

Adalet.az xəbər verir ki, bu barədə DTX-nin saytı məlumat yayıb. Başlanılmış cinayət işi üzrə aparılmış araşdırmalar nəticəsində Akif Osmanovun Suriya Ərəb Respublikasının Atma şəhərində xüsusi hazırlıq düşərgəsində təlimlər keçərək, odlu silah və partlayıcı maddələrdən istifadə qaydalarını mənimsəməklə dini radikalizm və dini düşmənçilik zəminində "Azəri Camaatı" adlı qanunsuz silahlı qruplaşmanın fəaliyyətində iştirak etməsi, qrup üzvləri ilə birlikdə "Şeyx Süleyman" qəsəbəsi uğrunda gedən döyüşlərə qoşularaq qəlpə yarası alması, habelə terror təşkilatı tərəfindən digər ölkələrin ərazisində sərbəst hərəkət edib cinayət məsuliyyətindən yayına bilməsi məqsədilə Özbəkistan Respublikası vətəndaşının adına saxta pasport ilə təmin olunması və həmin pasportla müxtəlif ölkələrdə olmasına dair mötəbər dəlillər əldə edilib.

**Akif Osmanov şübhəli şəxs qismində tutularaq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.1, 279.1-ci (Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmə, onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə) maddələri ilə cinayət məsuliyyətinə cəlb olunmuş, barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Hazırda cinayət işi üzrə araşdırmalar davam etdirilir.**

# PUTİN ERMƏNİLƏRDƏN QORXUR



**Ukraynada faşizmə qarşı mübarizə adı ilə müharibə aparan Putinin Qarabağda ermənilərin faşist cəlladı Njdeyə qoyduqları heykəli sökdürməyə cəsarəti çatmır.**

Qınamalı deyil, sağına baxır erməni kökənli Lavrovu görür, soluna baxır erməni kökənli Mişustini görür və görür ki, arada tək qalıb.



**Bəlkə gorbagor olmuş ATƏT-i çağıraq, gəlsinlər Şahbaz Quliyevlə Dilqəm Əsgərov arasında vasitəçilik etsinlər, yoxsa bir-birlərini qıracaqlar.**

**Mejduproçim, Şahbaz Quliyev hökumətdən elə şeylər tələb edir ki, heç qazilər, müharibə iştirakçıları o iddiada deyillər.**

***Gördülər COVİD-19-la camaatı qırıb qurtara bilmirlər, indi təzə xəstəlik kəşf ediblər - "Meymun çiçəyi". Özü də daha çox uşaqlarda müşahidə olunur. Artıq dünyada 8 ölkədə yayılıb.***





Rüstəm HACIYEV

## Dövlət Departamenti Türkiyənin "hə" deməməsinin səbəbini bilmir...?

**ABŞ-ın Dövlət Departamenti kimin harda yatıb, hansı yuxunu görməsindən xəbərləri var, lakin Türkiyənin İsveç və Finlandiyanın NATO-ya üzvülüyə qəbul edilməsinə nəyə görə, "hə" deməməsinin səbəbindən xəbərləri yox imiş.**

**Birləşmiş Ştatların dövlət departamentinin rəsmi nümayəndəsi Ned Prays bəyan edib ki, Türkiyə Finlandiya və İsveçin NATO-ya qəbulu ilə bağlı hər hansı bir tələb və ya təklif irəli sürməyib və onların bundan xəbərləri yoxdur.**

**Dövlət departamenti və Prays yəqin gündəlik mətbuatı izləmirlər. Türkiyənin prezidenti Rəcəb Tayib Ərdoğan rəsmi olaraq açıq mətnlə bəyan etdi ki, İsveç və Finlandiya Türkiyəyə qarşı sanksiyalar, embarqolar tədbiq edir və ölkələrində gizlənən terrorçuları dəstəkləyərək Türkiyəyə təslim etməkdən imtina edirlər. Ona görə də, onların NATO-ya üzvülüyünə qəbul olunmasına "hə" deməyəcəklər. Bütün dünya mətbuatı Türkiyə liderinin açıq mətnlə verdiyi bəyanatı tirajlayıb, hətta bu bəyənatla bağlı geniş müzakirələr də açılıb, lakin Dövlət Departamentinin və Praysın bundan xəbərləri olmayıb... İnanan daşa dönsün.**

**Amma gərək bu gün BMT meydanında, bu iki ölkənin alyansa qoşulması ilə bağlı Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə danışıqlar aparmağa hazırlaşan ABŞ-ın Dövlət katibi Entoni Blinken son günlər dünyada baş verən məsələlərlə bağlı Praysı və Dövlət Departamentini məlumatlandıraydı.**

**Türkiyənin "Star" qəzeti, dünən Finlandiya və İsveçin alyansa qəbul ediləsi üçün yeddi mərhələli müxtəlif şərtlərlə prosedur qaydalarını keçməli olacaqları barədə məlumat yayıb.**

**Şimali Atlantika müqaviləsinin 10-cu maddəsinə görə, alyansın Vaşinqton müqaviləsinin təsisçi ölkələrinin hər biri, istənilən Avropa dövlətini alyansa üzvülüyə təqdim edə bilər. Bununla yanaşı NATO-ya üzvülüyə daxil olmaq istəyən ölkə, alyansın bütün üzvlərinin razılığını almalıdır. Buna qədər isə həmin ölkə uzun müddətli, yeddi mərhələli çətin yollardan keçməlidir.**

**Şimali Atlantika Blokunun qoyduğu yeddi mərhələnin şərtləri ilə tanış olanlar yaxşı bilirlər ki, bu mərhələlərin keçilməsi şərtləri uzun illər tələb edir. ABŞ isə hazırda davam edən Rusiya Ukrayna müharibəsi fonunda, Rusiyanı daha da qıcıqlandırmaq, onsuzda artıq başını itirməyə başlayan Rusiyanı bitirmək üçün, Finlandiya və İsveçi mərhələsiz-zadsız tez-bazar NATO-ya soxuşdurmaq istəyir. Türkiyə isə heç hara tələsmir və yaxşı bilir ki, NATO elə əsasən ABŞ və Tütkiyədən ibarətdir. ABŞ-ın güçlü silah arsenalı, Türkiyənin isə çox güçlü ordusu. Qalan 28 üzvdən az-maz rolu olan Fransa və Böyük Britaniyanı çıxmaq şərtilə, qalanları simvolik görüntü yaratmaqdan başqa bir şeyə yaramırlar. Türkiyənin və ya ABŞ -ın bir dviziyasının sayı, NATO -nun "simvolik" üzvü Lüksemburqun ümumi əhalisinin sayından iki dəfə çoxdur...**

**İndi bu günədək hər hansı bir hərbi potensialları ilə Lüksemburqdan heç də fərqlənməyən Finlandiya və İsveçin hərbi qüvvələrinin NATO-ya qəbul olunması nəyi dəyişəcək ki? 30 üzv dövlət var idi, olacaq 32. Yəni yalnız sayı artacaq və yəqin ki, bir çox üzv dölətlərdə olduğu kimi, onların da alyansa üzvlük haqlarını ödəməyi, kommunistlər demiş "Sem dayı" boynuna götürəcək.**

**Əslinə baxsan heç Rusiya da Finlandiya və İsveçin NATO-ya girməsinə artıq qıcıqla yanaşmır. Rusiya lideri Vladimir Putin anlayır ki, artıq zaman onların xeyrinə işləmir. O, düşdüyü vəziyyətdən başa düşür ki, "Qaradan artıq rəng yoxdur", qarışıqlıq düşəndə Finlandiya da, İsveç də ayaq altında qalan dövlətlərdən biri olacaqlar. Nə fərqi var ki, ikisi artıq və ya ikisi əskik. Onsuz da Putin üçün irəlidə qələbə qazanmaq şansı yoxdur, geriyə isə yol dalana dirənib... Allah göstərməsin, atom bombası seçim eləmir.**

# İlham Əliyev: "Azərbaycan və Litva strateji tərəfdaşdırlar"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, ölkəmizdə rəsmi səfərdə olan Litva Respublikasının prezidenti Gitanas Nauseda ilə görüşdən sonra bəyan edib ki,"Litva ilə Azərbaycan uzun illərdir ki, strateji tərəfdaşdırlar. İki ölkə arasında imzalanmış Strateji Tərəfdaşlıq üzrə razılıq əməkdaşlığın mahiyyətini əks etdirir və ölkələr arasındakı güclü siyasi əlaqələrsiyasi dialoqun təzahürüdür".**

Prezident, qeyd edib ki, Azərbaycan Cənubi Qafqazı sülh, əməkdaşlıq və qarşılıqlı fəaliyyət bölgəsi kimi görmək istəyir.İkinci Qarabağ müharibəsindən sonra əməkdaşlıq formatını yaratmaq üçün imkan var. Təəssüf ki, Ermənistan indiyə qədər Cənubi Qafqazda üçtərəfli qarşılıqlı fəaliyyət formatının başlanmasına həvəs göstərmir.Cənubi Qafqaz üçün sülhə, təhlükəsizliyə və sabitliyə sadiqlik nümayiş etdirməyin vaxtıdır.Ermənistan rəsmi olaraq sülh müqaviləsi ilə bağlı Azərbaycan tərəfindən irəli sürülən beş əsas prinsipi qəbul etmişdir. İkinci Qarabağ müharibəsi qurtaran kimi Azərbaycan açıq şəkildə sülh müqaviləsinin bağlanmasını və sərhədlərin delimitasiyasına dair birgə komissiyanın yaradılmasını dəstəkləməyə başlamışdır.

"Azərbaycanın təklif etdiyi 5 prinsip BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və beynəlxalq hüquq normalarına uyğundur.Ermənistanın həmin prinsipləri qəbul etdiyini ehtiva edən ilkin mövqeyinə sadiq qalması sülh sazişinin imzalanması üçün əsas yaradır. Sərhədlərin delimitasiyasıartıq başlamalıdır. Təxminən 30 il ərzində Ermənistanla dövlət sərhədi, o cümlədən Azərbaycanın 20 faiz ərazisini təşkil edən digər rayonları işğal altında olub. Buna görə sərhədlərin delimitasiyası zərurəti aydındır".

İlham Əliyev Ermənistanın məsuliyyətsiz mövqe tutmasının narahatlıq doğururduğunu bildirərək, Azərbaycanınbununla bağlə işçi qrupunu vaxtında yaratdəğəni və nümayəndə heyətini ezam etməyə hazır olduğunu bildirib: "Lakin, aprelin 29-da Ermənistan artıq razılaşdırılmış görüşü ləğv etdi. Ermənistan 7-11 may tarixlərində sərhəddə yeni görüşün keçirilməsindən də imtina etdi. İşə başlamaq üçün Ermənistandan hər hansı yeni tarixləri gözləyirik".

"Azərbaycan BMT Nizamnaməsinin ölkəmizə verdiyi özünü müdafiə hüququndan tam yararlandı. Azərbaycan təxminən 30 il



danışıqlara sadiq qaldı. Uzun müddət ərzində ölkəmiz Ermənistana qarşı beynəlxalq ictimaiyyət tərəfindən sanksiyaların tətbiq edilməsinə çağırırdı. Əgər sanksiyalartətbiq edilsəydi, onda, ola bilsin, heç müharibə olmazdı. Lakin əfsuslar olsun ki, Ermənistana qarşı heç bir sanksiya tətbiq edilmədi. Azərbaycan ərazi bütövlüyünü hərbi-siyasi yolla özü bərpa etdi. BMT-nin Təhlükəsizlik Şurasının Ermənistanın qoşunlarının dərhal çıxarılmasını tələb edən qətnamələrini ölkəmiz özü icra etdi".

İndi Azərbaycan ərazilərin yenidən qurulması və canlandırılması məsələsi ilə üz-üzədir.İşğal nəticəsində hər şey dağıdılmışdır və yerlə-yeksan edilmişdir. Beynəlxalq ekspertlər azad edilmiş şəhərlərdən biri olan Ağdamı "Qafqazın Hirosiması" adlandırırlar.

Prezident İlham Əliyev bidirib ki, Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Avropa İttifaqı-Azərbaycan əməkdaşlığıuğurla inkişaf edir. Enerji, nəqliyyat təhlükəsizliyi, ticarət - perspektiv əməkdaşlıq istiqamətləridir. Avropaya təbii qazın ixracına başlamağımızı və neft-qaz qiymətlərinin artmaqda olduğu faktını nəzərə alaraq, cari ildə Avropa İttifaqı ilə ticarət dövriyyəsiartıb. Avropa İttifaqının 9 üzvü ilə Azərbaycan artıq strateji tərəfdaşlıq haqqında razılıqlar imzalayıb. Bu, onu göstərir ki, Avropa İttifaqı da Azərbaycan qədər bu əməkdaşlıqda maraqlıdır.

Prezident İlham Əliyevin cari ilin 18 may tarixində keçirilmiş Azərbaycan-Litva biznes forumunda çıxış edib

"Ölkələr arasındakı güclü siyasi münasibətləri nəzərə alaraq, uzun illərdir ki, biz artıq strateji tərəfdaşlarıq.Litva Prezidentinin səfəri fəal siyasi dialoqun olduğunu bir daha nümayiş etdirir. İqtisadiyyat, ticarət, investisiya və digər sahələrdə fəal qarşılıqlı əlaqədə olmaq üçün əsl vaxtdır.

Biznes forum işgüzar əlaqələr qurmaq üçün yaxşı fürsətdir. Birgə hökumətlərarası komissiya bizim işgüzar dairələrin səylərini əlaqələndirəcək, eyni zamanda, hər iki ölkədə iş qurmaq üçün çoxlu imkanlar yaradacaqdır. Gündəlikdə olan məsələlər arasında ticarət, investisiya, kənd təsərrüfatı, informasiya texnologiyalarının inkişaf etdirilməsi, nəqliyyat, enerji və təhsil sahələri var. Bütün məsələlərdə ümumi anlayış vardır.Azərbaycanda biznes mühiti investorlar üçün əlverişlidir. Ölkəmizə on milyardlarla birbaşa xarici investisiyalar qoyulur. Xarici şirkətlərin sərmayə portfelinin şaxələndirilməsi çox vacibdir. İnvestisiya proqramlarıilk dövrdə əsasən neft-qaz sektoruna aid idi, hal-hazırda isə investisiya bərpaolunan enerji sahəsinidə əhatə edir. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi əsas prioritetdir. Enerji sektoru ənənəvi olaraq iqtisadiyyatda aparıcı sektor olub və bu, davam edəcəkdir. Azərbaycan qazını ilk dəfə 2021-ci ilin yanvarından başlayaraq Avropa İttifaqı da daxil olmaqla müxtəlif məntəqələrə nəql edən Cənub Qaz Dəhlizinin tikintisi, 3500 kilometr uzunluğunda birləşdirilmiş çoxsaylı boru kəməri sistemiyekunlaşıb.

Ölkənin inkişaf dinamikasının əsas göstəriciləri. Cari ilin dörd ayının nəticələri ümumi olaraq perspektivlidir. Ölkənin iqtisadiyyatı 7,2 faiz artmışdır. Qeyri-neft sektoru ilə bağlı daha yaxşı rəqəmlər vardır, burada artım 11,4 faizdir. İxrac 85 faiz artıb, qeyri-neft ixracı isə 40 faizə yaxın artıb. İşsizlik səviyyəsi5-6 faiz təşkil edir. Azərbaycan əhalisinin sayı10 milyona qədər artıb.

Ölkələrimiz arasında əməkdaşlıq üçün dayanıqlı nəqliyyat yollarının olması çox önəmlidir. Azərbaycanda nəqliyyat şəbəkəsininşaxələndirilmiş zənciriyaradılıb. Coğrafi yerləşməninüstünlüklərindən faydalanaraq biz müasir infrastruktur - dəniz limanı, dəmir yolu bağlantıları, bir neçə beynəlxalq hava limanları, avtomobil yolları yaratdıq. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin üzərində yerləşir. Açıq dənizə çıxışı olmayan ölkə olmasına baxmayaraq, Azərbaycan önəmli nəqliyyat mərkəzinə çevrilib.

Azərbaycan öz enerji təhlükəsizliyini 100 faiz təmin edir. Eyni zamanda ölkəmiz Avropa İttifaqının üzvlərinin də enerji təhlükəsizliyini təmin edir. Azərbaycan neft, qaz, elektrik enerjisi, neft-kimya məhsulları ixrac edir. Azərbaycanın enerji resurslarına ehtiyac heç vaxt olmadığı qədər böyükdür.Avropa istehlakçılarına əlavə enerji resursları mənbələri lazımdır. Bu baxımdan, Azərbaycan Avropa İttifaqı tərəfindən töhfə verən tərəf kimi qəbul edilir. Avropa istehlakçıları üçün bərpaolunan enerji mənbələri hesabına istehsal edilmiş enerji daha çox cəlbedici ola bilər.

**Azərbaycan donor ölkəsinə çevrilib. Ölkəmiz özü kredit ayırır. Mövcud ehtiyatlar ölkənin xarici borclarını bir neçə ay ərzində sıfra endirə bilər. Bu, yaxşı iqtisadi vəziyyətdən xəbər verir".**

**Hazırladı:**
**Mehriban Cəfərova**

Mehman CAVADOĞLU

## Siyasətçilər müharibə, xalq sülh istəyir

***Mayın əvvəlindən davamlı etiraz aksiyaları keçirən Ermənistan müxalifəti iki günlük fasilədən sonra bu gün yenidən küçələrə çıxacaq. Parlamentin sədr müavini və müqavimət hərəkatının koordinatoru İşxan Saqatelyan keçən həftənin axırında keçirdiyi mətbuat konfransında gələn həftədən, yəni artıq bu gündən hərəkatın taktikasının dəyişəcəyini bildirmiş, ancaq yeni taktikanın detalları barədə konkret bir söz deməyib tərəfdarlarını intizar, əleyhdarlarınısa xof içində saxlamışdı.***

***Paşinyanın hazırda Yerevanın küçələrində meydan sulayan, Gümrüdəsə daşqalaq olunan opponentləri 44 günlük müharibə bitəndən sonra onu devirmək üçün dinc etirazın bütün müasir və arxaik formalarından gen-bol istifadə etsələr də nəinki heç nəyə nail ola bilmədilər, hətta məğlubiyyətin isti izləriylə keçirilən sırf demokratik seçkini belə biabırcasına uduzdular. Baş nazirin bəxti onda gətirdi ki, postmüharibə dövrünün təlatümləri, sırf erməni üslublu vay-şüvənləri meydana yeni siyasi qüvvə çıxarda bilmədi və o yenə də gözdən düşmüş, etimad limitini itirmiş marginallarla üz-üzə qaldı.***

***Yuxarida da dediyimiz kimi bu günkü etiraz aksiyalarının koordinatoru İşxan Saqatelyan "Daşnaksütun" partiyasının təmsilçisidir.***

***"Daşnaksütun" hələ XIX əsrin sonarında digər erməni partiysı "Qnçak"dan bir az sonra yaranmış və hayların bütün tarixi müsibətlərinin əsas müəllifi olmuşdu. Bunu biz yox, 1919-cu ildə Ermənistandakı daşnak hökumətinin baş naziri, daşnakların lideri Hovannes Kaçaznuni deyir.***

***O, partiyanın 1923-cü ildə Buxarestdə keçirilən qurultayındakı hesabat məruzəsində təşkilatın bütün səhvlərini və cinayətlərini etiraf eləyir. Dinc müsəlman əhalisinin öldürülməsi, erməni terroru, türk dövlətinə qarşı könüllü silahlı qüvvələrin yaradılması, rusların və ingilislərin əlində alətə çevrilmələri, deportasiya qərarının qaçılmaz olması və s. məsələlərlə bağlı bütün həqiqətləri açıb söyləyir.***

***Konkret şəkildə bildirir ki, artıq "Daşnaksütun"un edəcəyi bir şey qalmayıb, partiya intihara məhkumdur. Erməni xalqına qarşı törədilən bütün cinayətlərin baiskarı daşnaklar və onların rəhbərləridir. (Yeri gəlmişkən, həmin məruzə adalet.az saytında dərc olunub)***

***Hazırda daşnakların əvvəlki nüfuzundan əsər-əlamət qalmasa da, Kazaçnuninin bu cür tükürpədici etiraflarına rəğmən partiya hələ də tarixin arxivinə gömülməyib. Düzdür, xeyli kiçilib və marginallaşıb. Bir vaxtlar ingilislərə, ruslara quyruq bulayan, onların komandasiyla oturub-duranların indiki tör-töküntüləri artıq Qarabağ ermənilərinin odioz lideri Köçəryanın ümidinə qalıblar. Təsadüfi deyil ki, bu gün Yerevandakı etiraz aksiyalarını idarə eləyən Saqatelyan da məhz onun siyahısıyla parlamentə düşüb.***

***Artıq xeyli müddətdir davam eləyən etiraz aksiyalarının ən ilginc məqamı Paşinyanın davranışlarıdır. Baş nazir çılğın xarakter sahibi olsa da özünü xeyli təmkinli və arxayın aparır, nə daxili iş rejimini dəyişir, nə də xarici səfərlərinin qrafikinə əl gəzdirir.***

***Hərçənd, etirazçıların yeganə məqsədinin Qarabağ yox, məhz onu hakimiyyətdən uzaqlaşdırmaq olduğunu da yaxşı bilir. Heç onlar da bu niyyətlərini gizlətmir, gecə-gündüz "istefa" deyə bağırırlar. Əslində, onlar bu niyyətlərini heç gizlətməyə də çalışmırlar.***

***Bu baxımdan bir neçə gün əvvəl meydana təşrif buyurmuş üçüncü prezident Serj Sərkisyan jurnalistin "Şuşanı azad eləmək mümkündürmü?" sualına verdiyi cavab çox maraqlıdır: "Bu gün ermənіliyin (Ermənistanın və ermənilərin yox, məhz ermənіliyin.***

***Xəstə təfəkkür daşıyıcısı olan toplumların leksikonunda belə ibarəli deyimlərə tez-tez rast gəlmək mümkündür) qarşısında başqa vəzifə durur - bu adamları hakimiyyətdən kənarlaşdırmaq və ciddi problemlərin həlliylə məşğul olmaq.***

***Paşinyanın bu qazularına rəğmən hazırda Qarabağ ermənilərinin avantürasından can doymuş Ermənistan əhalisi arasında tamam başqa ovqat hökm, onlar Paşinyanı devirib Qarabağ klanını hakimiyyətə gətirmək yox, indiyədək erməni cəmiyyətində heç kimin dilinə gətirməyə cürət eləmədiyi tamam fərqli perspektivlər barədə düşünürlər.***

***Bu günlərdə bir qrup fəal şəxs Epress.am saytında "Sülh - başqa heç nə" başlıqlı müraciət yerləşdiriblər. Müraciətdə hazırda Robert Köçəryan və Serj Sərkisyanın Yerevan küçələrində mitinq edən tərəfdarları haqqında sərt ifadələr işlədir, ərazi iddiasından birdəfəlik əl çəkməyin vacibliyi qeyd edilir, sülh və dinc birgəyaşayışın alternativi olmadığı bildirilir.***

***Qarabağ məsələsi ətrafında alver edən müharibə partiyalarıının fəaliyyətinin qadağan olunmasının vaxtı çatdığını deyən müraciət müəllifləri daha sonra yazırlar ki, özünü millətin xilaskarı adlandıran siyasətçilərin heç biri nə Azərbaycan, nə də Türkiyə ilə vuruşası deyil.***

***Odur ki, hazırda erməni qisasçılığının yeganə hədəfi vətən uğrunda ölmək yox, öz ölkəsində azad, xoşbəxt və ləyaqətlə yaşamaq istəyən bizim kimi "daxili türklər"dir... "Biz Ermənistan Respublikasının legitim hakimiyyətindən tələb edirik ki, Qarabağ konfliktini sülh müqaviləsiylə həll eləməklə bağlı öz vədlərinə əməl etsin. Biz sülh, yalnız sülh tələb edirik". - deyə müraciətin sonunda deyilir.***

***Müraciəti imzalayanlar arasında ziyalılardan tutmuş evdar qadınlara kimi müxtəlif sosial zümrəyə məxsus insanların olması göstərir ki, başı əhlət daşına dəymiş erməni cəmiyyəti nəhayət, ayılmağa və reallıqlara adekvat reaksiya verməyə başlayır.***

***Uzun illərdir ki, öz yaxın qonşularına qarşı kinə və nifrətə köklənmiş bir toplumda bu məzmunda bir müraciətin peyda olması həqiqətən çox mühüm hadisədir. İndiyə kimi ermənilər nə çəkibsə öz başbilənlərindən çəkib. Erməni kilsəsinn, ziyalısının, siyasətçisinin sərhəd tanımayan ambisiyası və aqressiv təfəkkürü sonda sıravi erməninin başında çatlayıb. Kazaçnuninin yuxarıda adını çəkdiyimiz məruzəsi də məhz bu həqiqətlərin etirafı baxımından maraqlıdır. Onun yazdıqlarından nəticə çıxarmayanlar çox güman ki, bu son müraciəti də qulaqardına vuracaqlar.***

***Amma buna baxmayaraq belə təşəbbüslərin sayı nə qədər çox olsa bir o qədər yaxşıdır. Vaxt gələr, bəhrə verər və ermənilər öz əlləriylə Ndjenin heykəllərinin uçurdub yerində Kazaçnuninin heykəllərini ucaldarlar.***

## Natiq Məmmədli: "İnformasiyanın mənbəyi dəqiq olmalıdır ki, cəmiyyətin buna..."



**"Keçən il bu kimi tədbirlərdə 600-ə yaxın jurnalist iştirak edib".**

Adalet.az xəbər verir ki, bu sözləri Medianın İnkişafı Agentliyində Media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri Natiq Məmmədli deyib.

O bildirib ki, bu il isə Agentlik tərəfindən aidiyyəti qurumlarla 800-ə yaxın jurnalistin sahəvi jurnalistikanın təkmilləşdirilməsində iştirakının təşkili planlaşdırılır: "İnformasiyanın mənbəyi dəqiq olmalıdır ki, cəmiyyətin buna inanması daha asan olsun.

Kommunikasiya mötəbər olmalıdır. Jurnalist öz məsuliyyətini dərk etməlidir. Hazırlanan material həm ölkə daxili auditoriyada, həm də ölkə sərhədlərindən kənarda da Azərbaycan reallığını ifadə etmək gücünə malikdir. Düşünürəm ki, bu kimi proqramlar gələcəkdə bütün sahələrdə, eləcə də hüquq sistemi üzrə əldə edilən informasiyalar jurnalistlərə peşə fəaliyyətində faydalı olacaqdır.

## Amerikalıların ən böyük problemi inflyasiyadır



**İctimaiyyət inflyasiyanı ABŞ-ın üzləşdiyi əsas problem kimi görür. Bu barədə danışan siyasi şərhçi Əziz Əlibəyli bildirib ki,bununla yanaşı irçilik problemi hələ də ABŞ-da yaşanmaqdadır.**

"Hər on amerikalıdan yeddisi inflyasiyaya ölkənin ən böyük böyük problemi kimi baxır, növbəti yerlərdə isə səhiyyə xidmətinin əlçatımlı olmaması (55%) və cinayətlər (54%) gəlir.

Pew Araşdırma Mərkəzinin 25 aprel-1 May tarixlərində 5074 respondent arasında apardığı sorğuya görə, fikri soruşulanlarım təxminən yarısı silah zorakılığı və federal büdcə kəsirinin çox böyük problem olduğunu deyir (hər biri 51%). Koronavirus pandemiyasının başlamasından iki ildən çox vaxt keçməsinə baxmayaraq, amerikalıların yalnız 19%-i onu ölkə üçün çox böyük problem olaraq.

2020-ci ilin iyun ayında, epidemiyanın ilkin mərhələlərində, 58% bunu çox böyük bir problem olaraq qiymətləndirirdi.

Respublikaçılara görə inflyasiya ən böyük milli problemdir.

Demokratlara görə əsas narahatlıqlar silah zorakılığı, tibbi xidmətin əlçatımlı olmaması və anlığı dəyişikliyidir.

**İrqçiliyin ölkə üçün çox böyük problem olduğunu deyənlərin payı ötən aprel ayından bu yana 10 faiz azalaraq 45%-dən 35%-ə düşüb. Dəyişikliklərin əksəriyyəti Demokratlar arasında olub: 49% indi irqçiliyi əsas problem hesab edir, təxminən bir il əvvəl bu rəqəm 67% idi. Respublikaçıların fikirləri əsasən dəyişməzdir (bu gün 14%, sonra 19%)".**

**Emin**

# Nə sülh, nə hərb

## Rus siyasətinin sevimli taktikası

**"Biz Ermənistan, Rusiya və Azərbaycanın baş nazir müavinlərinin həmsədrliyi altında yaradılmış üçtərəfli komissiyanın fəaliyyətini yüksək qiymətləndiririk ". Bu bəyanatla Rusiya XİN-in sözçüsü Mariya Zaxarova çıxış edib. Xanım Zaxarovanın sözlərinə görə Sergey Lavrovun Ararat Mirzoyan və Ceyhun Bayramovla mayın 12-də Düşənbədə keçirilmiş görüşündə Cənubi Qafqazda bütün növ nəqliyyat və iqtisadi əlaqələrin bərpası Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması və bütövlükdə regional əməkdaşlığın genişləndirilməsi yolunda ən vacib amillərdən biri kimi qiymətləndirilib. Qeyd olunub ki, üçtərəfli komissiyanın həmsədrləri bütün tərəfləri qane edən qərarlar qəbul etmək üçün müntəzəm olaraq bir-birləriylə əlaqə saxlayırlar.**

Zaxarovanın mövzu ətrafındakı son açıqlaması bununla bitmir. O daha sonra sonra sərhədlərin - təbii ki, Rusiyanın konsultativ yardımı ilə - delimitasiyası, ardınca da demarkasiyası üçün ikitərəfli komissiyanın yaradılmasının tərəfdarı olduqlarını bəyan eləyir. "Ermənistan, Rusiya, və Azərbaycan liderlərinin Soçi sammitindəki üçtərəfli bəyanatında göstərildiyi kimi - deyə mətbuat katibi davam eləyir, - iki ölkənin sərhədlərində sabitlik səviyyəsini yüksəltmək üçün addımlar atılmalıdı. XİN başçılarının Düşənbə görüşündə bu məsələ də müzakirə olunub və partnyorlar milli nümayəndə heyətlərinin yaradılması prosesini başa çatdırmaq üzrə olduqlarını bildiriblər. Rusiya isə özünün ekspert komandasını artıq formalaşdırıb. Ümid edirik ki, yaxın vaxtlarda Ermənistan-Azərbaycan sərhədlərinin delimitasiyası üçün praktik iş başlayacaq.

Açıqlamanın sonunda isə Zaxarova bildirib ki, Rusiya postsovet məkanında delimitasiya və sərhəd mübahisələr sahəsində unikal ekspert potensialına malikdir. "Biz öz təcrübəmizi erməni və azərbaycanlı dostlarımızla bölüşməkdən çox məmnun olardıq"- deyə sözünü tamamlayıb.

Təəssüf ki, təmtəraqlı cümlələrdən ibarət olan bu pafoslu açıqlamada bir dənə də olsun həqiqəti əks etdirən cümlə, söz və ya söz birləşməsi yoxdur. Hər üç ölkənin KİV-lərində tirajlanmış belə bir qərəzli mətni bütöv halda yazının içinə salmaqda məqsədimizsə ordakı yalanları bitdə-bitdə incələməkdir.

Xatırladaq ki, bölgədəki nəqliyyat kommunikasiyaları və əlaqələrinin bərpası 44 günlük müharibədən sonra, 11 yanvar 2001-cildə Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin Moskvada keçirilən görüşündə razılaşdırılmışdı. Həmin görüşdə qəbul olunmuş dörd bəndlik bəyanatın üçüncü bəndində deyilir: "Fəaliyyətin əsas istiqamətlərinin reallaşdırılması məqsədilə İşçi qrupunun həmsədrləri bu istiqamətlər üzrə Tərəflərin səlahiyyətli hakimiyyət orqanları və təşkilatlarının vəzifəli şəxslərindən ibarət ekspert yarımqruplarının tərkibini təsdiq edəcəklər. Ekspert yarımqrupları işçi qrupunun iclasından sonra bir ay müddətində layihələrin siyahısını təqdim edəcək, onların reallaşdırılması və Tərəflərin yüksək səviyyədə təsdiq etməsi üçün zəruri resursları və tədbirləri əsaslandıracaqlar.

Yaradıldımı? Xeyr! Fəaliyyət göstərirmi? Xeyr! Günahkar kimdir? Ermənistan!

Ermənistan, səhv etmirəmsə, ilk iclasdan sonra işçi qrupunun toplantısına qatılmadı və onun



fəaliyyətini həm rəsmi, həm də faktiki olaraq iflic etdi. Təbii ki, özü toplanmayan, iflic duruma düşən qrupun yaratdığı hansısa yarımqrupların fəaliyyətindən danşımaq gülünc bir şey olardı.

Həmin bəyanatın sonuncu, dördüncü bəndinə fikir verək:

İşçi qrupu 2021-ci il martın 1-dək Azərbaycan Respublikası və Ermənistan Respublikası ərazisindən həyata keçirilən beynəlxalq daşımaların, həmçinin Azərbaycan Respublikası və Ermənistan Respublikası tərəfindən həyata keçirilən, yerinə yetirilməsi zamanı Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazilərinin kəsişməsi tələb olunan daşımaların təşkili, yerinə yetirilməsi və təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olan yeni nəqliyyat infrastrukturu obyektlərinin bərpasını və tikilməsini nəzərdə tutan tədbirlərin siyahısını və reallaşdırılması qrafikini Tərəflərin yüksək səviyyədə təsdiqləməsi üçün təqdim edəcək.

Təqdim etdimi? Xeyr! Günahkar kimdir? Ermənistan!

Çünki yuxarıda da dediyimiz kimi məhz onun günahı ucbatından işçi qrupunun fəaliyyəti iflic olub.

2021-ci ilin noyabrın 26-da Soçidə keçirilən sayca ikinci üçtərəfli görüşdə üçüncü üçtərəfli bəyanat qəbul edildi (məlumdur ki, birinci 10 noyabr bəyanatı onlayın formatda qəbul edilmiş, Paşinyansa ekranda görünməyə üzü olmadığı üçün sənədi kadr arxasında imzalamışdı). Məlumdur ki, Soçi görüşü Qərbin bu ietiqamətdə fəallaşdığı, AB prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçirilməsi nəzərdə tutulan ilk Brüssel görüşü ərəfəsinə təsadüf edirdi. Həmin vaxt Ermənistan-Azərbaycan sərhəddində də gərgin anlar yaşanırdı. Azərbaycan ordusu ərazilərimizə soxulmuş erməni əsgərlərini sözün həqiqi mənasında şillə-təpiklə ordan qovub çıxarmaqla məşğul idi. Bu toqquşmalar son olaraq sərhədlərin delimitasiya və demarkasiyanı gündəmə gətirdi ki, Brüssel görüşündə bu məsələ də müzakirə mövzusu olmalıydı. Həmin vaxt Putin televiziya vasitəsi ilə bəyan eləmişdi ki, delimitasiya və demarkasiyanın açarı, yəni sovet dövrünün xəritələri onun əlindədir və Rusiyasız bu məsələnin həlli mümkün deyil.

Soçi görüşündə qəbul olunmuş bəyantda sərhəd problemiylə bağlı deyilir: "Azərbaycan-Ermənistan sərhədində sabitlik və təhlükəsizlik səviyyəsinin artırılması üzrə addımlar atmağı və Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası, sonradan tərəflərin sorğusu əsasında Rusiya Federasiyasının məsləhət yardımı ilə sərhədin demarkasiyası üzrə ikitərəfli komissiya yaradılması barədə şərtləşdik"

Yaradıldımı? Yox! Günahkar kimdir? Ermənistan!

Hərçənd, Putin həmin Soçi sənədinin imzalandığı vaxt konkret olaraq demişdi ki, "bu ilin (2021-ci ilin-red.) sonuna qədər bunu etməyə razılaşdıq.Ümid edirəm ki, bu ən yaxın zamanda baş verəcək. Bu mexanizmlərin yaradılması üçün heç bir maneə yoxdur".

Putinin həmin ümidlərinə rəğmən 6 aydı sərhədlərlə, il yarımdı kommunikasiyalarla bağlı komissiyalardan səs-soraq yoxdur. Azərbaycan hər iki komissiyanı formalaşdırsa da Ermənistan "bəlkə də qaytardılar" xülyasıyla prosesi uzadır. Mariya Zaxarovasa yuxarıda tam mətnini təqdim elədiyimiz açıqlamasında bunları görməzdən gəlir. Rusiyanı deyir, Azərbaycanı demir. Demir ki, günah satellitin boynuna yüklənməsin.

**Ümumiyyətlə, Ermənistan-Azərbaycan münaqşəsini həlli heç vaxt Kremlin maraqlarında olmayıb. "Nə sülh, nə hərb"! Rusiyanın istər bu bölgədə, istərsə də özünün maraq dairəsi saydığı istənilən digər bölgədə yeritdiyi siyasətin ana xəttini məhz bu formul təşkil edir (Ukraynada da bunu istəyirdi, sadəcə, güclü dəstək və inadkar müqavimət prosesləri fərqli müstəviyə yönəltdi). Özü də tək indi yox, tarixin bütün dönəmlərində belə olub. Zəngin potensialına bütün dünyanın həsəd apardığı bir ölkənin öz maraqlarını qorumaq üçün zorakılıq və şantajdan başqa bir üsul tapa bilməməsi və ya bunu istəməməsi həqiqətən çox üzüçüdür. Həm də anlaşılmazdır. Yəni, doğrudanmı, dünyaya saysız-hesabsız nəhəng şəxsiyyətlər, elm, sənət və xüsusilə ədəbiyyat korifeyləri bəxş eləmiş bir məmləkət ağlı başında bir siyasətçi yetişdirməkdə bu qədər acizdir?!**

**M. Məmmədov**

## 500 manatın sirri




**500 manatlıq xatirə əskinasının dizaynı sosial şəbəkədə maraqlı müzakirəyə səbəb olub.**

Azərbaycanın xatirə 500 manatlıq əskinasının dizaynında Azərbaycan əsgərləri İran ərazisi tərəfə bayraq sancır. Azərbaycan 20 manatın üzərində olan subliminal mesajları nəhayət 44 günlük müharibədən sonra başa düşdük, gördük ki, əslində manat üzərində olan işarələr 2020-ci ildə Qarabağın azad olunmasına işarə idi.

**Emin**



*Faiq QİSMƏTOĞLU*
*faiqqismetoqlu@box.az*

# Ömür uzun deyil...

## Çox insanlar təqaüd yaşına çatmamış dünyalarını dəyişirlər

***...Ötən saylarımızın birində "Toxun acdan xəbəri yoxdu" adlı yazıda əlilliyin müəyyənləşdirilməsi ilə bağlı qarşıya çıxan çətinliklərdən və problemlərdən söhbət açmışdıq. Söhbət açmışdıq ki, nəinki Qarabağ qaziləri, hətta adi insanlar da əlillik dərəcəsini alarkən çox böyük süründürməçilik və büroktatiya ilə üzləşirlər. Üstəlik də minlərlə haqqı olan və hüququ bəlli əlillərin əlillik dərəcəsi ləğv edilib və onların bir çoxu təkrar müayinə gedərkən ədalətsizliklə üzləşirlər. Təbii ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu məsələlərin həllində Qarabağ qazilərinə qarşı, eləcə də uzun illər ağır xəstəliklərə düçar olaraq bu hüquqa sahib olmuş insanlara daha diqqətli olmalıdır. Ən azından ona görə ki, insanın haqqına girmək və onun hüququnu tapdamaq həm dini, həm də hüquqi baxımdan çox məsuliyyətli bir addımdır. Bu addımı atan hər bir kəs birmənalı olaraq həm Allahdan, həm də qanundan qorxmalıdır. Qorxurlarmı? Bax bunu deyə bilmərik.***

***İndi bizim ikinci yazımız yaş həddi ilə bağlı təqaüdlərin təyin olunması və verilməsidir. Heç kimə sirr deyil ki, o kəslər ki, hesabında 30 mindən çox pul yoxdur, onlar yaşa görə təqaüdə çıxarkən çox az məbləğdə təqaüd alırlar. Hətta ilk vaxtlar yaşa görə təqaüdə çıxanda hesabında həmin məbləğ olmayan insanlara 200 manat civarında təqaüd təyin olunurdu. Sonradan yaşa görə minimum təqaüd 240 manat təyin olunandan sonra bir balaca bu insanlar da mənən sakitləşdilər.***

***Amma gəlin görək 260, 280 manat təqaüd alan insanlar indiki bahalıq və çətin şəraitdə bir ay bu pulla dolana bilirmi? Əgər kimsə dolana bilirsə, vallah o igid adamdır. Ona görə igid adamdır ki, hər bir təqaüdçü bu təqaüdlə, bu pulla yaşamalı, işıq, qaz, su və digər kommunal xərcləri ödəməli, üstəlik də qidalanmalı və bununla yanaşı, xeyir-şərə getməli, əyin-baş almalı, hətta dava-dərmana belə pul tapmalıdır. Aydındır ki, bir çox təqaüdçülər övladlarının himayəsində olduğuna görə bu çətinliyi hiss eləmirlər. Amma bu o demək deyil ki, elə bütün bu məbləğdə təqaüd alan insanların hamısını övladları dolandırır. Heç elə təqaüdçü var ki, onun övladları işləmir, özlərini belə dolandıra bilmirlər.***

***Məsələnin bir tərəfi isə ondan ibarətdir ki, 70-80 faiz insan təqaüdə çıxarkən heç onun hesabında tələb olunan məbləğ yoxdur. Sirr deyil ki, bizdə ən yüksək əmək haqqını hüquq- mühafizə orqanlarında işləyən adamlar və eləcə də özəl şirkətlərdə çalışan insanlar alıblar. Və onlar da sağlıqlarına qismət təqaüdə çıxarkən yüksək məbləğdə də təqaüd almaq hüququna malikdilər. Qalan insanlar isə məsələn, elə müəllimlər, həkimlər, mədəniyyət işçiləri və digər sahənin adamları bir o qədər də yüksək əmək haqqı almayıblar. Və təbii ki, onların da hesabına nəzərdə tutulan məbləğ toplanmayıb. Bax, onda görün nə qədər insan təqaüdün azlığından narazıdı.***

***Üstəlik də narazılığın ən böyük səbəblərindən biri yaş həddi ilə bağlıdır. Belə ki, mövcud qanunla bizdə kişilər 65 yaşında, qadınlar isə 63 yaşında təqaüdə çıxırlar. Bir çox mütəxəssislər deyir ki, insanların ömrü indi daha uzundur. Təbii ki, bu fikirlə heç də razılaşmaq mümkün deyil. Çünki indi insanların ömrü daha azdır. Ekoloji tarazlığın pozulması, sağlam qidanın olmaması, streslərin və gərginliklərin artması insanların ömrünü qısaldan ən mühüm amillərdəndir. İndiki şəraitdə də elə bir ailə yoxdur ki, dediyimiz bu çətinliklə üzləşməsin. Məhz bu və ya digər səbəbdən respublikamızda insanlar əvvəlki vaxtlarla müqayisədə daha az ömür yaşayır. Yəni uzun ömürlülər o qədər də çox deyil.***

***Bugünkü cəmiyyət heç də yaş həddinin 65 və 63 olması ilə bağlı mövcud olan kriteriyaları qəbul eləmir. Yəni insanlar yaş həddinin daha doğrusu, təqaüdə çıxmaq üçün yaş həddinin aşağı endirilməsini istəyirlər. Çünki əksər insanlar göstərilən o təqaüd yaşına çatmamış dünyalarını dəyişirlər. Ona görə də bir neçə millət vəkili təqaüd yaşının aşağı salınması ilə bağlı Milli Məclisdə öz fikirlərini səsləndiriblər. Onlar bildiriblər ki, təqaüdə çıxmaqla bağlı yaş həddi kişilərdə 63, qadınlarda 60 yaş müəyyənləşdirilsin. Hətta bəzi millət vəkilləri təqaüdə çıxmaq üçün yaş həddini kişilər üçün 60-a, qadınlar üçün isə 55-ə endirilməsini təklif ediblər. Təbii ki, bu təkliflərin irəli sürülməsi təqaüd yaşına çatan insanların hüquqlarının qorunması və onların sevinməsi deməkdir. Əgər yaş həddi aşağı endirilərsə, onda həmin hüquqdan çox insan bəhrələnə bilər. Bunu isə qanunla və onu qəbul etməklə həll etmək mümkündür. Çünki hər şey qanunla tənzimlənir.***

***İndiki şəraitdə bir çox insanlar təqaüd yaşına az qalmış dünyalarını dəyişirlər. Amma onların hesabında xeyli məbləğdə pul toplanıb. Kimsə təqaüdə çıxa bilməyib və yüksək pul məbləği də onların hesabına toplanırsa, həmin insanlar dünyasını dəyişsələr də, bu pullar onların ailəsinə, övladlarına verilməlidir. Çünki əgər bir insan uzun müddət işləyib və hesabına nəzərdə tutulan qədər və ondan az pul yığılıbsa və həmin insan da dünyasını dəyişibsə, elə o pul onun ailəsinə çatmalıdır.***

***Bütün bunları ona görə deyirik ki, Azərbaycan hüquqi, demokratik və sivil bir dövlətdir və biz həmişə ölkəmizin iqtisadi və hərbi qüdrəti ilə qürur duymuşuq. Və hər bir Azərbaycan vətəndaşı bu ölkəyə, bu dövlətə öz töhfəsini verməlidir, onun iqtisadi gücünün artması üçün qüvvə və bacarığını əsirgəməməlidir. Əgər hər hansı Azərbaycan vətəndaşı millətə və xalqa namusla, qeyrətlə xidmət edibsə, dövlət də onun hüquqlarını qorumalı, qanunla müdafiə etməli və həmin insanları sevindirməlidir.***

***Şəxsən mən dövlətimizin qüdrətinə və gücünə inanıram və düşünürəm ki, haqqı olan heç bir kəsin hüququ tapdalanmayacaq və əksinə qorunacaq. Sadəcə olaraq bəzi məmurlar bu sahədə süründürməçiliyə və bürokratiyaya yol verir və onun da qarşısı tezliklə alınacaq. Hər bir məmur xalqa xidmət edəndə istər-istəməz xalq da ona hörmətlə yanaşacaq.***

## *Ağlamaq qadağandır*



**ABŞ-da yaşayan Abigail Beck adlı qız dünyada nadir görünən xəstəliyə sahibdir. Onun su allergiyası var. Hətta dərisinə su dəyərkən böyük əzab çəkir.**

15 yaşlı qız illərdir bu xəstəliklə mücadilə aparır. Hətta su içərkən qəlb döyüntüsünün sayı artır, həyəcan keçirir. Yeniyetmənin dediyinə görə bəzən film izlərkən, ya a hansısa təsiredici hadisədə özünü ağlamaqdan güclə saxlayır. Çünki ağlayarkən bədəninə dəyən göz yaşı onunçün çox incidici ola bilir. Normal qaydada hələ bir il öncə su içən Becklə birlikdə dünyada 32 nəfər bu xəstəlikdəın əziyyət çəkir.

**Emin**

# Ağcabədidə şəhidlərin xatirəsi əbədiləşdirilib



**Rayonun İmamqulubəyli kəndində Birinci Qarabağ müharibəsi şəhidləri - Hidayət Kərimov, Cavanşir Zeynalov, Savalan Kərimov, Yadigar Bəşirov və Röyal Baxşəliyevin xatirələrini əbədiləşdirmək məqsədi ilə sözügedən kənd mərkəzində bulaq kompleksi inşa edilib. Xatirə bulaq kompleksi üzərində şəhidlərin mərmərdən şəkilləri həkk olunub.**

Adıçəkilən xatirə bulaq kompleksi xeyirxah kənd sakinlərinin təşəbbüs və dəstəyi ilə hazırlanıb. ətrafı abadlaşdırılıb.

Bu günlərdə xatirə bulaq komleksinin açılış mərasimi keçirilib. Mərasimdə rayon icra hakimiyyəti Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Şöhrət Orucov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Ağcabədi rayon şöbəsinin rəisi polkovnik-leytenant Qabil Rzayev, kənd sakinləri, ağsaqqallar, Qarabağ müharibəsi veteranları, şəhidlərin doğmaları, kənd icra və bələdiyyə nümayəndələri, media mənsubları iştirak ediblər.

Açılış mərasimində çıxış edənlər Birinci Qarabağ müharibəsi zamanı qəhrəmancasına həlak olmuş İmamqulubəyli kəndinin igid oğulları haqqında öz ürək sözlərini bölüşüblər. Qeyd olunub ki, onların əziz xatirəsi həmişə hörmətlə anılır, adları böyük ehtiramla yad olunur. Kənddə tikilib istifadəyə verilən bulaq kompleksi onların xatirəsinə olan el məhəbbətinin təcəssümüdür.

Tədbirin sonunda kənd məktəblilərinin təqdim etdikləri ədəbi-bədii kompazisiya iştirakçılar tərəfindən maraqla və alqışlarla qarşılanıb.

***

Vətən yolunda canlarını fəda edən şəhidlərimizin adları hər yerdə hörmətlə çəkilir, xatirələri dərin saygı ilə yad edilir.

Onların unudulmaz xatirələrini əbədiləşdirmək üçün yurdumuzun vətənpərvər övladları imkan daxilində əllərindən gələni əsirgəmirlər. C.Quliyev adına Təzəkənd kənd tam orta məktəbinin direktoru, təcrübəli pedaqoq Mürşüd Quliyevin təşəbbüs və təşkilatçılığı ilə kəndin yaxınlığındakı ərazidə yerləşən adsız təpədə və onun ətrafında Vətən müharibəsi şəhidlərinin xatirəsini əbədiləşdirmək məqsədi ilə meyvə bağı salınıb. Burada 380 ədəd göyçə alçası, 270 ədəd armud, 250 ədəd badam, 150 ədəd ərik, 50 ədəd qoz, 50 ədəd gilas, 30 ədəd fındıq və 20 ədəd nar ağacı əkilib. Bağın salınmasına M.Quliyevin ailə üzvləri dəstək olub.

Ağaclara hazırda vaxtlı-vaxtında qulluq edilir, onların normal böyüməsi üçün lazımi tədbirlər görülür.

Xeyriyyə məqsədi ilə əkilən ağaclar bar verəndə meyvələr şəhid ailələrinə və imkansızlara paylanacaq.

**Başladıqları bu xeyirxah işdə Mürşüd müəllimə uğurlar arzulayırıq!**

**Adil MİSİRLİ**

## *ADAU-dan açıqlama gəldi*

**"Ədalət" qəzetinin 14 may 2022-ci il tarixli nömrəsində Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov haqqında dərc olunan "İbrahim Cəfərov: Yaxşı eləmişəm, əcəb eləmişəm" başlıqlı yazıda qeyd olunan məlumatlar tərəfimizdən araşdırılıb.**

Bildiririk ki, Universitetin tələbəsi Alıyev Rizvan Fikrət oğlu qeyd olunan məsələ ilə bağlı ali təhsil müəssisəsinə dəvət olunaraq İbrahim Cəfərovla görüşüb məsələ ilə bağlı ətraflı araşdırma aparılıb.

"İbrahim müəllim məsələdən xəbərdar olan kimi dərhal məni çağırdı. Problemimlə maraqlanaraq həll edilməsi istiqamətində göstərişlər verdi," - deyə ADAU tələbəsi, Vətən müharibəsi iştirakçısı Rizvan Alıyev bildirib.

## *DİM-dən magistratura imtahanında iştirak etmək istəyənlərə müraciət*




**Məlum olduğu kimi, Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul imtahanı (II cəhd) mayın 29-da keçiriləcək.**

Dövlət İmtahan Mərkəzindən Trend-ə verilən məlumata görə, "İmtahana buraxılış vərəqəsi" və "Yaddaş kitabçası"nı çap etmək üçün https://www.e-gov.az/az/services/read/2516/0?tqdk_xdm=8 linkinə daxil olmaq lazımdır. Qeyd edək ki, bakalavrlar imtahana gələrkən özləri ilə şəxsiyyəti təsdiq edən sənədin əsli və "İmtahana buraxılış vərəqəsi" mütləq gətirməlidirlər. Göstərilən sənədlərdən hər hansı biri olmazsa və ya sənədlər arasında uyğunsuzluq olarsa, bakalavr imtahana buraxılmır.

# Azərbaycanda məişət zorakılığına qarşı necə mübarizə aparılır?

**Milli Məclisin deputatı, AŞPA-da Azərbaycan nümayəndə heyətinin üzvü Könül Nurullayeva Şərq Tərəfdaşlığı ölkələrində Avropa İttifaqı və Avropa Şurasının birgə proqramı olan Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq II (PGGII) çərçivəsində "Azərbaycanda İstanbul Konvensiyası və digər gender bərabərliyi standartlarına dair məlumatlılığın artırılması" layihəsi çərçivəsində Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması, ona qarşı mübarizədə milli parlamentlərin roluna dair müzakirələr zamanı Azərbaycanın təcrübəsini bölüşüb. Bildirib ki, Azərbaycanda Konstitusiya qadınlara qarşı ayrıseçkiliyin bütün formalarını aradan qaldıraraq, kişi ilə qadının eyni hüquq və azadlıqlara sahib olduğunu təsbit etmişdir.**



Bununla yanaşı, insan hüquqlarının tərkib hissəsi olan qadın və uşaq hüquqları, o cümlədən gender bərabərliyi sahəsində milli qanunvericiliyin təkmilləşdirilməsi, yeni normativ hüquqi aktların, müxtəlif qanunların qəbul edilməsi məişət zorakılığının qarşısının alınması sahəsində müsbət nəticələrin əldə edilməsinə səbəb olmuşdur: "Həmçinin ölkə başçısı Prezident İlham Əliyev tərəfindən məişət zorakılığı ilə mübarizənin gücləndirilməsini, qurbanların hüquqi müdafiə vasitələrini nəzərdə tutan "İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nı təsdiq edilmişdir. Həmçinin, ölkəmizdə ailə, qadın və uşaq problemləri sahəsində məqsədyönlü dövlət siyasətinin aparılması məqsədilə xüsusi institut Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır". Könül Nurullayeva diqqətə çatdırıb ki, məişət zorakılığının qarşısının alınması məqsədilə ölkəmizdə mütəmadi olaraq hüquqi, sosial xarakterli və qabaqlayıcı tədbirlər həyata keçirilir: "Hüquqi xarakterli tədbirlər məişət zorakılığı hallarının araşdırılmasını, məişət zorakılığına yol vermiş şəxslərin qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilməsini, zərər çəkmiş şəxslərin hüquqlarının, azadlıqlarının və qanuni mənafelərinin müdafiəsini, araşdırmanın aparıldığı müddət ərzində müraciət etmiş şəxsin təhlükəsizliyinin təmin edilməsini, məişət zorakılığı ilə bağlı işlərə dair məhkəmə qərarlarının icrasının təmin edilməsini, uzunmüddətli və qısamüddətli mühafizə orderlərinin verilməsini əhatə edir. Məişət zorakılığına məruz qalmış qurbanlara hərtərəfli xidmətlərin göstərilməsi məqsədi ilə onlara dəstək və böhran anında məsləhətlərin təqdim edilməsi üzrə 7 gün, 24 saat açıq olan ödənişsiz qaynar xətt xidməti təşkil edilmişdir. Həmçinin, məişət zorakılığı ilə bağlı məlumat bankı yaradılmış, məişət zorakılığına dair vahid məlumat bankının fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə məişət zorakılığına ilk dəfə və təkrar məruzqalma hallarının qeydiyyatının polis orqanları tərəfindən aparılması və bu məlumatların vahid məlumat bankına operativ şəkildə ötürülməsinin təmin edilməsi istiqamətində işlər aparılmışdır". Deputat onu da qeyd edib ki, ölkəmizdə mütəmadi olaraq məişət zorakılığından zərər çəkmiş şəxslərin məşğulluq imkanlarının artırılması məqsədilə onlar üçün əmək bazarında tələb olunan peşələr üzrə peşə hazırlığı kurslarının təşkili və onların digər aktiv məşğulluq tədbirlərinə cəlb olunması istiqamətində işlər görülür, məişət zorakılığından zərər çəkmiş şəxslərin təhlükəsizliyinin təmin olunması istiqamətində tədbirlər gücləndirilir.

K.Nurullayeva Azərbaycanda məişət zorakılığının qarşısının alınmasında vətəndaş cəmiyyətinin rolunu da qeyd edib. Bildirib ki, QHT-lər tərəfindən mütəmadi olaraq KİV-də məişət zorakılığına qarşı kampaniyalar keçirilir, televiziyalarda bu mövzuda maarifləndirici videoçarxlar nümayiş etdirilir.

**Qeyd edək ki, sessiyanın keçirilməsi Avropa Şurasının qadınlara qarşı zorakılıq və məişət zorakılığına dair standartları, o cümlədən belə neqativ halların qarşısının alınması, ona qarşı mübarizə haqqında Konvensiya barədə parlament nümayəndələri arasında məlumatlılığın artırılması məqsədi daşıyır. Eyni zamanda Avropa Şurası üzv dövlətlərin təcrübələrinə əsaslanaraq, parlamentin yerli kontekstdə bu standartların təşviqində rolunu göstərmək də əsas məqsədlərdən biridir.**

**Nicat Novruzoğlu**

# Universitetin ən gözəl qızı - müəlliməni sevmək...

**Bəzən sizi görməzdən gəlirlərsə, bunu həmişə eqo və ya sizə sayqısızlıq kimi, ya da unutqanlıqdan yaranan bir xarakter kimi düşünməyin. Bəzən xatirələri, keçmişi gələcəkdə görmək lazım deyil. Bəlkə də ən böyük sayqı görməməkdi.**

Bu yaxınlarda BDU-nun yanından keçəndə ... adlı müəlliməmizi gördüm. BDU-nun Tarix fakültəsində bizə dərs keçirdi. 30-lu yaşlarda, subay qız idi. Universitetin ən gözəl xanımlarından idi desəm, yanılmaram. Həm də çox qayğıkeş, sevgidolu, vicdanlı müəllimə idi.Səbəbini bilmədiyim halda onun dərslərini yaxşı oxuyurdum. Bəlkə də bütün fənlərdən daha çox. Ən yüksək balı, ya da balları yazırdı mənə.

Tələbə yoldaşlarımız zarafatlaşırdı ki, sevirsən onu.

Bir dəfə "patok" dərsimiz vardı.. Oğlan tələbələrimiz məni həvəsləndirdi ki, müəlliməyə sevdiyini de. Ən azından yoxla.

"Patok"un içində(60-70 tələbənin içində) dərs vaxtı iznsiz ayağa qalxdım. Bu vaxtı tələbə yoldaşlarımızdan biri dərs danışırdı tribunada. İki-üç addım irəli atdım. Hamı mənə baxır. Tələbə yoldaşımız dərsi saxladı. Müəllimə də mənə baxır. Nə edəciyimi, niyə belə etdiyimi kimsə bilmir. Heç özüm də bilmirəm, niyə belə etdim. Və dedim:



-Filankəs müəllimə sizi sevirəm.

Bu anda sanki "patok"da ildırım qopdu. Oğlan dostlarımız şoka düşmüşdü. Qız tələbələr arasında əl çalanlar. "Ay, halaldı", "necə romantika" və.s deyənlər...

Müəllimə baxdı və:

-Emin, mən də səni sevirəm.

Açığı "patok"da tələbələr önündə verilən bu cavabdan nəinki tələbələr, özüm də şoka düşdüm. Nə baş verir deyə. Müəllimənin cavabından sonra gur alqışlar və.s. Və sevirəm sözündən sonra ardını gətirdi:

-Amma tələbəm kimi...

Ondan sonra, "tələbəm kimi" sözündən sonra daha əlavə mənbə kitabları götürüb dərslərini oxumadım. Tək yadımda qalan o oldu ki, imtahandan "5" yazdı. Hə bir də universitetdə bilmirəm şərəf lövhəsi idi, ya nə idisə onun da şəkli vardı. Çox gözəl düşmüşdü. Qısqanmışdım. Şəklini lövhədən çıxardım. Necə oldusa universitetdə bildilər ki, şəkli mən götürmüşəm. Çağırdılar. Dedim hamı gələndə-gedəndə görür. Qısqandım çıxardım...

O qədər sevildi, amma eşitdim ki, subay qalıb hələ də. Əminəm ki, onda bu eqodan deyil, sadəcə sevgisinə layiq kimsə yoxdu bu dünyada. Elə biri idi...

**Hə, nəyə görə deyirdim. BDU-nun yanında gördüm. Bəlkə də az makyajlı idi, necəsə az da olsa yaşlandığı hiss olunurdu. Baxma da yaşı 50-yə gedir. Yaxınlaşmadım. İstəmədim, yaşlandığını gördüyümü bilsin. Eləcə istədim universitetin ən gözəl qızı kimi qalsın yaddaşımda. Ən azından onu gördüyümü bilməsin. Bəlkə heç özünün də yadına düşmərəm. Bəlkə də ümumiyyətlə heç xatırlamaz. O qədər tələbəsi olubki...Amma yenə də görməzdən gəldim...**

**Belə...**

**Emin Piri**

*Rza RZAYEV,*
*Rejissor, aktyor*



# Faciəmizin Fərmanı

*"Söyləsəm təsiri yox, sussam könül razı deyil"*

*Füzuli*

*İllər öncə Turqut Er bir kitab yazmışdı, yazanda da gözlərini açmamışdı, görünən bu idi ki, uzun illər öncə yediyi siyasi şillənin ağrısı hələ keçməyib, kitab yazmaqla keçməyən ağrını keçməyən yerdən keçirmək istəyir.*

*Mən də ona cavab olaraq 2012-ci ildə "Heydər Əliyevi sevməyən Türk ola bilməz!" adlı məqalə yazdım.*

*Həmin dövrdə Turqut Erə çoxlu "cavablar" yazılırdı, həmin məqaləni cavab yazanların cavablarını oxuyandan sonra cavab olaraq yazdım, çünki bütün cavablar da Turqut Erin kitabı qədər kitabsız idi və bu cavabların çoxu sifariş ilə yazılırdı.*

*Ürəksiz cavablara ürəyim dözmədi, Turqut Erin cavabını ürəklə verdim, çox sonralar da Turqut Er sosial media səhifəsində etiraf etdi ki, bu barədə ona verilən ən yaxşı, mədəni və tutarlı cavab kimi həmin məqaləni hesab edir.*

*Həmin dövrdə məmur işləyirdim və mənə məqalə yazmağa icazə verilmirdi, rəhbərlikdən icazə istədim, dedi: "Olmaz, bunun üçün gərək daha yuxarı qurum (Naxçıvan) icazə verə, əks halda işdənçıxarılacaqsan və cəzalanacaqsan."*



*Və söhbət böyük Heydər Əliyevdən gedirsə, hər şeyi gözə aldım, məqaləni yazdım, dövlət qəzetləri və hakimiyyəti dəstəkləyən qəzetlər məqaləni çap etmədi (çünki sifarişdən kənar idi).*

*"Xalq Qəzeti"-nin redaktor müavini çap etmək istəsə də, idarəmizin rəhbərliyi buna imkan vermədi və ilk olaraq "Ədalət" qəzeti çap etdi.*

*Dərdim nədir?*

*Son illər "YouTube" kanalında müsahibələr yayımlanır, Fərman Dəmirqolu da danışdırılır, o da Turqut Er kimi yerli-yersiz böyük Heydər Əliyevi hədəf alır, bir nəfər də önə çıxıb ona cavab vermir və yaxud cavab yazmır, çünki hələ "Fərmana cavab verin!" deyilən fərman yoxdur. Belə tapşırıq olsa,növbəyə o qədər adam dayanacaq ki, dayanacaqda yer olmayacaq.*

*Bu gün böyük Heydər Əliyev haqda danışmaq və yazmaq gəlirli iş sayılmır, buna görə də, əvvəllər onun haqqında yazmaq üçün növbəyə dayananlar, çörək pulu qazananlar bu gün yenə də çörək "peşində"-dirlər, kimdən yazanda çörək pulu çıxırsa, ondan yazırlar.*

*Fərmanı cəmiyyətimizdə çox adam tanımır, siyasətçilərdən başqa. Türkiyə vətəndaşıdır, AXC hakimiyyətdə olanda bizim üst qurumlardan birində vəzifə tutub, vəzifə tutanda da cəmiyyətə təqdim olunmayıb, cəmiyyət onu tanımayıb, çünki tanınmasına ehtiyac duyulmayıb.*

*95-ci ildə məlum hadisələr vaxtı adı bu olaylarda keçdi, məlum oldu ki, Türkiyədən Azərbaycana dövlət quruculuğuna kömək üçün göndərilib, amma dövlət çevrilişinin planını tutanlardan birinə çevrilib. Sonra ağzı qapadılaraq Türkiyəyə aparıldı, uzun illər ağzını aça bilmədi, ta ki jurnalist onu danışdırana qədər.*

*Fərman böyük Heydər Əliyevin yoxluğundan və indiki vəziyyətdən isifadə edir, ağzını Allah yoluna qoyur, amma Fərmananlamır ki, dövr dəyişib, artıq Azərbaycan cəmiyyəti keçmişdə baş verənlərə onun-bunun gözü (ağlı) ilə baxmır, keçmişə bu gün fərman verə bilməyənlərin sığınacağı kimi baxır.*

*Bu gün Azərbaycanda 90-cı illərin "silahları" (böhtanları, şərləri) işləmir, bu gün Azərbaycan dünyanın ən müasir PUA-ları ilə döyüşür.*

*Fərman hələ də 90-cı illərin havasındadır, havalı danışır, bir nəfər adam da tapılmır ki, Fərmanın qabağına çıxa, havasını çıxara.*

*Və Fərman bunu dəqiq bilir və buna görə də belə danışır, bilir ki, ona kimsə cavab verməyəcək, ölkəmizdəki situasiyanı kimsə ona dəqiq ifadəedib, yəni bu gün əsl Əliyevçilər ortada yoxdur, bəziləri obyektiv, bəziləri isə subyektiv səbəblərdən ortadan qaldırılıb.*

*Yeni məmurlara isə Əliyevlərəkimin necə münasibət bəsləməsi maraqlı deyil, onlar Əliyevlər uğrunda döyüşməyi özlərinə rəva bilmirlər, vəzifə tutanda belə öhdəlik götürməyiblər, özlərini Əliyevə borclu saymırlar...*

*Yazılanlara, deyilənlərə bütün hallarda cavab verilməlidir, həmin dövrü yaşayan insanlar gerçəkliyi bilsə də, gələcək nəsil yazılanlara, danışılanlara istinad edəcək. Yazılan və deyilənlərin çoxu isə tarixin və gerçəkliyin təhrif olunmuş tərəfidir.*

*Danışanlara layiqli cavab verilməyəndə ayaqları yer alır, daha da yersiz danışırlar.*

*Bu gün yeni telekanallarımızda, yeni mətbuatımızda böyük Heydər Əliyevdən çox az danışılır, yazılır, bu gün yeni məmurlar böyük Heydər Əliyevin adını çox az çəkirlər, bu gün böyük Heydər Əliyev haqda yeni sənədli, bədii filmlər çəkilmir, bu gün məşhur rəssamlar böyük Heydər Əliyevin şəklini çəkmirlər...*

*Və yenilər bir şeyi unudurlar, Əliyevin qanının necə coşmasını.*

*Yadlarına salıram.*

*5-6 il öncə, Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzinin binası. Yeni yazılmış Ensiklopediyaya baxış zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı.*

*İlham Əliyev: "...Heydər Əliyev haqda bir kəlmə yoxdur... İndi mən burada oturmasaydım, nə yazardın?!... tanımamışam sizi, bu mənim səhvimdir... Çıx get burdan..."*

*Və yenilərə yenilənməküçün həmin çıxışa aşağıdakı videodatəkrar-təkrar baxmağı tövsiyə edirəm.*

***P.S.*** *Hə, bir də, cənab İlham Əliyev uzun illər onun prezidentliyini qəbul etməyənləri, başqasının prezidentliyi üçün mahnı oxuyanları da bağışladı, mükafatlandırdı, bəlkə Fərmanı da bağışlayıb… bizim bu fərmandan xəbərimiz yoxdur...*

## *Çox yemək, adamı az yeməkdən də qoyur*



**Adam var o qədər yemək yeyir ki, hərəkət edə bilmir. Çoxlu yemək yemək və hərəkət etməmək isə insanlarda kökəlməklə yanaşı, müxtəlif xəstəliklər də yaradır. Əgər kimsə çoxlu qida qəbul edirsə və sonra da uzanıb yatırsa, belə adamlar özlərinə qəsd edirlər. İlk növbədə arıqlamağa çalışırlar, ya da cərrah yanına gedib mədəkiçiltmə əməliyyatı elətdirirlər. Bunun üçün isə insanlar xeyli pul xərcləməlidir.**

Amma dietoloqlar həmin məsələlərin həllinin çox kəsə yolunu bildirirlər. Onlar deyirlər ki, birincisi hər yeməkdən qədərində qidalanmaq lazımdı.

Əgər bunu bacarmırsınızsa, o yeməklərdən çox yox, az-az yeyilsə, daha yaxşı olar. Üstəlik də pəhriz xörəklərinin istifadəsi kökəlmənin qarşısını ala bilər. Ən yaxşı optimal vasitə isə idman etmək, təmiz havada gəzmək və artıq çəkini bu yolla özündən atmaq mümkündür. Çünki artıq çəkinin atılması həm də sizin sağlamlığınız deməkdir.

**Emil FAİQOĞLU**

# Əzablı ömür...

## Onlara dəyər verilməlidir



**...Mən o qadınlara həmişə çox böyük hörmət və məhəbbətlə yanaşmışam. Çünki onlar digər qadınlardan zəhmətkeşliyinə, əzab-əziyyət çəkdiyinə və ən nəhayət, halal zəhmətlə pul qazandıqlarına görə seçilirlər. Belə baxanda onlar adi həyat tərzi yaşayırlar. Amma ona heç adi də demək olmaz. Daha doğrusu, ona çox əzablı və əziyyətli bir ömür deyə bilərik...**

Hər gün səhər saat dörddə, beşin yarısında yuxudan qalxır və beşdə isə küçələrdə təmizlik, abadlıq işləri görürlər. Onlar bu işləri heç də asanlıqla görə bilmirlər. Çünki bu qadınlar qışın soyuğunda, şaxtasında, qarında dan yeri sökülən-dən küçələrdə olur, oraları təmizləyir, səliqə-səhman yaradır və sözün həqiqi mənasında bu millətə, bu xalqa xidmət edirlər. Bilirsiniz də kimlərdən söhbət açmaq istəyirəm?! Bilmirsinizsə deyim. Mənzil Kommunal Təsərrüfatı Birliklərində çalışan qadınlardan söhbət açmaq istəyirəm. O qadınlar ki, səhər saatlarında, lap erkən işə gedərkən onların Bakının küçələrini süpürdüklərini, təmizlik işləri apardıqlarını görürük. Görürük ki, bu qadınlar havanın soyuq, yaxud isti olmasından asılı olmayaraq hər gün iş başında olur, tapşırığı yerinə yetirir və eyni zamanda halal zəhmətlə çörək qazanırlar...

...Onlar tək küçələri, prospektləri süpürmürlər, həm də ərazilərdə ağaclara, yaşıllıqlara xidmət göstərirlər və bəzən də görürük ki, həmin qadınlar əllərində bel, ya ağacların dibini belləyir, ya da əllərində başqa bir alətlə o ağacların gövdəsini əhəngləyirlər. Bir sözlə, bu qadınlar yayın istisində, qışın soyuğunda öz işlərinə çox vicdanla, namusla yanaşırlar. Biz yayın istisində dincəlmək istəyəndə, kölgə axtaranda onların sifətini gün qarsa-qarsa iş görürlər. Özü də gördükləri işdən zövq alırlar...

Bəzi halda səhər saatlarında avtomobillə hərəkət edən harınlamış sürücülər onları ya bilərəkdən, ya da bilməyərəkdən maşınla vurub qaçırlar. Demək, bu insanların da taleyi həm də bir tükdən asılıdır. Çünki küçələri süpürərkən bəzi məsuliyyətsiz sürücülər onlara diqqət yetirmir, laqeydlik və səhlənkarlıq üzündən həmin qadınları avtomobillə vuraraq aradan çıxırlar. Bir neçə il bundan əvvəl Bakıda küçəni süpürən bir qadını avtomobillə sürücü vurmuşdu, ona kömək etmək əvəzinə, ağır xəsarət alan qadını yolun ortasına qoyub qaçmışdı. Əgər o qadına vaxtında köməklik göstərilsəydi, bəlkə də həyatını xilas etmək mümkün olardı. Qaçıb aradan çıxan sürücünü isə bir neçə gündən sonra polis Şəmkir rayonunda axtarıb tapmışdı. Bax, bu qadınların həyatı mən deyərdim ki, hər gün təhlükə qarşısındadı və sürücülər diqqətli olmalıdır ki, onlar xidmət apararkən hadisə baş verməsin. Amma bəzi hallarda bayaq dediyimiz kimi, səhlənkar sürücülərin günahı üzündən belə hadisələr və qəzalar yaranır. Yolda təmizlik işi aparan qadınları avtomobillə vururlar.

Gəlin görək ən əzablı və əziyyətli işlə məşğul olan bu qadınlar hər ay nə qədər əmək haqqı alır?! Təbii ki, onların əmək haqqı 300 manatdan yuxarı deyil. Bu qədər əziyyət çəkəsən, tər tökəsən, həyatını təhlükəyə atasan və ayın sonunda da 300 manat əmək haqqı alasan. Məncə, bundan böyük haqsızlıq və ədalətsizlik yoxdur. Ən azından ona görə ki, sübh tezdən yuxudan duran və küçələrdə təmizlik işləri görən qadınların əməyi çox ədalətsiz qiymətləndirilir. Bizim hörmətli millət vəkilləri və eləcə də digər səlahiyyətli nümayəndələr, məgər onların necə əziyyət çəkdiyini görmürlər-





mi? Heç olmasa bir dəfə Milli Məclisdə bu insanların hüquqları qorunubmu və onların əmək haqqının artırılması ilə bağlı məsələ qaldırılıbmı?! Bax, bu barədə dəqiq heç nə deyə bilmərik. Bircə onu deyə bilərik ki, həmin zəhmətkeş qadınlar da yaşadıqları ərazilərdə hansısa millət vəkilinə səs verib. Deməli, bu insanların da haqqı qorunmalıdır.

Hətta bəzən onların kimsəsizliyindən və zəifliyindən istifadə edən bəzi adamlar üstlərinə qışqırır və təhqir etməkdən belə çəkinmirlər. Çünki bilirlər ki, onların elə bir arxası yoxdur. Bir tikə çörəyə möhtacdır.

Məgər görmürsünüz, həmin qadınların şaxtada, qarda, günün istisində işləməkdən sifətləri qapqara olub. Amma sifətlərini gün qaraltsa da, onların üzləri xalqın qarşısında həmişə ağdır. Çünki heç vaxt haram çörək qazanmayıblar və balalarını halal yolla əldə etdikləri çörəklə dolandırırlar. Bu qadınları, bu insanları qorumaq və sevmək lazımdı.

**Yadıma böyük Üzeyir Hacıbəyovun "Cin" felyetonu düşür. O felyetonda yazılır ki, yazıq müsəlman qadınları, başınızda, belinizdə yük daşımaqdan əldən düşmüsünüz. İndi bu qadınlar da XX əsrin əvvəllərində əziyyət çəkən müsəlman qadınlarından heç də fərqlənmir. Əksinə, onların yükü bir qədər də ağırlaşıb. Çünki səhərdən axşama qədər işləyirlər, evlərinə qəpik-quruş aparırlar. Və bu qəpik-quruşla onlar dolanmağa məcburdular. Amma yaxşı olardı ki, bu insanların taleyi haqqında daha dərindən düşünək, onların layiq olduğu və əziyyət çəkdiyi zəhmətin qarşısında əmək haqqını verək. O insanlara dəyər verilsə, bu Allaha da xoş gedər, həmin adamların özləri və ailələri isə rahat nəfəs alar, sevinərlər.**

**Faiq QİSMƏTOĞLU**

---

# Yaşa dəxli olmayan hiss

## Şair Tahir Rzanın sinəni sinə üstə aparan şeiri ilə pıçıldaşma

**Söz duyğuları, hissləri ifadə etmək üçün ən gözəl vasitədir. Təbii ki, elə hisslər var ki, onu baxışlarla da demək, üz cizgiləri, əl hərəkətləri ilə də çatdırmaq olar. Bu o zaman anlaşılır ki, qarşı tərəf duyğusal olur və o duyğusallıq imkan verir ki, gözlərin dediyini, cizgilərin söylədiyini, əllərin çatdırmaq istədiyini oxuyub, dərk edə bilir. Deməli bütün hallarda yenə bir gerçəklik daha tez boy göstərir, daha çox özünü büruzə verir. Bu da SÖZdür!**



Hər kəs sözün işığında, sözün içində bir ömür yaşayır. Bu yaşamda söz adamlarının, sözə könül verənlərin çəkisi, məram və mahiyyəti digərlərindən fərqlənir. Yəni, söz adamı kütlədən daha öndə olur. Bu yerdə bir deyimi də xatırlatmaq istərdim. Belə ki, Allaha ən yaxın olan bəndələr sırasında söz adamları ön cərgədə dayanır. Bu isə o deməkdir ki, ilahidən gələn o söz ən çox da ilahiyə ünvanlanır, onun diqqət mərkəzində olur, onun çevrəsində yaşayır.

Sözü yaşatmaq imkanı olan və bu Allahın verdiyi özəlliyi ən munis, ən həzin və bəzən də heç kimin görmədiyi bir şəkildə yaşayan və yaşadan şairlərimizdən biri də Tahir Rzadı. Bugünlərdə onun "Həsrətimin yaşı dünya qədərdir" kitabı ilə baş-başa idim. Bu bir adətə çevrilib, bir vərdiş olub məndə. Özüm də hiss etmədən hansısa bir şeir yapışır yaxamdan, hanısısa bir duyğu köklənir mənə və başlayıram o şeirlə söhbət etməyə. Həmsöhbət olduqca da bir də görürəm əməlli başlı bir müzakirə açmışıq - şeirlə öz aramda. Həmin şeir indi də gözümün önündə dayanıb, canlı bir varlıq kimi məndən özünə münasibət tələb edir. Yəni "çöz məni, araşdır məni!" deyir. Və mən də başlayıram o sözün, o şeirin qapısını açıb dizinin dibində oturub danışmağa. Şeirin sahibi yazıb ki:

*Dünyanın möhnəti, sirri, dərd-səri*
*Yığılıb tutubdur pas sinəm üstə.*
*Uyuyur, çağlayır illərdən bəri*
*Sevinc sinəm üstə, yas sinəm üstə.*

Yəqin ki, bu bəndi oxudunuz və siz də özünüzdən asılı olmadan duyğulanıb mənim kimi əlinizi sinənizin üstündə gəzdirə-gəzdirə o xəyali ünvanı, o ilham pərisini ən yaxın məsafədə görüb saçlarına sığal çəkdiniz və sinə üstünə səpilən sevinc yası üstələdi... Dərd, sərin pası sevincin təbəssümündə, işığında əridi və bu sinənin göynərtisi ilıq bir təbəssümlə xoşqılıq yaşama çevrildi. Onda mən də duyğulanıb dedim ki:

*Dinlə ürəyimin pıçıltısını*
*Səhər duasıtək, sübh azanı tək...*
*Ovut ürəyimin sızıltısını -*
*Mənim taleyimin son yazanı tək...*

Bu da elə-belə deyilmədi, bir yandan söz sözü çəkdi, o biri tərəfdən də duyğusallığım məni də xəyallandırdı. Sinəmin göynərtisi ürəyimin səsinə çevrildi. Qoymadı nə dərdim, nə də sevincim pas tutsun. İmkan vermədi ürəyim ayrılığa, həsrətə yas tutsun. Çünki:

*Tuş gəlib, min dəfə eşqin oxuna*
*Qoymayıb həsrəti ancaq yaxına.*
*Dərs verib vəfadan, əhdən çoxuna*
*Demişsən inamı as sinəm üstə.*

Yəqin siz də artıq mənim yaşadığım o duyğuların aurasındasınız, siz də köklənmisiniz o yaşantıya. Axı sevgi hər kəsin canında, qanında var və hər zaman da olacaq. Bu bir Allah vergisi, Allah mükafatıdır. Sadəcə hər kəsin ürəyinin tutumuna görə, yaşaya biləcəyi qədərdi bu sevgi. Onun ölçüsünü də Allah müəyyənləşdirir, heç kimdən, heç kəsdən soruşmadan. Mən də bir Allah bəndəsi olaraq həmin duyğuları yaşayıram və Allahdan da heç nə soruşmadan (buna heç ixtiyarım da yoxdur - Ə.M.) duyğularımı sözə-şeirə çevirirəm və yazıram ki:

*Sığalla kədərə qarışsın başım*
*Sulansın kirpiyim, çatılsın qaşım...*
*Ərisin illərə yük olan yaşım -*
*Mən də qürrələnim eşq ozanı tək...*

Bu da sözün verdiyi imkandan istifadə edib hissi, duyğunu ifadə etmək, oxucuya çatdırmaq fürsətidi. Onu da, yəni o fürsəti də Allah verir bəndəsinə. Həmin bəndənin sözlə anlaşmaq, dil tapmaq imkanı da sonda yenə başqa bir sözün, şeirin yaranışına, doğuluşuna aparıb çıxarır, səbəb olur. Elə məni duyğulandıran və özü ilə söhbət etməyə məcbur edən şeirdə də həmin məqam bir rəssam fırçası ilə kətana çəkilir. Şair qələmi ilə şeirə çevrilir və oxucu, eləcə də izləyici, tamaşaçı o şeiri həm görür, həm eşidir, həm də dinləyib oxuyur:

*Tahirəm qarşında dayandır məni*
*Nə qədər imkan var gəl, yandır məni.*
*Bir dəli sevgiylə oyandır məni*
*Odlanan sinəni bas sinəm üstə.*

Artıq bu sözün pik nöqtəsidi, fikrin zirvəsidi, istəyi, əlçatmazlığıdı və həm də gerçəyin təsdiqidi. Çünki bütün hallarda sözün ilk hənirindən, ilk tərpənişindən sonluğa qədər gələn yol, yəni bu yolun sarvanı olan müəllif oxucunu məhz "Odlanan sinəni bas sinəm üstə!"-yə hazırlayırdı. Hazırlama prosesi də ruhu oxşayırdı. Ürəyi yerindən oynadaraq qanadlandırıb o ana doğru uçururdu. Bir oxucu olaraq şairin məntiqi sonluğu məni də həmin nöqtəyə gətirib çıxartdı və dedim ki:

*Olsan da nəfəsi sən Əbülfətin,*
*Hər an damla-damla artır xiffətin.*
*Qalsın yaddaşında bu məhəbbətin -*
*Sən düzüb-qoşanı, mən pozanı tək...*

**Bəli, yazının əvvəlində qeyd etdiyim kimi, Allah vergisi olan, duyğuların tərənnümçüsü kimi əzizlənən söz həm də yeriyən, yaşayan heykəldi. Yəni hər bir oxucunun ya qapısına gedib, ya da oxucu onun qapısına gəlir, ya da zaman-zaman öz ucalığında yaşayır və oxucu da onu ziyarət edir. Bütün hallarda sözün sahibi o abidənin özü kimi yaşayır, yaddaşlarda varlığını qoruyub saxlayır. Deməli, şair Tahir Rzanın bu pünhan pıçıltısı və oxucu ilə bölüşdüyü sevgisi paklığın daha bir nümunəsidir. Özü də bu sevgi nümunəsi öz vüsalına, yəni zirvəsinə doğru vuruşaraq əyilmədən mərdanə yol gəlib! O yolun son nöqtəsi sinələri üst-üstə düşməsidi. Mən də bu məntiqlə sevgimin düzüb-qoşanı ilə pozanı arasındakı anın nümayəndəsiyəm, onu təmsil edirəm. Sinəni sinəm üstə qoymaq üçün!..**

**Əbülfət MƏDƏTOĞLU**

---

*Emin Piri*

# "O"na məktub

**(əvvəli 1-ci səhifədə)**

**Gördüm;**
**"İki balam var,**
**Ölmək istəmirəm,**
**Ölmək istəmərəm"-deyən əsgəri.**
**Gördüm gözlərində**
**hələ doğulmamış**
**körpəsinin ürək çırpıntılarını.**
**Utandım,**
**Utandıq.**
**Baxmadım daha o gözlərə**
**üz-üzə gəlməməkçün o uşaqla.**
**mən utandım**
**biz utandıq.**
**Bəlkə o uşaq da utandı bizdən.**
**Getdik,**
**o uşağı baş-başa qoyduq atasıyla.**
**utandıq...**
**getdik...**
**Biz utandıq o gözlərdəki uşaqdan**
**o uşaq utandı bizdən.**
**amma atası utanmadı,**
**utanmadı...**

**Ən əzizinin, sevdiyinin**
**yanında olmasını istəmədiyin yerdi.**

**Bir əsgərim var.**
**Su gətirəndə**
**pulemyot gülləsi öpdü dizini.**
**İndi onu görəndə dizlərim ağrayır.**
**Susuzluğumuz yatmadı**
**mayorumuzun ürəyində sərinlədi**
**istidən ürəyi sıxılan bir düşmən mərmisi.**
**Axı, biz su istəmişdik,**
**qan yox.**
**Bəlkə bura Füzuli deyil,**
**Kərbəladır, xəbərimiz yox?!**

**Oğullar döyüşür...**
**Analar yaralanır,**
**analar şəhid olur.**
**O oğlanın cəbhədə itən ayaqlarını görərsən**
**ağsayan o anada.**
**Gözlərini itirən zabitin gözlərini görərsən**
**göz yaşı quruyan o ananın yanaqlarında.**
**O şəhidi görərsən**
**oğlunun məzarında başdaşına dönən anada.**

**Havada rəqs edən güllələrdən**
**daha dəcəldir barmaqların.**
**O güllələr mənə xatırladır**
**xəyallarımı qıdıqlayan barmaqlarını.**

**Bilirəm, heç inanmırsan**
**görmədən, bilmədən**
**şəkillərdən sənə aşiq olduğuma.**
**Bilirsən, heç bu torpaqları da görməmişdim...**

---

# Bu ölkələrin üzv edilməsi Rusiyanın qırmızı xəttini keçmək olacaq

**Son günlər İsveç və Finlandiyanın NATO-ya üzvlük məsələsi əsas gündəm mövzularındandır. NATO üzvü Türkiyənin PKK-ya dəstək səbəbindən bu ölkələrinin üzvlüyünə veto qoyacağı ölkə prezidenti tərəfindən dilə gətirilib. Eyni zamanda Rusiya da bu məsələyə yumşaq desək isti baxmır. Qonşuluqda yeni bir NATO üzvü görmək istəməməsini, Ukraya münqaişəsi səbəblərini xatırlasaq bəzi daşlar yerinə oturur.**



Siyasi şərhçi Tural İsmayılov Adalet.az-a bildirib ki, bu ölkələrin üzv kimi qəbul edilməsi Rusiyanın qırmızı xəttini keçmək olacaq.

"İsveç və Finlandiyanın NATO-ya üzvlük məsələsi artıq aktuallaşmağa başlayıb.

Bununla bağlı beynəlxalq birlik tərəfindən ciddi addımlar atılır. Lakin, Rusiya siyasi və hərbi elitasının xəbərdarlıqlarından belə başa düşmək olar ki, İsveç və Finlandiyanın NATO-ya üzv olunmasını Rusiya özü üçün qırmızı xəttin keçilməsi kimi qəbul edəcək.

Rusiya özünün şimal sərhədlərində NATO-nun növbəti cəbhəsinin yaranmasından narahatlığını açıq şəkildə büruzə verir. Bu baxımdan məsələ ziddiyyətlidir.

Hazırki gərginlik dövründə, İsveç və Finlandiya tərəfindən rəsmi müraciət olsa belə, NATO həmin iki ölkəni üzv qəbul etməyə tələsməz.

Düşünürəm ki, İsveç və Finlandiyanın NATO-ya üzvlük məsələsini aktuallaşdırmaqla, sadəcə Rusiyaya əlavə təzyiq göstərirlər və Rusiyanın Ukrayna cəbhəsində geri addım atmasına nail olmaq istəyirlər. Bu iki ölkənin NATO-ya üzvlük məsələsi real olsa belə, bunun Rusiya-Ukrayna savaşından sonra baş verəcəyini düşünürəm . Mövcud durumda Rusiyanın İsveç və Finlandiya ilə savaş aparmaq ehtimalı o qədər də real görünmür".

**Emin**

---

# Qarpızdan və çiyələkdən zəhərlənənlər



**Hər bir bostan, tərəvəz və meyvə məhsulunun bəlli mövsümü mövcuddur. Hər mövsümdə də həmin meyvələrdən doyunca yemək olar. Amma buna baxmayaraq, biz yaman tələsirik. Apreldə, may ayında istixanada yetişdirilən və ona müxtəlif kimyəvi maddələr verilən qarpızı, çiyələyi ağına-bozuna baxmadan yeyirik.**

Etibarlı mənbədən aldığımız məlumata görə, aprel və may aylarında qarpızdan, çiyələkdən neçə-neçə insan zəhərlənib. Bu isə o deməkdir ki, biz birmənalı olaraq nəfsimizə qalib gələ bilmirik. Elə nəfsimizə qalib gələ bilmədiyimizə görə də həmin məhsulu yeyərək zəhərlənirik. Ona görə də bir daha bazar-dükandan məhsul alarkən tələsməməli, bu məhsulun təbii yolla yetişməsini gözləməliyik. Bax, belə olanda vitaminlərlə zəngin olan bol meyvələrdən və giləmeyvələrdən biz xeyir tapa bilərik.

**Emil FAİQOĞLU**

---



*Səxavət Məmməd*

# Dərbənd Azərbaycanın tarixi torpağıdır

***Rusiya Azərbaycanın Qarabağ müharibəsindəki hərbi qələbəsi ilə yeni reallıqlarla qarşılaşdı. Əgər proses Azərbaycanın istədiyi kimi həllini tapsa, təkcə ərazi bütövlüyü təmin olunmurdu, Azərbaycan Cənubi Qafqazın xəritəsini yenidən çəkmiş olurdu. Rusiya ona görə də sülhməramlı adı altında Qarabağa ordu yeritdi. Xankəndinin bir addımlığında olarkən gecə ilə bəyanat imzalandı. Rusiya bilirdi ki, Qarabağ tamamilə işğaldan azad edilsə, nəinki bölgə əldən çıxacaq, bölgədəki dövlətlərə təsir gücü də itəcək. Rusiya artıq Kremlə bağlı ekspertləri vasitəsi ilə Azərbaycanı hədələyir. Rusiya dövlətinin xarici və işğalçı siyasətini izləyənlər yaxşı bilir ki, öncə iddiaları kimlərinsə dili ilə səsləndirir, ardınca özü hərəkətə keçir. Avrasiya Ekspert Klubunun həmtəsisçisi Vladimir Lepexin Qarabağı Krımla müqayisə edib və oxşarlıqlar tapıb. Hətta referendum keçirmək, Rusiyaya birləşmək iddiasını ortaya atıb. Əslində, bu, yenilik deyil. Düşünürəm ki, bunun təməlini hazırlayıblar. Qarabağda yaşayan ermənilərə Rusiya pasportlarının paylanması məsələsi dəfələrlə gündəmə gəlib, ancaq fakt olmadığı üçün arxa plana keçib.***

***Bir qədər də irəli gedib iddia edənlər də var ki, rəsmi Bakı məhz bu təhdid qarşısında Rusiya ilə müttəfiqlik bəyənnaməsinə qol çəkib. Əks halda, Rusiya qondarma rejimin müstəqilliyini tanımaqla təhdid edə bilərdi ki, Azərbaycan bununla Rusiyanın bu gedişini hələlik də olsa, neytrallaşdırıb.***

***Rusiya regionda daha da fəallaşacaq. Paşinyan belə etiraf edir ki, sülh müqaviləsinin imzalanmasına Rusiya imkan vermir. İki variant qalır: Ya münaqişə dondurulur, münaqişənin qalıqları ilə proses davam edir, o zamana qədər ki, yeni reallıqlar yaransın və Azərbaycan hərəkətə keçsin. Necə ki, müharibədə elə oldu; Ya da Azərbaycan ərazi bütövlüyünü təmin etmək üçün antiterror əməliyyatlarına başlayır. Məsələ ondadır ki, Qarabağda silahlar bu dəfə işə düşsə, müharibə Qarabağın inzibati sərhədlərindən kənara çıxa bilər. Yəni Azərbaycan tarixi torpaqlarını da işğaldan azad etmək üçün son dərəcəli riskli müharibəyə girişə bilər. Bu, mümkündür? Əslində, mümkündür. Ötən ayın 18-də yazdığım məqalədə qeyd etmişdim ki, erməni tərəfi bir qədər də sülh məsələsini yubatsa, Azərbaycan tarixi torpaqlar tezisini gündəmə gətirəcək. Çox keçmədən rəsmi Bakı Zəngəzur, İrəvan üzərindən Ermənistana mesaj verdi. Rusiya davamlı olaraq tarixi torpaqlardan bəhs edir və siyasətini bu yöndə qurur. Rusiya, nədənsə, tarixin ancaq SSRİ, ən uzağa gedəndə isə Çar Rusiyası dönəmindən ibarət olduğunu düşünür. Rusiya mütləq tarix və tarixi dərs almalıdır. Ən azı, tarixini bilməsi üçün…***

***Lepexin və onun kimi düşünənlər bir şeyi unudur ki, Dərbənd Azərbaycanın tarixi torpağıdır. Ruslar tayqada ibtidai insan cəmiyyəti formasında yaşayanda Dərbənd şəhər idi və Azərbaycanın tarixi dövlətlərinin tərkib hissi idi.***

---

**Azərbaycanın 44 günlük müharibədə qazandığı qələbəhələ bir çoxlarını dərindən ağrıdacaq, sarsıdacaq. Belə ağrıyib, sarsılanlardan biri də Qarabağdakı separatçı rejimin "milli assambleyası"nın "ədalət fraksiyası"nın üzvü Metakse Akopyandı. Hələ ötən yay Akopyan sosial şəbəkədə yazmışdı ki, Stepanakertdən ayrılanda adam dəli olur. Hər yerdə, yolda Azərbaycan bayraqları var.**

Akopyan daha sonra xalqına məxsus iyrəncliklə, ikiüzlülüklə əlavə edir:" "Yolda üç azərbaycanlı sakit və rahat şəkildə böyürtkən yeyir. Şuşa tamamilə məhv edilir, dəyişilir. Dəhşətə gəlirəm və başa düşürəm ki, mənim Şuşam (Guya Şuşa bunun dədəsindən qalıb-red-Ə.R.) bir daha əvvəlki kimi olmayacaq, ruhum bir daha orada olmayacaq. "Qazançetsots" (Qazançı kilsəsini nəzərdə tutur) yavaş -yavaş yox olur. Siz - Arayik və Nikol, asfalt çəkirsiniz, öz millətinizin başına bir çəkic atırsınızvə onları, "xilas edəcəyik",-deyərək aldadırsınız". Xatırlayırsınızsa, bu separatçı qadın açıqlamalarının birində " "Artsax"da sakinlər rus hərbçilərinə yaxındırlar, onları dəstəkləyirlər, çünki bu gün erməni və rus hərbçiləri yan-yana "artsax"ın təhlükəsizliyinin



# Bayrağımızı "dqr" də görüb "dəli" olan deputat

təminatçısı kimi xidmət edirlər". Hazırda isə Metaksenin əli hər yerdən üzülüb və yenə də xalqına məxsus sifətlərdən birini - "məzlum və yazıq" maskasını taxaraq fəryad edir. Adalet.az xəbər verir ki, hazırda sosial şəbəkələrin erməni seqmentində Akopyanın bir neçə gün əvvəl söylədiyi fikirləri müzakirə olunur:" Ermənistanın Azərbaycanın 5 təklifinə cavab verməsindən sonra Xankəndidən səs-küylü xəbər gözləmək olar. Özünü "dqr" adlandıran respublikanın bütün "nazirləri", "prezidenti", "deputatları" təcili olaraq Xankəndini azad etməli olacaqlar". Azərbaycan - Türkiyə- Ermənistan münasibətlərinin normallaşdırılması yönündə gedən söhbətlərin ilk dönəmindən bu normallaşmaya etiraz edən qondarma "deputat" daha sonra bu fikirləri də söyləyib:"İrəvanın Azərbaycanın təklif etdiyi beş bəndə cavabının təfərrüatını yalnız Bakı onları qəbul etdikdən sonra ictimaiyyətə təqdim etməsi artıq erməni xalqı üçün bir işarədir. İndi nəsə etməyə cəhd göstərmək belə mənasızdır. Bu bəndlərdə "dqr" lehinə heç bir müddəa görmədim. Ümumiyyətlə, bizə göstərildi ki, bütün bunların artıq heç biri olmayacaq. İrəvan Qarabağı rəsmən Azərbaycanın bir hissəsi kimi tanıyıb. Bu, onu göstərir ki, biz hamımız Ermənistana qayıtmalı olacağıq. Qeyd edək ki, Metakse Akopyan dəfələrlə yenidən müharibə arzusunda olan revanşistlərdəndi. O, hazırda Fransa meydanında mitinq keçirən müxalifət üzvləri kimi " Azərbaycanın Qarabağda apardığı tikintilər Ermənistan hakimiyyətini geri çəkilməyə vadar etdi. Ermənistan hakimiyyəti müharibə sevdasından da vaz keçdi. Amma müharibə olacaq. Biz Qarabağ erməniləri müharibə fikrindən vaz keçməmişik. Müharibə olacaq və bu müharibəyə hazırlıqlar gedir " deyir.

***P.S.* Bu toplum sülh şəraitində, dinc, rahat yaşamaq, balalarını böyütmək, sabahları ölümsüz, itkisiz açmaq istəmirlər.Deyəsən bunlar, müharibəyə, ölümə, itkin düşməyə, çətinliklər çəkməyə türklər demiş pekde meraklıdırlar". Neynək, Allah arzularına çatdırsın . XTQ nə günə durub? Allah qorusun ordumuzu!**

**Əntiqə Rəşid**

---

*Elxan Şükürlü*

# Baydenin sifətinə növbəti "türk tokatı"



***Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ-ın Rusiyaya qarşı cəbhəni genişləndirmək planlarına növbəti dəfə sədd çəkdi: o, ölkəsinin Finlandiya və İsveçin NATO-ya üzv olmasına isti baxmadığını və Türkiyənin vaxtilə Yunanıstanla bağlı etdiyi səhvi təkrarlamayacağını deməklə, faktiki olaraq, indiyədək NATO-Rusiya qarşıdurmasında neytrallıqlarını qoruyub saxlayan hər iki ölkənin Şimali Atlantika blokuna üzvlük məsələsində rəsmi Ankaranın veto hüququndan istifadə edəcəyinin anonsunu vermiş oldu.***

***Şübhəsiz ki, NATO üzvü Türkiyənin bu cəsarətli addımı bütün istiqamətlərdən sıxışdırılan və təklənməsinə çalışılan Rusiya üçün həyati əhəmiyyətli məsələdir, Putinə yeni nəfəs verməkdir və bu səbəbdən cənab Ərdoğan yaxın günlərdə daha sərt şəkildə təkcə Qərbin yox, həm də onların Türkiyə və Azərbaycandakı şəbəkəsinin hədəfinə gətiriləcək.***

***Beləliklə, cənab Ərdoğan kritik bir mərhələdə onu Putinə qoşaraq devirmək istəyən qoca Baydenin sifətinə növbəti "türk tokatı"nı vurmaqla, Rusiya-Türkiyə münasibətlərindəki yaxınlığın müvəqqəti deyil, strateji xarakter daşıdığını və siyasi bazarlıq predmetinə çevrilməyəcəyini təkrar nümayiş etdirmiş oldu.***

***Şübhəsiz ki, cənab Ərdoğanın Rusiya-Türkiyə münasibətlərindəki balansı və həssaslığı daim qoruması, bu sayaq cəsarətli davranışları Qarabağdakı işlərini tamamlamaq üçün Ermənistanla sülh müqaviləsinin imzalanmasına tələsən Azərbaycanın da Moskva qarşısında mövqelərini, əlini xeyli gücləndirəcək.***

***Türkiyə-Azərbaycan ittifaqı Rusiya tərəfinə bir daha göstərir ki, Qərbin bütün şirnikləndirici təkliflərinə və təzyiqlərinə baxmayaraq, onlar Ukrayna bataqlığına salınmış Rusiyanın əleyhinə Cənubi Qafqazdan da yeni bir cəbhənin açılmasında, Rusiyanın Yaxın Şərqə çıxışını təmin edən əsas quru dəhlizdə - cənub sərhədləri boyunca da bloklanmasında maraqlı deyillər, ancaq Paşinyan Ermənistanı hələ də sülh prosesini Rusiya-Ukrayna savaşının yekunu bilinənədək uzatmağa, müxtəlif bəhanələrlə münaqişəli situasiyanın qalmasına, bölgədə müharibə riskini artırmağa və Qərbin də sonda bölgəyə hərbi müdaxiləsinə çalışır, əsas yaradır.***

***Böyük ehtimalla, cənab Ərdoğanın son bəyanatının təsirini çox yaxın günlərdə Azərbaycan-Ermənistan sülh danışıqlarının gedişində daha aydın hiss edəcəyik.***

***Türkiyə prezidenti Ərdoğan təkcə 44 günlük Qarabağ savaşındakı qələbəmizin deyil, həm də Azərbaycanla Ermənistan arasında əldə ediləcək və bütövlükdə bölgəyə rifah vəd edən sülhün əsas memarlarından biri olduğunu hər addımda bizə və bütün dünyaya sübut edir.***

***İnşallah, bu, həm də onun 2023 seçkilərində yenidən qələbəsini təmin edəcək ən mühüm addımlarından daha biri olacaq.***



*Əbülfət MƏDƏTOĞLU*

# Fikrə qoşulmanın yaşatdığı an

## Aida Adıgözəlin bir şeirinin işığında

**Mənə belə gəlir ki, söyləyəcəyim fikir mübahisə doğurmaya bilər. Amma onu da qeyd etməyi, daha doğrusu göz altına almağı xatırlatmaq istəyirəm: - Əgər mübahisə mövzusu olarsa, onda yenə SÖZ qazanacaq. İndiki halda isə demək istədiyim fikir belədir ki, hər kəs daha çox öz sözünə bənzəyir. Yəni söz adamının ürəyi elə onun sözü deməkdir. Lap dəqiqləşdirsəm, söz sahibinin ürəyinin əksidir! Bu mənada mən öz ürəyimin tam eyni olan ürəyimlə baş-başa qalanda, yəni öz sözlərimlə söhbət edəndə darıxmıram. Çünki qarşılıqlı anlaşma və qarşılıqdı sayqı var aramızda.**

Təbii ki, bu xüsusiyyət mənim digər sözlərə də, ürəklərə də olan münasibətimdə birmənalıdır. Hər gün sözlə açılan səhərimi növbəti səhərə qədər elə sözlə də tamamlayıram. Çünki qarşılaşdığım söz - ürək həmdəmlərim məni öz dünyalarından kənara buraxmır. Həmin dünyanın rəngarəng mənzərəsi, şehli çiçəkləri, hətta müsiqisi də mənim sözümün həm söykəyinə, həm əl tutanına, həm də ümid verəninə çevrilir. Görür və anlayıram ki, söz dünyasında yetimlik yoxdu. Sadəcə hərdən qəriblik olur və ...

Bu ilin "Azərbaycan" jurnalının ilk sayını gözdən keçirirdim. Diqqətimi bir şeir çəkdi. Onu təkrar oxudum. Hardasa ruhumun əkiz tayının, bənzərinin, sözümün həmsöhbətinin önündə dayandığını hiss etdim və məndən soruşmadan sözüm, yəni ürəyim həmsöhbəti ilə pıçıldaşmağa, bir-birinin dünyasını gəzib dolaşmağa başladı.



Həmin an bir qəribəlik də hiss etdim. O da hər zaman mənim üçün yadda qalan olan mərhum filosof şairimiz Əhməd Elbrusun "Fikrə qoşulmalar" ilə bağlı yazdığı mükəmməl əsər idi. Oxuculara xatırlatmaq istəyirəm ki, söz dünyasında ruh doğmalarının bu cür halları artıq çoxdan sübuta olunub. Deməli dünyanın, ölkənin müxtəlif səmtlərində yaşayan söz və ruh doğmaları bir-birlərini görmədən bəzən eyni mövzuda bir-birinə çox bənzər olan fikirlər qələmə alıb sözə çevrilirlər. Onda da ortaya məhz Əhməd Elbrusun dediyi "Fikrə qoşulmalar" çıxır . Mən də "Azərbaycan" jurnalının builki birinci sayında belə bir məqamı yaşadım. Jurnalın oxuculara təqdim etdiyi "Serenada" şeirində müəllif yazmışdı:

***Səndən bir şey istəyəcəm,***
***amma söz ver, gülmə, gülmə.***
***Arada yuxuna gəlim,***
***sən də guya bilmə, bilmə.***

Çox maraqlı və sadə bir məntiq. Həm ricası var, həm də yumoru. Həm gerçəkliyi var, həm də bir az xəyalpərvərlik. Belə olan halda ruha necə qoşulmayasan. Sözün ipucuna necə əl uzatmayasan... Və bu içərisində olduğum anın hökmü ilə bir də gördüm ki, pıçıldayıram.

***Mənim ümid payımı***
***Gülüm, şax saxla, şax saxla...***
***Çəkib ruhumun yayını -***
***Gülüm, bax saxla, bax, saxla...***

Beləcə pıçıldadığım misraların musiqisi də, ritmi də, yaratdığı ovqat da bir əks-səda verdi. Sanki mənim pıçıltım çağırış idi, əks-səda isə verilən cavab. Bu bir az söhbətə də, dialoqa da, hətta hardasa üzüzə dayanıb yalnız baxışlarla çəkilən rəsmə də bənzəyirdi. Onu görməklə deyil, duymaqla oxumaq olar. Axı qarşı tərəf kökləndiyi notların üstündə, öz ruhunun dilində deyir ki:

***Darıxanda mesaj yazsam,***
***"oxunmayıb" oxun atsan,***
***mən də cavabçın ağlasam,***
***mesajımı silmə, silmə!***

İndi gördünüzmü, mən yanılmamışam. Çünki burda təhrik var, lap sadə, el-oba dilində desəm, "qıdıqlama", "qaşınma" var... , kimisə özündən çıxartmaq üçün, kiminsə diqqətini çəkmək üçün bir tamaşa qurulub. Yəqin ki, şeirin bəndinə fikir vermisiniz. Müəllif həm mesaj yazır, həm onun oxunmadığını xatırladır, həm də ağladığını və ağlayaraq da mesajının silinməməsini rica edir. Bu istək mənim o dediyim həmin o pünhan ünvanı hərəkətə gətirmək, onu səsləmək deyilmi? Bax bu yerdə mən yenə qoşuluram həmin mühitə.

***Yozma heç yerə bu cəlbi***
***Ruhum buluddan da qəlbi!***
***Adın yazılan bu qəlbi -***
***Gülüm, ağ saxla, ağ saxla...***

İndi də mənim ürəyim, mənim sözüm həmin o pünhan ünvanı "qıdıqlamağa, özündən çıxartmağa" çalışır.

İstəyir ki, onun yanında olduğumu, onun hənirini üz-gözündə hiss etdiyimi andırım ona. Bu üsul, bu məntiq, bu yanaşma o qədər təbii və öz axarı ilə davam edir ki, hətta ölüm halı da, ayrılıq, itkinlik belə bu müstəvidə bir-birini tamamlayır. Bir qom bənövşənin rəngarəngliyini ortaya qoyur. Çünki:

***Bir gün eşitsən ölmüşəm,***
***səndən izinsiz köçmüşəm,***
***xəbər göndər incimisən,***
***ağla, amma gəlmə, gəlmə...***

Görürsünüz, mən yanılmadım. Hər şey baş verib, ölüm də, köç də, hətta inciklik də. Amma bütün bunların normal həyatda bir yozumu var. Baş verənlən üçün ağlamaq, sızlamaq, saç yolmaq... Müəllif isə yenə o pünhan ünvanı bütün bu halların qismən yaşamasına o yerə qədər razı olub ki, o ağlasın. Amma ölməsin, köçməsin. Və bunun üçün də deyir Gəlmə! Bu yerdə mən də həmin o gerçək mənzərənin iştirakçısı kimi öz ifamı, öz təqdimatımı edirəm. Mən də həmin pünhan ünvana deyirəm ki:

***Zaman bölündükcə lək-lək***
***Demirəm otur, fikir çək!***
***Mənim adıma çubuq ək -***
***Ya da bağ saxla, bağ saxla...***

Burda da mən özümə görə haqlıyam. Mənim məntiqim belədir ki, zaman hər şeyi yoluna qoyacaq, yaralar da qaysaq bağlayacaq. Sən bütün bunların şahidi olacaqsan, əgər yaddaşında da ürəyində olduğu kimi qalacamsa, onda bir çubuqla, bir ağac əkməklə onu bağ hesab edib yaşaya bilərsən. Axı:

***Hər gün mənə şeirlər yaz,***
***şəklimi sətirlərə qaz,***
***bir az, çox yox, elə bir az,***
***darıx, amma ölmə, ölmə...***

Budu gerçək, budu əsl aşiqin istəyi, duası, alqışı və qarğışı. Görünür, bax, o ruh doğmalığı da, fikrə qoşulma da bir anda, bir duyğunu yaşamaq da elə budur. Mən də öz məntiqimə söykənib çıxartdığım nəticəyə uyğun olaraq ruh doğmamın, fikrinə qoşulduğum həmkarımın istəyinə öz istəyimi qatıram. Və yenə pıçıldayıram:

***Bu sevgi mənim yer kürəm***
***Hardan baxsan görünürəm...***
***Mən sənin Allah verginəm -***
***Könlü çağ saxla, çağ saxla!***

**Hə, indi sizə deməyin məqamı gəlib çatdı: - həmsöhbət olduğum şeirin müəllifi Aidə Adıgözəl xanımdır. Özünü şəxsən tanımadığım, şeirini ruhuma doğma bilib bir məcrada, bir nöqtədə, fikrinə qoşulduğum Aida xanım!.. Bilmirəm mən öz düşüncəmlə, öz məntiqimlə, ürəyim olan sözümlə sizin ürəyiniz olan sözünüzlə həmsöhbət ola bildim, amma Sizin adınızdan isə heç nə deyə bilmərəm. Qoy onu oxucular desin.**

# REGİON POEZİYASI



*Nizaməddin ŞƏMSİZADƏ*

**(əvvəli ötən sayımızda)**

**Elçin Məlhəmli - 1960-cı il şairlər yurdu Şamaxıda anadan olub. Onun bir arzusu var:**

***Qeybdən gəlir sözüm***
***Alım misraya düzüm***
***Bu dünyaya şeirlə***
***Söz ilə düşsün izim.***

Bu qoca dünyaya şeirlə, sözlə iz salmaq olduqca çətin, fəqət humanist bir niyyətdir. Elçin Məlhəmli görəsən bunu bacaracaqmı, onu gələcək göstərəcək. İndi isə Elçin adı Vətənlə bir çəkilən, vətənin rəmzi olan Azərbaycan bayrağından yazır:

***Qəlbimdə Vətən adlı***
***Közüm yandırır məni***
***Hər tərəfi doğranıb***
***Dözüm yandırır məni.***

***Dərbənd, Borçalı, Zəngilan,***
***Kərkük, Şuşa, İrəvan***
***Tariximdən boylanan***
***İzim yandırır məni.***

Bu misralar Elçin Məlhəmlinin mənə bağışladığı "Üşüdür dünya məni" (2020) şeirlər kitabında yer alır. Şairin qəlbində "səngərin o üzündə qalan dağların dərdi" poetikləşib.

Elçin Məlhəmli dərdə, işğala, kədərə dözməyi qəbul etmir, ulu babası Mirzə Ələkbər Sabir deyirdi: "Ağladıqca kişi qeyrətsiz olar". Bəs nə etməli:

***Aşıq qardaş bəsdi çaldın "Dilqəmi"***
***Köklə sazı, al sinənə, "Misri" çal.***
***Damarında donan qanım qaynasın***
***Gəlsin artıq qəhrəmanlıq əsri, çal.***

Şairin niyyəti çin oldu, 2020-ci ilin 27 sentyabrında damarda donan qanımız qaynayıb coşdu, hər günü bir ilə bərabər 44 gün ərzində Ulu Xalq, Qəhrəman Ordu və Müzəffər Ali Baş Komandanın bir Yumruq kimi birləşməsi - Milli birlik sayəsində işğala əbədi son qoydu.

Ustad Aşıq Ələsgərdən üzü bəri 200 ildir ki, poeziyamız Vətənin ucalıq simvolu olan Dağları vəsf edir. Elçin Məlhəmli də bu marafona qoşulur:

***Qatı duman yavaş-yavaş sürünür,***
***Kol dibində bənövşələr görüşür.***
***Yaşıl sinə al laləyə bürünür***
***Yamacları gül bağıdır dağların.***

Şair Aşıq Ələsgərin "Qüdrətdən səngərli qalalar dağlar "ının belə incə-romantik duyğularla tərənnüm edir. Elçinin ən sevimli obrazı "Dağlar" , "Ürək və dərd"dir. O qoşma gəraylı, hətta bayatı tərzində yazdığı lakonik şeirlərlə qəlblərdə yatan mübhəm duyğuları riqqətə gətirir.

Kitabını adlandırdığı "Üşüdür dünya məni" şeirində SÖZ-dən bacarıqla istifadə əyaniləşib:

***Ürəyim yaman sınıb***
***Kənar dur kəsər səni***
***Sonra heç cür ovunmaz***
***Yazsam yüz əsər səni.***

***Gəzmə şüşə üstündə***
***Şüşəm kəsir özümü***
***Ürəkdən qan süzülür***
***Hardan tapım dözümü.***

***Üzüldüm dərd içində***
***Nə qədər leysan olar***
***Üşüdür dünya məni***
***Üstümə torpaq çəkim.***

Duyğusal insan (şair!) kədəri dünyanın faniliyi və amansızlığı, romantik duyğuların göy qurşağı kimi əlvan rəngi, xalq deyim tərzi burada sadə və aydın tərzdə poetik don geyinib...

"Region poeziyası"nı biz şeirin növü, yaxud poetik və estetik keyfiyyəti kimi işlətmirik. Bu ədəbi anlayış deyil - coğrafi anlayışdır.

Harada meydana gəlməsindən, yazılmasından asılı olmayaraq şeir şeirdir, ya da şeir deyil, qeyd etdiyimiz kimi, nəzmlə şeiri qarışdırmaq olmaz.

Bəs müasir Azərbaycan şeir prosesinin, o cümlədən Region poeziyasının nə kimi əsas qüsur və nöqsanları var? Onları hələlik ümumi şəkildə aşağıdakı kimi təsnif etmək olar:

**1.** AYB-nin Bədii Ədəbiyyatı Təbliğ bürosunun iş yarıtmazdır.

**2.** AYB-nin bölgə təşkilatları regionlarda ədəbi prosesin təşkil və idarə edə bilmir, fəaliyyətləri müasir dövrün tələbləri səviyyəsində deyil. Onların yaradıcı fəaliyyətini gücləndirmək üçün islahat aparmaq, bu işə həvəsi, ədəbiyyata sevgisi olan yeni adamlar seçilməli, onlara maaş təyin edilməli və iş tələb olunmalıdır. İldə bir dəfə bölgə təşkilatları AYB qarşısında hesabat verməlidirlər.

**3.** Ədəbi proses kasıb, bundan dolayı acınacaqlı vəziyyətdədir. İstedadla yazılmış şeir, nəsr və tənqid kitabları müəyyən edilərək dövlət vəsaiti hesabına çap olunmalı və istedadlı müəlliflərə qonorar verilməlidir.

**4.** Poeziyanı teleşouların pəncəsindən xilas etmək zamanı çoxdan çatıb.

Çox zaman istedadsız müğənnilər tərəfindən yazılan məzmunsuz şeirlər və onlara tələm-tələsik, alababat "bəstələnən" yüngül mahnılar baş alıb gedir. Belə mahnılarla çığırqan bir əda ilə tamaşaçı və dinləyicinin zövqünü zorlayan ifaçılar utanmadan özlərini sənətkar, "diva", "qızıl şlyager", "qızıl səs", "bal səs" kimi əcaib terminlərlə adlandırırlar.

Televiziyalardan söz düşmüşkən bir təzə bəlanı da qeyd edim: bu əslində antireklama çevrilən reklam faciəsidir. Reklam rolikləri həddindən artıq uzun, bəsit, yanlış və aldadıcıdır. Reklamlar etik normaları gözləmir, Azərbaycan xalqının milli mentalitetini nəzərə almır, əslində tamaşaçıları mənəvi terrora məruz qoyurlar. 40 dəqiqəlik serialın ortasında 2 dəfə 20 dəqiqəlik reklam verirlər. Müxtəlif qadın bezləri, olveys, gemoroy dərmanı - hara sürtmək lazımdı göstərilməklə "Mətanət A", "Ağdağ", "Omid", "Korolla" boyaları bizi çərlədib, Metax boruları ekrandan gözümüzə girir və s.

**5.** Region şairləri və nasirləri mətbuatdan uzaq düşüblər. Ümumi ədəbi prosesə qoşula bilmirlər.

**6.** Region poeziyasında intellektuallıq zəifdir. Müasir dövr, dahi Füzuli demişkən "elmli şeir" tələb edir.

**7.** Regionlarda ədəbi mühit formalaşa bilmir, hətta istedadlı şairlər belə fərdi şəkildə fəaliyyət göstərirlər. Yaradıcılığa əsas işdən əlavə - ikinci dərəcəli iş kimi baxırlar. Fəqət şairlik peşə, sənət deyil, İlahi vergisidir, o insana ya verilir, ya da ömrün boyu nəzm yazsan da verilmir, oxumaqla şair olmaq qeyri-mümkündür.

**8.** Ədəbiyyatın əsas vəzifəsi, sözün geniş mənasında, millətin mədəni-intellektual səviyyəsini inkişaf etdirməkdir. Bu mənada müasir şeir öz vəzifəsini kifayət qədər yerinə yetirə bilmir, şeirdə yeni tarixi gerçəkliyin azərbaycanlısına, qalib və bu qələbədən dolayı qürur hissi keçirən oxucuya yeni estetik ideyalar, poetik üslub və kəşflər verə bilmir. Bütün rəğbətimə baxmayaraq oxuduğum şeirlər məni (məsələn, Əli Kərimin, Ramiz Rövşənin poeziyası kimi) heyrətləndirə bilmədi.

**9.** Ədəbi proses Region poeziyasının zəif inkişaf etməsində içi mən daxil ədəbi tənqidin də günahı var. Etiraf edim ki, biz tənqidçilər bölgələrə lazımi diqqət yetirməmişik, müzakirələrə, yaradıcı mərasimlərə, ədəbi mübahisələrə səbəb ola bilən yaradıcılıq problemləri və ədəbi-bədii inkişafın prioritetləri ilə bağlı məsələlər qaldırmamışıq.

Bizə adətən çoxmillətli xalq deyirlər. Və biz buna vərdiş etmişik, hətta bununla qürur duymuşuq. Fəqət, "Çoxmillətli xalq olmur. Çoxmillətli ölkə olur. Xalq elə millət deməkdir. Azərbaycanın əsas xalqı Azərbaycan türkləridir. Ölkəmizdə yaşayan başqa xalqlar Türkçülüyümüzü öyrətməli, bilməli, ona hörmət etməlidir. Türkçülük Ölkəmizdə yaşayan bütün xalqların sərvəti olmalıdır" (Asif Əfəndiyev).

Biz də XX əsrin böyük filosofu Asif Əfəndiyevin fıkri ilə razıyıq. Mən dəfələrlə yazmışam: Türkçülük mənim idealım, Azərbaycançılıq məfkurəmdir. Azərbaycançılıq türkçülüyün "vətən əxlaqı" müstəvisində dərkidir. Təqdirəlayiqdir ki, Azərbaycanın region poeziyası milli əxlaq kimi vətən əxlaqını tərənnüm edir. Vətənçilik, vətən əxlaqı bizim mənəviyyatımızın və onun ifadəsi olan Poeziyamızın ideya qaynağı, bədii-fəlsəfi axtarışların əsas təkamül istqamətidir. Bütöv Azərbaycan idealı, Qarabağ problemi, Təbriz, Göyçə-İrəvan, Borçalı, Dərbənd kimi əsirlikdə olan yurd yerləri poetik obraz kimi nəzərdən keçirilir. Bu kontekstdə Eldar Paşanın, Inqilab Isaqın, Elnur Baxışın (Gəncə regionu), Xanəli Kərimlinin (Naxçıvan regionu), Nəcməddin Mürvətovun, Zakir Bayramlının, Cabir Albantürkün, Məmməd Qədirin, Firəngiz Əhmədovanın (Quba regionu) şeirləri maraq doğurur.

Gəncədə yaşayan İnqilab İsaq bu regionun ən məhsuldar şairi və ziyalısıdır. Mən 20 ildən artıqdır ki, onun novator yaradıcılığını izləyirəm. O istedad və sənətkarlıqla Azərbaycanın ümumi ədəbi prosesinə qoşula, imzasını tanıda bilib. Mən onun yaradıcılığı haqqında "Gəncədən gəlirəm, yüküm şeirdi" adlı məqalə yazmışam. "Sözdən yox özgə canım" məramı ilə şeir dünyasına qədəm qoyan İnqilab "Deməyə sözüm var" (1972); "Aləm cənnətə dönsə" (2000); "Aydan axan bulaq" (2000); "Ümidə borclu dünya" (2003); "Bir çəmənin çiçəkləri" (2016); "Canım sənə desin" (2014); "Nərgizin nərgizləri" (2018); "İndi elə təkəm ki" (2019); "Savaş sevdası" (2020) kimi şeir toplularının müəllifidir. Onun rus dilində "Sükutun harayı" (2014) kitabı çap olunub. İnqilabın kitablarının sayı kimi sanbalı da çoxdur. O şair kimi Beynəlxalq Rəsul Rza mükafatına (2015) layiq görülüb.

Deyirlər ki, şair həmişə özünü yazır. Bu fikir həm gerçək mənada, həm də rəmzi mənada İnqilab İsaqa daha çox aiddir. Onun şeirlərinin əsas lirik qəhrəmanı bu dünyada tək qalan - insanlar arasında tək - dünyanın təklədiyi şair özüdür. O bir şair, bir XX və XXI əsrin, ikinci və üçüncü minilliyin qovuşuq ayrıldığı tarixi dövrün Azərbaycan vətəndaşı, türk olaraq özünü hamıdan yaxşı tanıyır. Hər halda onun surəti şeirlərindən belə görüşür. Bunları söyləyərkən biz şairin istedad göstəricisi olan "Sükutum içində", "Həsrətdə barışaq", "Bir qarış yurd sevirəm", "Apar məni", "Darıxan can'", "Bir ömür bağışladım", "Ömür söz davasında", "İndi haray da sözdü" və s. kimi şeirlərini nəzərdə tuturuq:

***Səni xoşbəxt eyləyən***
***Dərdlərin keçib başa?***
***Məni oyaq saxlayan***
***Yaşa, əzabım, yaşa!***

Sevinc, səadət, uğur kimi dərd, qəm, xəstəlik, ağrı əzab da insana kənardan verilmir, onun öz yaşam tərzi, mövcudluq üsuludur. Ona görə də İnqilab "Yaşa, əzabəm, yaşa" deyərək, əzablarına ömür arzulayır. Ağıllı adam üçün fəlakət də, səadət də eyni dərəcədə doğmadır, əzizdir.

Təklik faciədir. Fəqət şair təkləndikcə daha artıq dərəcədə özü olur, şairləşir. "Xalq birləşəndə, yazıçı təklənəndə güclü olur" (Seyran Səxavət) əslində təklik İnqilabın ən doğma müsahibidir. Onun "İndi elə təkəm ki..." kitabının annotasiyasında deyilir, təklik arzuları könüldən aman diləyir. Gah pıçıltı kimi, gah da sukut kimi. Şair təkliyi poetik təklikdir".

***Qapımı döyməyə çox da tələsmə***
***Peşiman olarsan günümü görüb***
***Mənim taleyimin bənna əlləri***
***Hörsə də yarımçıq bir bina hörüb.***

***Gözlərim yol çəkir, çıxım yoluna***
***Ən sıcaq arzum da xoşuna gəlsin.***
***Mənimlə dolanmaq dəli işidi***
***İnanma ağılım başıma gəlsin.***

İnqilab sükutun səsini dinləməyi, təkliyin işığına doğru getməyi bacarır. "Sinəmin dağı da bir köç yeridi" deyən şair yazır:

***Sönmüş ocaqların ahı kiriməz***
***Çınqısı enliyə dönənə kimi***
***Gözünə ağ, daman o qara daşlar***
***Ümid yeri idi dünənə kimi.***

İnqilabın ən yaxşı şeirlərində "Sönmüş ocaqların ahı" gizlənir, onun şeirləri bu ahla nəfəs alır.

***Ürəyim dərdlərin saxlanc yeridi***
***Amandı bərk tutun yerə salmayın.***

Dərdi balası kimi əzizləyən, onu ürəyində bəsləyən İnqilab İsaq "Sükutun içində bitirdim sözü" deyə ən qiymətli sərvətini - SÖZü sükuta həvalə edir. O "Kipriyə yığılan odun, kiprikdən yıxılan odun" şairidir. Od ona görə doğmadır ki, onun də qəlbi od kimidir:

***Gəl məni xilas eylə***
***Sürgünəm yer üzünə***
***Dərdimə susa-susa***
***Dərdimi de üzümə.***

Yaşamaq əzabdır - bunu hamı bilir. "Sürgünəm yer üzünə" bunu ancaq şair deyə bilər. Susa-susa dərdi necə demək olar? Bımu da şair fəhm edir, çünki susmağın - sükutun dilini ancaq şair bilər, səsini ancaq şair eşidə bilir - İnqilab belə şairdir. O oxucusu ilə sükutun dilində danışır:

***Yenə də çay ətəkdi***
***Yenə də duman axır.***
***Bəxtini lənətləyən***
***Qarıya bir qız baxır.***

"Ömür söz davasıdı" şeirindəki bu lövhənin bədii-fəlsəfi mənası olduqca genişdi. Şair az sözlə belə dərin mənanı "İndi haray da sözdü" (!) şeirində də ustalıqla yaradır:

***Daha haray da sözdü,***
***Göz yaşı ondan betər.***
***Deyən sözsüz danışmaq***
***Vaxtı, məqamı çatdı.***

***Mən də çoxdan səbrimə***
***Sükutuma adaşam.***
***Hünərin var gəl oxu***
***Son sözümdü sönən şam.***

Harayın söz olduğunu, göz yaşını dinləməyi, sözsüz danışmağı, sükuta adaş olmağı sönən (yanan yox!) şamı söz kimi dinləməyi (8 misrada bu qədər metafora çox deyilmi - əhsən!) bacaran adam istedadlı deyil, bəs nədir, şairlik elə budur!

Annotasiyasında İnqilab İsaqın "Savaş sevdası" (2020) şeirlər kitabı belə təqdim olunur; "bir qəlbin poetik manifestidir. Bu poetik nümunələrdə həyat yaşantıları, tale ağrıları söz-söz, misra-misra dupdurudur. "Pıçıltı da, sükut da, haray da ömürdür".

**(Ardı var)**

# Şıxarxda qisas günü: Milli Qəhrəmanın müqəddəs şəhidlik zirvəsi

**- Təcili müsbət iki qan tapın. Tez ol.**

**Həkim alnındakı təri silib, tənzifi Valeh Müslümovun güllə yarası almış bədəninə sıxdı. Qanı heç cür dayandırmaq mümkün olmurdu. O, bir neçə yerindən yaralanmışdı. Həkim özü də onun sağ qalmağına böyük təəccüb keçirirdi. Gör, nə qədər sağlam bədənin ola ki, bu qədər qan itirəsən, ancaq hələ də həyatla əlaqəni kəsməyəsən. Bu düşüncələrdən onu iki cüt göz ayırdı. Qapının ağzında Valeh Müslümovu gətirən hərbçi yoldaşları yarı ümid, yarı narahatlıqla gözlərini ona dikmişdilər. Həkimin ağzından çıxacaq bir xoş sözə möhtac dilənçi tək gözlərini ondan ayırmırdılar. O, tez tibb bacısını çağırdı.**

**- Xəstəyə morfin verin. Qan gələn kimi təcili əməliyyat edək...**

***

Taledən qaçmaq olmaz. Bəlkə də elə bu onun taleyi idi. Vətəninin dar gününə heç cür biganə qala bilmirdi. Yəqin ki, həyat elə özü Valeh Müslümovu bu yola hazırlayırdı. Özünü tanıyandan karate ilə məşğul olmağa başlamışdı. İdmana olan həvəsinin haradan yarandığını heç özü də bilmirdi. Ancaq karate ilə məşğul olmağı o, qədər ürəkdən sevirdi ki, bəzən məktəbdə dərslərdən qaçıb idmana gedirdi. Bu sahədə dəfələrlə mükafatlar qazanmışdı.

Onun idmançı bədəni, fiziki gücü həmişə karına gəlib. 1988-ci ildə hərbi xidmətdən qayıtdıqdan sonra da vətəni üçün çalışmağa davam edib. SSRİ-nin dağıldığı həmin günlərdə ölkəsinin azadlığı uğurunda meydanlara axışan sadə vətəndaşlardan biri də o olub. Ölkəsinin tapdaq altda qalması ilə heç cür barışa bilmirdi. Ona görə də rus KQB-nə, bütün təqiblərə rəğmən etiraz aksiyalarının, xalq hərəkatının həmişə ön sıralarında yer alırdı. Gecə-gündüz, soyuq-isti demədən meydanlarda gecələyir, bəzən günlərlə evinə belə gəlmirdi. Müstəqil Azərbaycanı yaratdıqdan sonra da dərdi azalmadı, əksinə günü-gündən artırdı. Min bir əziyyətlə qazandıqları müstəqillik, onlara başqa itkilərin hesabına başa gəlirdi. Mənfur düşmən ölkədəki xaosdan istifadə edərək, minillik tarixə məxsus Azərbaycan torpaqlarına göz dikmişdi. Müstəqilliyi qazanmaq qədər onu qoruyub-saxlamağın da vacib olduğunu anlayan Valeh Müslümov 1991-ci ildə yenidən cəbhəyə yollandı. O, həmin ilin avqust ayından Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Milis dəstəsi tərkibində Tovuz, Şuşa, Xocalı və Qubadlı rayonlarında xidmət apardı. Bir sıra dövlət əhəmiyyətli əməliyyatlarda iştirak edərək çoxlu uğur qazanmışdı.

***

Həyat missiyasını başa vurmaq üzrə idi. Səngərdə əli tətikdə qarşı tərəfə- düşmən cəbhəsinə baxırdı. Ağdərənin müdafiəsi tapşırılan batalyonun tərkibində Valeh Müslümovun da vardı. 1992-ci il aprel ayı idi. Ağdərə uğrunda döyüşlər davam edirdi. Alnının tərini silib, atəşə başladı. Düşmən hücuma keçmişdi. Az bir qüvvə ilə erməni silahlı qüvvələrinin dəstələri dayanmadan hücum edirdilər. Valeh Müslümov atəşə başladı, əlini tətikdən çəkmədən ətrafa göz gəzdirdi. Əsgər yoldaşına işarə edib, mövqeyini ona tapşırdı. Özü kiçik təpəciyin arxasına keçdi.



Buradan əlverişli şərait yaranmışdı. Demək olar ki, hər gülləsinə bir erməni əsgərini böyrü-üstə aşırırdı. Sayı-hesabı yaddan çıxmışdı. Səriştəsiz düşmən zabitləri qarşılarında düşən əsgərləri görür, ancaq güllənin haradan gəldiyini bilmirdilər. Valeh Müslümovun yerini təyin edənə qədər, artıq 10-a yaxın düşmən əsgəri məhv edilmişdi. Əsgərlərin kimisi başından, kimisi çiynindən vurularaq üzüqoylu yerə uzanırdılar. Ancaq düşmənin ardı-arası kəsilmirdi. Zabitlərdən biri axır ki, Valeh Müslümovun yerini təyin edə bilmişdi. Əl işarəsi ilə pulyemont vasitəsilə oranı atəşə tutmağı tapşırdı.

Valeh qayanın arxasına sığındı. Pulyemontdan çıxan iri çaplı güllələr qaya parçasına dəyir, daşı param-parça edirdi. Valeh Müslümov burada uzun müddət qala bilməyəcəyini anlayırdı. Odur ki, nə olursa, olsun buradan çıxmaq lazım idi. Cibindəki qumbaranı çıxartdıb, fitilini çəkdi. Qumbaranı əlində saxlayıb, lazımi zamanı gözlədi. Bir neçə dəqiqədən sonra sanki bir boşluq yarandı. Valeh Müslümov əlindəki qumbaranı düşmən tərəfə atmağı ilə, qayanın arxasından götürülməyi bir oldu.Qumbaranın partlamağı ilə toz-torpaq bir-birinə qarışdı. Düşmən əsgərlərinin bir neçəsinin cansız bədənləri yerə sərildi. Valeh Müslümov bir neçə addım atandan sonra, özünü səngərə sala bildi. Özünü toxtayıb, silahını yoxladı. Qarşıya baxdı. Qabaqdakı səngərlərdən birində vəziyyət ağır idi. Müdafiə çox zəifləmişdi. Səngərdəki Azərbaycan əsgərlərinin sayı azalmışdı. Müdafiə xəttinin ön tərəfi yarılmaq üzrə idi.

Valeh Müslümov oradakı əsgər yoldaşlarına kömək etmək üçün birdaha silaha sarılıb, atəş açmağa başladı. Silahın maqazinini dəyişdi. Uzaq məsafədən hədəfə uğurlu atəş aça bilmirdi. Məsafə çox olduğundan hədəfi vurmaq mümkün olmurdu. Odur ki, irəli hücuma keçməyə qərar verdi. Silahını çiyninə atıb, əlverişli zamanı qovalayıb, birdən götürüldü. Əyilə-əyilə özünü ön səngərə çatdırdı. Səngərdə iki əsgər qalmışdı. İki əsgər böyük bir batalyonun qarşısını kəsmişdi. Valeh Müslümov səngərə girər-girməz atəşə qoşuldu. Yanındakı əsgərlərin üzgözü toz-torpaqdan görünmürdü. Bir müddət düşmənə göz açdırmasalar da, çox keçmədi ki, erməni əsgərlərindən biri başlarının üstünü kəsdirdilər. İki hərbçi yoldaşı artıq şəhidlik mərtəbəsinə ucalmışdılar. Yuxarıdan-aşağı atılmış güləlalər Valeh Müslümovun bədənini parça-parça etdi. Valeh ona sarı dönərək, atəş açdı. Erməni əsgəri sərrast atəşdən o andaca yerə uzandı, və oradaca keçindi. Valeh səndələdi. Kürəyini torpağa söykədi. Əlini qumbarasına atdı. Düşmənə təslim olmaqdansa, özünü düşmənlə birlikdə məhv edəcəkdi. Artıq qərar vermişdi. Heç olmasa bədəninin tikələri bu torpaqlarda səpələnərdi. Onda bəlkə ruhu rahatlıq tapardı. Qumbaranı bərk-bərk sıxdı. Yuxarıdan dayanmadan silah səsləri gəlirdi. Taqəti qalmamışdı. Gözlənilmədən bir hadisə baş verdi. Düşündüyü kimi erməni əsgərləri yox, öz yoldaşları səngərə çatdı. Onun səngərdən xilas etmək üçün kiçik dəstə yaradılmışdı. Bu dəstənin üzvləri yerindəcə düşməni geriyə oturtmuş, Valeh Müslümovun olduğu səngərə qədər gəlib çıxmışdılar. Ancaq burada çox qalmaq olmazdı. Düşmən sayca üstün idi. Mütləq özündə güc toplayıb hücuma keçəcəkdilər. İki əsgər Valeh Müslümovu qucağına alıb, sürətlə arxaya tərəf gəlməyə başladılar. Dəstənin digər üzvləri atəş açaraq düşmənə nəfəs almağa imkan vermir, Valehgilə ərazini rahat tərk etmələri üçün şərait yaradırdılar. Çox keçmədi ki, Valeh Müslümov artıq arxa cəbhədə idi. Gözləri bağlı olsa da, nəfəsi gedib-gəlirdi. Onu tez hərbi təcili tibbi yardıma qoyub, rayon hospitalına göndərdilər.

***

**Tibb bacısı əlində qab qanla içəri girdi. Həkim bunu görüb, dərhal əməliyyata başladı. Qan xəstəyə qoşuldu. Qapının arxasında dayanan hərbçilər hər şeyin yaxşı bitəcəyinə ümidli idilər. Çarəsizcə həkimin dayanmadan işləyən əllərinə baxırdılar. Əməliyyat iki saata yaxın davam etdi. Valeh Müslümov son anına qədər vuruşdu, yenidən döyüş meydanına qayıtmaq üçün var gücünü topladı. Ancaq təəssüf ki, onu xilas etmək mümkün olmadı. Bu təəssüf hissi və məyusluq həkimin üzündən oxunurdu. Artıq sözə ehtiyac yox idi. Qapı qarşısında dayanan iki hərbçi hər şeyi anlamışdılar. Dişlərini-dişlərinə qıcayıb, ağlayırdılar...**

**Valeh Müslümova ölümündən sonra "Milli Qəhrəman" adı verildi.**

**Emin Piri**

# Saf qəlbli insan - Elşad Dağlı-65

**Mənalı ömür yolu keçmiş, 20 ildən çox mətbuat sahəsində çalışan tanınmış jurnalist, "Cabir Novruz" Mədəniyyət Fondu mətbuat xidmətinin rəhbəri, Yasamal rayon Ağsaqqallar şurası İdarə Heyətinin üzvü Elşad Dağlını (Qasımov) uzun illərdir ki, tanıyıram.**

2016-cı ildə "Cabir Novruz" Mədəniyyət Fondunun növbəti yığınacağında qərara aldıq ki, onu fondun mətbuat xidmətinin rəhbəri təyin edək. Beləliklə, o gündən bu günə kimi o fəaliyyətini uğurla davam etdirir. Fondun o vaxt təsisçisi Müşfiq Cabiroğlu, mən isə fondun prezidenti seçilmişdim. Bu illər ərzində Müşfiq Cabiroğlu Elşad Dağlı ilə fondun bütün tədbirlərini hazırlayıb, həyata keçirilməsində böyük işlər görürdülər.

Elşad Dağlı (Qasımov) 7 may 1957-ci ildə Siyəzən şəhərində neftçi ailəsində anadan olub. İlk təhsilini Siyəzən şəhər 2 saylı tam orta məktəbdə alıb. 1970-1974-cü illərdə Bakıdakı 8 saylı musiq-təmayüllü internat məktəbində (indiki musiqi gimnaziyası) təhsil alıb. Orta məktəbi bitirdikdən sonra M.Əzizbəyov adına Neft və Kimya İnstitutuna daxil olmuş, kimyaçı-texnoloq, mühəndis ixtisasına yiyələnib. Müxtəlif sahələrdə çalışıb. İlk məqaləsi 1976-cı ildə dərc olunub. İşlədiyi Bakı Məişət Kondisionerləri zavodunun oraqnı olan qəzetdə məsul katib kimi çalışıb.

2001-ci ildən bu günə kimi mətbuatda çalışır. O, eyni zamanda yazıçı-dramaturq Seyfəddin Dağlı yaradıcılığının təqiqatçısıdır. O, 2 dərs vəsaitinin, 5 kitabın redaktorudur. 2020-ci ildən Yasamal rayon Ağsaqallar Şurası İdarə Heyətinin üzvüdür. Məqalələri "Respublika", "Ədalət", "Müstəqil Respublika", "Söz" və s. qəzetlərdə eləcə də "Yada düşdü", "Carçı nyus", "Yurd", "Azad qələm" və s jurnallarda dərc olunub. Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçiləri Həmkarlar İttifaqı (AZKIVIHI) tərəfindən "Qızıl qələm", "Azərbaycan bayrağı", "Xalqın nüfuzlu ziyalısı" media mükafatları, "Cəfər Cabbarlı" fəxri diplomu ilə təltif olunub.

Elşadın aldığı tərbiyə, təhsil və yaradıcılıq fəaliyyəti onu ən dəyərli ziyalılarımızdan, qələm sahiblərindən birinə çevirib. Onun dostlar arasında hörmət qazanmaq, dostluq etmək sahəsindəki nüfuzu çox genişdir. Onun Rasim Nəbioğlu, Nəcməddin Mürvətov, Sənan Talıbov, Məmməd Əliyev, Adil Sadıxov, Vaqif Məmmədov, Adil Abdullayev, Mais Təmkin, Cəbi Havadaroğlu, Rəhim Rəhmanoğlu və s başqaları ilə yoldaşlığı, dostluğu bir nümunədir. İç dünyasından gələn saf mənəviyyat, yüksək mədəniyyət, böyüyə hörmət Elşadı hamıya sevdirə bilib. O, həmişə mənim ağsaqqal sözünü eşidir, dediklərimə əməl edir. Yasamal rayon Ağsaqqallar Şurasının keçirdiyi tədbirlərin ssenarisini o yazır, rayonda keçirilən ən mötəbər tədbirləri mətbuatda işıqlandırır. Elşad həm də gözəl ailə başçısı, səmimi babadır. Böyük oğlu peşəkar hərbçi-zabitdir, II Qarabağ döyüşlərində iştirak etmiş, müharibə veteranıdır, bir çox medallarla təltif olunub. Elşad bədii ədəbiyyatdan başqa incəsənətin digər növlərini də çox sevir - kino, teatr, musiqi və s haqqında həvəslə danışır. O, muğam və təsniflərə, xalq mahnılarına qəlbən bağlı bir insandır. Özü də musiqiçidir, bir neçə alətdə ifa etməyi bacarır, hətta muğam oxumağı da var. Bir neçə il öncə Xırdalan şəhər mədəniyyət evində müasir Azərbaycan musiqi ifaçılıq sənətinin görkəmli nümayəndələrindən biri, unudulmaz müğənni, öz gözəl ifası ilə milyonların qəlbini fəth edən dəyərli sənətçi Hüseynağa Hadıyevin 70 illiyinə həsr olunmuş "Mənim dünyam" adlı xatirə gecəsinin ssenarisini Elşad yazmışdı.



Hətta tədbirin sonunda mərhum sənətkarın həyat yoldaşı Sveta xanım bu gözəl tədbirin keçirilməsinə görə Elşad Dağlıya minnətdarlığını bildirmişdi. Ölməz şairimiz M.Müşfiqin istər yanvarın 6-da, istərsə də iyun ayının 5-də biz Müşfiqsevərlər, "Cabir Novruz" mədəniyyət fondu olaraq bu möhtəşəm tədbiri istər Bakıda, istərsə də Xızının Sayadlar kəndində qeyd edirik. Bütün bu tədbirlərin həyata keçirilməsini, ssenarisinin hazırlayıb həyata keçirilməsini Elşad hazırlayır və tədbiri mətbuatda işıqlandırır.

**Bu günlərdə Elşad Dağlının 65 yaşı tamam olur. Bu münasibətlə saf qəlbli insanı 65 illiyi münasibətilə "Cabir Novruz" Mədəniyyət Fondu və eləcə də Yasamal rayon Ağsaqqallar Şurası adından təbrik edir, uzun ömür, cansağlığı, gələcək işlərində müvəffəqiyyətlər arzulayıram.**

**Yasamal rayon Ağsaqqallar Şurasının sədri, professor Cavanşir Qurbanov**

Azərbaycanın dövlətçilik tarixinin,
milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

№ 19 (2293) 21 may 2022-ci il

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# Danışan saxsı parçaları bir tarixdi

**Öncə tarixdən başlayaq. O tarixdən ki, o yazılıb. Biz də orta məktəbin aşağı siniflərindən auditoriyalara qədər bu tarixi az-çox öyrənmişik və hər imtahandan sonra da bizə elə gəlib ki, biz tarixi bilirik. Amma sən demə, biz yanılırıqmış. Doğrudur, deyirlər ki, şairlər fəhmli olur. Görünür elə buna görə də böyük Səməd Vurğun məşhur əsərlərinin birində yazırdı:**

**Bilinməyir yaşın sənin,**
**Nələr çəkmiş başın sənin!..**

Sonra böyük Məmməd Araz yazdı ki, hər daş parçası bir tarixdi. Və onun ardınca da arxeoloq alimə üz tutub öyrəndiyi və təqdim etdiyi tarix üçün ona minnətdar olduğunu xatırladırdı.

Mən butun bunları və ümumiyyətlə, tarixlə poeziyanın təmasını istənilən qədər davam etdirə bilərəm. Lakin indiki halda ehtiyac görmürəm. Çünki bizim bugünümüz əslində tarixi bilməyin nə qədər zəruri olduğunu bizə poeziyasız da diktə edir. Yəni zorən cəlb edildiyimiz müharibə, işğal edilmiş torpaqlarımız, düşmənin uydurma arqumentləri bizə birmənalı olaraq tarixi öyrənməyi, tariximizi özümüz kimi tanımağı və ona istinad etməyi bizdən tələb edir.

Mən Dağlıq Qarabağda doğulmuşam. Dünyanın zaman və tapıntıları baxımından ən böyük abidələrindən biri olan Azıx mağarası Quruçay vadisində, Xocavənd rayonunun ərazisində yerləşir.

Amma ən qədim insanın çənə sümükləri tapılan bu mağara böyük arxeoloq alim, tarixçi mərhum Məhəmmədəli Hüseynovun böyük zəhməti nəticəsində dünya arenasına çıxarıldı. O sovet dönəmində də ermənilərlə vuruşa-vuruşa bu mağaranın şöhrətini dünya tarixçilərinin, arxeoloqlarının diqqətinə çatdırdı. Böyük alimin zəhməti hesabına Azıx mağarasından cəmi beş-altı kilometr məsafədə yerləşən ikinci bir mağara da tarixə bəlli oldu.



Bu da Böyük və Kiçik Tağlar mağaraları idi. İndi bu qədim abidələr işğal altında olmaqla yanaşı, həm də ermənilərin informasiya maşınının təqdimatında düşmən ölkənin mədəniyyət nümunələri kimi, ulu tarixin vərəqləri kimi təqdim olunur və burada Azərbaycan Elmlər Akademiyasının icazəsi olmadan tədqiqatlar aparılır. O cümlədən də Dağlıq Qarabağda və digər işğal altında olmuş ərazilərimiz də həmin acı taleyi yaşayır.

Yolum Ağcabədiyə düşmüşdü. Açığı yayın istisindən son yağışların gətirdiyi bir dinclikdən və bütövlükdə bir az torpağa, kəndə-kəsəyə yaxınlaşmaq istəyindən bəhrələnən bu səfər mənim üçün gözlənilməz sürprizlərlə yadda qaldı. İlk sürprizim az qala iki ilə yaxındı ki, görmədiyim Ağcabədi rayon mərkəzindəki tikinti-abadlıq, özü də planlı bir arxitektorun məharəti ilə yaradılan səliqə-səhman qəflətən gözlərim önündə açılan gözəlliyi mənə yaşatdı.

Açığını deyəcəm, bu gün respublikanın əksər şəhər və rayonlarında tikinti-abadlıq işləri aparılır. Ancaq bəzi şəhər və rayonlarda yol boyunca, küçə uzunu çəkilən ikitərəfli hasarlar öz arxasında çox eyibləri gizlədir. Yəni bu cür abadlıq mənə yamaq kimi görünür, qəbul edə bilmirəm onu. Lakin Ağcabədidə gördüyüm səliqə-səhman məndə bir ev sahibinin, bir ağsaqqalın, torpağa, xalqa, dövlətə bağlı adamın canıyananlıqla, öz ailəsi üçün gördüyü işi xatırlatdı. Sevindim ki, döyüş bölgəsində, Azərbaycanın qədim bir guşəsində bu gün həyat doğrudan da çiçəklənir. Yol boyunca əkilən ağacların sırası da bu işlərə əlavə bir yaraşıq verir.

Ağcabədinin qədimliyini tarixdən də bilirəm, oxuduğum bədii əsərlərdən də. Ancaq bu rayonda olarkən dost-tanışdan eşitdim ki, rayon ərazisində xüsusi arxeoloqlar - tədqiqatçılar qrupu işləyir.

Özü də bu beynəlmiləlçi qrupa Almaniyadan olan bir xanım professor rəhbərlik edir.

Maraq güc gəldi və elə o dostların təqdimatı ilə də millət vəkilləri Tahir Rza və Aqil Abbasla birlikdə arxeoloqların görüşünə getdik. Yol boyunca bizimlə həmsöhbət olan Tahir Rza və Ağcabədinin digər tanınmış insanları bu arxeoloji qazıntılar barəsində həvəslə, ağızdolusu danışdılar. Eşitdiklərim məni əməlli-başlı səbirsiz edir, tələsdirirdi ki, həmin ünvana tez çatım, deyilənləri öz gözlərimlə görüb, şahid olum.

Bu da Ağcabədi rayonunun Aşağı Aran kəndinin bir tərəfi Xocavənd, bir tərəfi Ağdam olan Haramı düzü. Burada bizi arxeoloqlarla yanaşı, yerli sakinlər də qarşılayır. Bu qarşılanma məqamında millət vəkili Aqil Abbasla ən doğma adam kimi görüşən, üz-gözündən yorğunluq, həm də maraq tökülən bir nəfərin sevinci, canfəşanlığı diqqətimi çəkir.

Öyrənirəm ki, o, tarix üzrə fəlsəfə doktoru, Arxeologiya və Etnoqrafiya institutunun şöbə müdiri Təvəkkül Əliyevdi. Təvəkkül müəllim onunla birlikdə çalışan Azərbaycan-Almaniya beynəlxalq ekspedisiyanın rəhbəri



doktor Barbara Helvinqi bizə təqdim edir. Türk dilində rahat danışa bilən Barbara xanım millət vəkillərinə gördükləri işlər barəsində həvəslə, həm də xüsusi bir maraqla məlumat verir. Hiss olunur ki, millət vəkillərinin ekspedisiyanın çalışdığı əraziyə gəlişi onu bir az da sevindirib, ürəkləndirib. Elə sözarası da deyir ki, Ağcabədi rayon rəhbərliyi, xüsusilə rayonun icra hakimiyyətinin başçısı Şahin Məmmədov onlarla demək olar ki, hər gün maraqlanır. Zəruri ehtiyaclarının ödənilməsinə, iş və yaşayış şəraitlərinin qənaətbəxş olmasına diqqət yetirir. Barbara xanımın dediklərindən məlum olur ki, bu gün Ağcabədi ərazisində Kamiltəpə deyilən arxeoloji abidələr - kurqanlar var. Sayı 37-ə çatan bu kurqanların beşində tədqiqatlar aparılır. Qazıntı işləri zamanı məlum olub ki, bu kurqanların yaşı eradan çox əvvəllərə - 7600-8000 il əvvələ gedib çatır.

**Çox qəribədir ki, qazıntı aparılan kurqanlarda arxeoloqları təəccübləndirən maddi-mədəniyyət nümunələri tapılıb. Burada hətta nərə balığının, eləcə də digər canlıların sümükləri, muncuqlar, küp qalıqları, kərpic, hətta ocaq külü da tapılıb. Ocaq yerinin ətrafında tapılan nümunələr isə həmin yerin kütləvi toplantı yeri olduğunu göstərir. Çünki tapılan maddi-mədəniyyət nümunələri bunu sübut edir.**

***Əbülfət MƏDƏTOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN
MALİYYƏ YARDIMI İLƏ



***KƏMALƏDDİN QƏDİM - 65***

## *KİMSƏ UNUDUB GEDİB...*

*Kimi itirmişəm mən,*
*Könlüm kimin yasında?*
*Vaxtın bir küncündəyəm,*
*Ömrün astanasında...*

*Nətəhər Kərəməm ki,*
*Nə Əslim, nə Lələm var.*
*Nə "ithürən" görünür,*
*Nə də "işıqgələn" var...*

*Ovu əlindən çıxan*
*Ovçuya bənzəyirəm.*
*Çən-dumanda yol azan*
*Yolçuya bənzəyirəm.*

*Nə məscid haya yetir,*
*Nə dada kilsə gəlmir.*
*Unutmuşam nə varsa,*
*Yadıma kimsə gəlmir...*

*Əlac, çarə at üstdə,*
*Dərdim piyada qalıb.*
*Əl açmışam Allaha,*
*Əlim havada qalıb...*

*Yapışmağa ətək yox,*
*Əl yoxdu tutub gedim.*
*Məni yolayrıcında*
*Kimsə unudub gedib...*

## *GÖYƏRTMİR*

*Bu yaz gecikib gəlib,*
*Bağça-bağı göyərtmir.*
*Gör hələ nə gündədi*
*Solu, sağı göyərtmir.*

*Bir yağmurun acıdı,*
*Çarəsi, əlacıdı.*
*Çox da ki baş tacıdı,*
*Duman dağı göyərtmir.*

*Nə vaxt bir səfər çıxır,*
*Önə dərd-kədər çıxır.*
*Bir gözəl xəbər çıxıb*
*Qaş-qabağı göyərtmir.*

*Uyarın qardaşları,*
*Yozdursunlar başları.*
*Onsuz da göz yaşları*
*Bir yanağı göyərtmir...*

## *ÖZÜMƏ*

*Təzə dərd gətirəcək,*
*təzə şeir gözləmə.*
*Zərər verirəm ancaq,*
*məndən xeyir gözləmə.*

*Tutub əlindən, canım,*
*qaçırım hara səni?*
*Qorxuram göz yaşlarım*
*yuyub apara səni.*

*Üzə də bilməyirsən,*
*get, Allah yarın olsun.*
*Kağızdan gəmi düzəlt,*
*qələm avarın olsun...*

## *YAMAN TANIŞ GƏLİR BU KÜLƏK MƏNƏ*

*Qəlbimdə yeri var, izi var kimi,*
*Yaman tanış gəlir bu külək mənə.*
*Əsir, elə əsir sözü var kimi,*
*Deyəsən nə isə deyəcək mənə...*

*Bəyaz saçlarımı oxşayan nəyi,*
*Nəyi doğma gəlir, çaşıb qalmışam...*
*Elə bil nə vaxtsa mən bu küləyi*
*göylərə əlimlə yola salmışam.*

*Yəqin yeri gəlib, yeri, qayıdıb,*
*Hazır kətilimdi, hazır darımdı.*
*Olmaya göylərdən geri qayıdıb*
*üzümə çırpılan dualarımdı?..*

## *ÖZÜMÜ ÖLMÜŞ BİLİRDİM*

*İçimə sığmıram daha,*
*Daha dışıma çıxıram.*
*Huşumdan çıxıram, gedib*
*yenə huşuma çıxıram.*

*Nə var çəkirəm naz deyə,*
*Ömür az, zaman az deyə.*
*Dil-dil ötürəm yaz deyə,*
*Gəlib qışıma çıxıram.*

*Çox bəxtiyeyin olmuşam,*
*Səmanın, göyün olmuşam.*
*Yaman ərköyün olmuşam*
*Tez-tez başıma çıxıram.*

*Bu necə külmüş bilirdim,*
*Başa tökülmüş, bilirdim.*
*Özümü ölmüş bilirdim,*
*Hərdən qarşıma çıxıram...*

## *BURDAN AYRILIQ KEÇİB...*

*Bu yerin tənhası tək,*
*təki kimi tək yoxdu,*
*Çiçəyinin üstündə*
*arı var, pətək yoxdu.*
*Yapışmağa bir yaxa,*
*tutmağa ətək yoxdu*
*Burdan ayrılıq keçib...*
*Nə gündədi ev-eşik,*
*nə gündədi çöl-bayır,*
*Keçib sən saydığından,*
*fələk saydığın sayır.*
*Ürək xaraba qalıb,*
*üstdə bayquş ulayır*
*Burdan ayrılıq keçib...*
*Həyətdəki quyunun*
*yaman bulanıb suyu,*
*Bağlı qapının üstdə*
*hörümçək tor toxuyur.*
*Dörd yan sarılıq tutub,*
*dörd yan payız qoxuyur*
*Burdan ayrılıq keçib...*
*Çox da ki ocaq sönüb,*
*kül altda közü qalıb,*
*İtibdi al-əlvanı*
*rənglərin bozu qalıb.*
*Başda dumanı, bir də*
*udmağa tozu qalıb*
*Burdan ayrılıq keçib...*
*Yoçusunu itirib*
*arzuların yolları,*
*Elə uzalı qalıb*
*istəklərin qolları.*
*Bardaş qurub dərd- qoca,*
*yanında həsrət- qarı*
*Burdan ayrılıq keçib...*

## *MƏNİ BU DÜNYANIN GÖZÜ GÖTÜRMÜR*

*Canım hər alova, hər oda yanmır,*
*Canım hər atəşi, közü götürmür.*
*Hər sözün başına dönüb, dolanır,*
*Ölür sözdən yana, sözü götürmür.*

*Sehir nazı çəkir, sirr nazı çəkir,*
*Ocaq nazı çəkir, pir nazı çəkir.*
*Sevir bir gözəli, bir nazı çəkir,*
*Götürmür, hər işvə, nazı götürmür.*

*Yoxdu Tanrının da işi bəriylə,*
*Məşğuldu elə öz dərdi-səriylə.*
*Hər gün danışıram mələkləriylə,*
*Hələ ki, dəstəyi özü götürmür...*

*Elə yol üstəyəm, qalmıram deyə,*
*Nəfsinə qərq olub, dalmıram deyə.*
*Almıram, vecimə almıram deyə,*
*Məni bu dünyanın gözü götürmür...*

## *KİMƏSƏ KÖLGƏM DÜŞƏCƏK*

*Ha çək bu görkəmdə məni,*
*Ha çək, bu görkəm düşəcək;*
*Sən təbəssüm çəkəcəksən,*
*Yerinə dərd-qəm düşəcək.*

*Başa duman, çən qonacaq,*
*Saça ağ-ağ dən qonacaq.*
*Kirpiyimdə yaş donacaq,*
*Gözlərimdə nəm düşəcək.*

*Mən dərbədər, para-para,*
*Mən hara, bu şəkil hara...*
*Çəkmə, yenə günüm qara,*
*Bəxtim yenə kəm düşəcək.*

*Ya dəymə gerçək yerimə,*
*Ya bir ağac ək yerimə.*
*Bir başdaşı çək yerimə,*
*Kiməsə kölgəm düşəcək...*

## *ƏFƏNDİM*

*Neynəyirsən çoxunun isti keçmir canına,*
*Çoxunun da canından isti çıxmır, əfəndim.*
*Qulaqlar nələr çalır, nələr gəzir dillərdə...*
*Od olmayan yerlərdən tüstü çıxmır, əfəndim.*

*Bilinmir nəyi nədi, kimi kimdi, bilinmir,*
*Suçlu kim, cəzalı kim, kim hakimdi, bilinmir.*
*İçlərdəki bu necə qəzəb, kindi, bilinmir,*
*Bu necə hay-haraydı, səsdi, çıxmır, əfəndim?..*

*Ulaq qaldı ulağı, dəyişsə də palanın,*
*Uzandı, ömrü yaman uzun oldu yalanın.*
*Yaddaşlara həkk olub, ürəklərdə qalanın*
*ha yonursan, heykəli, büstü çıxmır, əfəndim.*

*Təkcə ha gül, ha şadlan, kef-damağın saz olmur,*
*Bilirsən, bir çiçəklə, bir gülünən yaz olmur.*
*Qırx var, uzağı il var, bir ömürlük yas olmur,*
*Bəs bu necə hüzndü, yasdı, çıxmır, əfəndim?*

*Hələ ocaq ocağın, pir pirinin təkrarı,*
*Elə, ölən ölənin, sağ dirinin təkrarı.*
*Bir-birinin eynidi, bir-birinin təkrarı;*
*Adamın zayı çıxır, dostu çıxmır, əfəndim...*

## *TUTURAM*

*Mən sözə sürgünəm, sürgün, beləcə,*
*Sözlə oynayıram, əza tuturam.*
*Dəli könlümü də hər gün beləcə*
*Dilə tutmuram ki, sözə tuturam.*

*Udduğum hava qəm, içdiyim su qəm,*
*Bu sonsuz göylərdi, mən tənha qu, qəm.*
*Sən qoyub gedəndi bu kədər, bu qəm,*
*Mən onu hələ də təzə tuturam.*

*Yaşayıb əllilər, yüzlər içində,*
*Ölürəm düz oğlu düzlər içində.*
*Üzü üzlər görən üzlər içində*
*abrımı, həyamı üzə tuturam.*

*Bir az seçilmir ki, halı halımdan,*
*Canı canımdandı, qanı qanımdan.*
*Qoymuram səssizcə ötə yanımdan,*
*sovuşa başımdan qəza, tuturam.*

*Gözəl, oyun açdın gözəl başıma,*
*İlkin başımayam, əzəl başıma.*
*Gündə dörd dolanır əcəl başıma,*
*Hələ ki, özümü naza tuturam…*

## *GƏZƏSƏN ÖZÜNÜ BİR ÖMÜR BOYU...*

*Qala əllərində canın bu bəxtin,*
*Nə ötə yan ala, nə bəri çıxa.*
*Ölə bilməyəsən ölmək istəsən,*
*Yaşamaq istəyin dəbərib, çıxa...*

*Gözlərin umduğun yerdən yığıla,*
*Ümidin ən hündür yerdən yıxıla.*
*Bir yuxun yol ala uşaqlığına,*
*Önünə qonşunun çəpəri çıxa...*

*Sevəsən, təzədən düşəsən tora,*
*Gəzə ayaqların yolları yora.*
*Qarşına bir daha o qızdan sonra*
*nə huri rast gələ, nə pəri çıxa...*

*Ağrının-acının üstə gedəsən,*
*Bir az asta gedib, usta gedəsən.*
*Üz tutub bir sadiq dosta gedəsən,*
*Onun da bir qəfil səfəri çıxa...*

*Elə, Vətən adlı yer ömür boyu*
*qala səndən yana sirr ömür boyu.*
*Gəzəsən özünü bir ömür boyu,*
*Nə öldü, nə qaldı xəbəri çıxa...*

## *UZAĞI SEÇMƏK OLMUR...*

*Asanca gəlsək belə,*
*Dünyadı, köçmək olmur.*
*...Bir ayıb minməkdisə,*
*Bir ayıb düşmək, olmur...*

*Var açarı, kilidi,*
*Dirisənsə, diridi.*
*Dərdi övlad kimidi*
*Çəkilir, keçmək olmur...*

*Öyüb vaxtı deyirlər,*
*Tacı, taxtı deyirlər.*
*Bax, bu haqdı deyirlər*
*Yanımda çeşmək olmur...*

*Yaman bahadı kirəm,*
*Sözlərdən ev tikirəm.*
*Mən elə gecikirəm,*
*Mənə görüşmək olmur...*

*Hələ həmin baxtdayam,*
*Fanidə, nahaqdayam.*
*Gözlərdən uzaqdayam;*
*Uzağı seçmək olmur...*

## *KƏTİLİN DANIŞIR, DARIN DANIŞIR...*

*Həzin yağışının həzin dili var,*
*Narın qarın elə narın danışır.*
*Nəfəsin dili var, səsin dili var,*
*Danışır, İlahi, lalın danışır...*

*Yaxşılı-yamanlı ömür-gün busa,*
*Bu qədər fanisə, bu qədər qısa...*
*Təntiyir yerisə, darıxır dursa,*
*Qocan gileylənir, qarın danışır...*

*Bax da nə gündədi, nə gündə, şirə,*
*Qənimdi çaqqalın, tülkün də şirə.*
*Nə dəndə dənlik var, nə güldə şirə,*
*Qarışqan dil açır, arın danışır..*

*Kim tacın bəzəyi, ya da tac kimin,*
*Kimi hara çəkir ehtiyac, kimi?..*
*Çıxarmır səsini acın ac kimi,*
*Harının hələ də harın danışır...*

*Var nəyin istəsən yolu hardasa,*
*Dil tapsan danışar külü hardasa.*
*Susursa ürəyin dili hardasa,*
*Orda boğaz dinir, qarın danışır...*

*...mən də ki birtəhər baş saxlayıram,*
*Könlümü bir azca xoş saxlayıram.*
*Aylardı, illərdi boş saxlayıram,*
*Kətilin danışır, darın danışır...*

## *DEMƏK Kİ, YAZIYA POZU YOXUYMUŞ...*

*Nələri itirdim, nələr çıxandan,*
*Elə bil heç izi-tozu yoxuymuş...*
*Yoxuymuş, mən sürən ömür adında*
*dünyanın bir çürük qozu yoxuymuş...*

*Gəldi bu gələn də haramın üstdə,*
*Yığdı batmanları qramın üstdə.*
*Heç bunun hərdən bir yaramın üstdə*
*səpməyə bir çimdik duzu yoxuymuş...*

*Oyunmuş nə varsa, oyun, əzəldən,*
*Qurtara bilmirik boyun əcəldən.*
*Qoyunmuş sanki bu qoyun əzəldən,*
*O tifil, südəmər quzu yoxuymuş...*

*Elə haq dediyin üzüldü bitdi,*
*Ya ləldi, gövhərdi, qızıldı, bitdi...*
*Bu da bir şeirdi, yazıldı, bitdi,*
*Demək ki, yazıya pozu yoxuymuş...*

## *GÖYDƏ TUTASAN...*

*Sözünü bu qədir-qiymətdə, canım,*
*Adını bu kökdə, soyda tutasan.*
*Özünü bir ömür bu ucalıqda,*
*Elə bu qamətdə, boyda tutasan...*

*Keçsən də keçəsən başa başınnan,*
*Paşa ürəyinnnən, paşa başınnan.*
*Sevincin o qədər aşa başınnan,*
*Qonuma-qonşuya pay da tutasan...*

*Sevəsən, gələsən xoşuna hərdən,*
*Dönüb, dolanasan başına hərdən.*
*Baxmayıb gözünün yaşına hərdən*
*Özünə divan da, toy da tutasan...*

*Beləmi fərqliymiş həyat şəhərdə,*
*Üzü bər-bəzəkli boyat şəhərdə...*
*İtirib özünü bu yad şəhərdə*
*Gedəsən dos-doğma köydə tutasan...*

*İçinin bəhrəsin, barın dərəsən,*
*Beş-on kitab ola vərin-vərəsən.*
*Kimləri qoruyur kimdən görəsən,*
*Kiminçün bu qanun, qayda, tutasan...*

*Bir şey ki gözünə təpilir yalan,*
*Bir şey ki boşuna tapdanır palan.*
*Hələ nə çalır ki bu zurnaçalan,*
*Durub bu zurnaya züy də tutasan...*

*Nə deyim fələyi...Deyə bilmədim,*
*Boş durmur ələyi, deyə bilmədim.*
*Nəyi dedim, nəyi deyə bilmədim-*
*Gərək arif olub göydə tutasan...*

# Əlincənin işığında dərdləşmək

## İbrahim Yusifoğlu ilə ruh təması

**Bəri başdan deyim ki, Azərbaycanın hər yeri mənim üçün doğmadı, əzizdi və bu canım, məmləkətimin hər bucağında isinə biləcəyim ocaq, döyə biləcəyim qapı var. Bu şəxsən mənim bir insan xoşbəxtliyimdi. Bununla hər zaman əlimi ürəyimin üstünə qoyaraq həmişə fəxr etmişəm. Necə deyərlər, gedəcək yerim olduğu üçün.**

Bəli, bu canım, məmləkətimdə mənim üçün xüsusi bir guşə də var, ünvan da var və çox qəribədir ki, Azərbaycan sözündən sonra adında "CAN" ifadəsini tapmış ikinci məkandı həmin o dediyim guşə!

Mən bunu zaman-zaman düşündüm və anladım ki, adının içərisində "CAN" olan Azərbaycanla Naxçıvan əslində bir tamlıqlı, bir bütövlükdü. Ortada tarixin hansısa bir dövründə düşmənin aramıza özünü təpməsi bu bötöv torpağı birbirindən azacıq aralı salıb. Amma və buna baxmayaraq can həmişə və hər kəsdə bütöv olub. Elə bu gün də mən o bütövlüyü görürəm. Ona görə də ilindən, günündən, məqamından asılı olmayaraq ürəyim məni həmişə Naxçıvana - o gözəl ünvana çəkibdi.

Yol çantamı çiynimə alanda "Ya Allah" deyib yola düşəndə bilmişəm ki, doğmaların elinə, evinə üz tutmuşam. Getdiyim yer, sevdiyim, özümün, ürəyimin bütöv olduğu yerdi.

Bax, bu mənada Naxçıvandakı ədəbi mühit də mənim üçün həmişə doğma olubdu. Oxumuşam, öyrənmişəm, izləmişəm.

Dəyərli şair qardaşım İbrahim Yusifoğlunun bugünlərdə kitablarını vərəqləyirdim.

Qarşıma "Əlincə" çıxdı. Oxudum və bir də gördüm ki, yenə Naxçıvandayam, yenə Əlincə qalasındayam. Bu möhtəşəm qalanın divarları arasında, Naxçıvandakı dostlarımla, indiki məqamda isə İbrahim Yusifoğlu ilə söhbətləşirik. İbrahim deyir ki:

*Ürəkdə qan coşar, ilham çağlayar,*
*Bu qədim qalanı seyrə gəlincə.*
*Hər kəsi özünə qəlbən bağlayar,*
*Qurur mənbəyimiz məğrur Əlincə.*

Şair qardaşımın coşğulu bir tərzlə Əlincəni mənə, oxuculara təqdim etməsi, təbii ki, mənim də könlümü atlandırır, məni də bu ab-havaya qoşur. Özüm də hiss etmədən Əlincəni anladığım, duyduğum, dərk etdiyim kimi İbrahimə təqdim edirəm:

*Cığır-cığır, ləpir-ləpir oxşayıb*
*Yaddaşını vərəqləyib, yoxlayıb*
*Mən tarixin sükutunu oxlayıb*
*Sehirləndim, qucağına gəlincə-*
*Əlincə!*

Bəli, doğurdan da sehirlidi Əlincə, hər daşı, hər naxışı sirdi, tarixdi, danışan dildi, göstərən, təqdim edən rəsm əsəridi.

Ona görə də buradakı sükut adamı vahimələndirmir, əksinə adamı dindirir, danışdırır, yavaş-yavaş söhbət səni özü ilə çəkib Babəkə, Cavanşirə, daha neçə-neçə qəhrəmanlara, şahlara, sərkərdələrə doğru aparır. Burda qılınc çalan, burda baş qoyub gedən neçə-neçə insan canlanır göz önündə və elə həmin məqamda da İbrahim Yusifoğlu deyir ki:

*O adi dağ deyil, Nəqşicahanın*
*Bütövlük, mətinlik, güc simvoludu.*
*Namərdlər önündə dik tutub başın,*
*Əyilməzlik rəmzi, haqqın yoludu.*

*Əlincə ən acgöz, zalım şahları,*
*Tanrıdan güc alıb, bələyib qana.*



*Bədniyyət, qaniçən Miranşahları*
*Qoymayıb illərlə girə qoynuna.*

Şairin həm sevgi, həm vətəndaş duyğusu ilə ifadə etdiyi, daha doğrusu, oxucuya və mənə tanıtdığı Nəqşicahanın, onun bir parçası olan Əlincənin təsviri hardasa rəssam işi kimi görünür.

Elə bilirəm ki, İbrahim müəllim sözlə dediyini həm də fırça ilə çəkir gözlərimin önündə. Əslində bu elə belədir. Doğurdan da şeirdəki təqdimat gücü poeziya ilə rəssamlığın birləşməsinə, birbirini tamamlamasına gətirib çıxarıb. Deməli, mən də hardasa, elə bundan istifadə etməklə, daha doğrusu, ziyarətində olub gördüyüm Əlincənin bu təqdimatından da yararlanıb yazıram:

*Pillə-pillə üzü göyə qalxıram*
*Göy üzündən üzü göyə baxıram*
*Gördüyümü gözlərimə yığıram*
*Toxunuram təmas incə, əl incə -*
*Əlincə!*



Yəqin ki, mənim bu hisslərimi siz də özününküləşdirə bildiz. Bunu ona görə əminliklə və yəqinliklə ifadə edirəm ki, Əlincəni görmədən, orda o tarixlə başbaşa qalmadan mənimlə çətin ki, razılaşasınız.

Doğrudu, indiki məqamda İbrahim Yusifoğlu həmin gerçəyin təsdiqində mənimlə bir arada, bir məntiqdə dayanıb və deyir ki:

*Qalada igidlər döyüş anında,*
*"Cəngi" səsləndirib, söz söyləyiblər.*
*Kimin gücü olub hələ canında,*
*Düşmənin üstünə od ələyiblər.*

*Burda sipər olub hər daş, hər qaya,*
*Düşmənin yolunu bağlayıbdılar.*
*Barıt qarışsa da torpağa, çaya,*
*Güllər öz ətrini saxlayıbdılar.*

Məncə İbrahim müəllimin bu rəsmindən, bu şövqü, poetik hökmündən sonra bir anlıq susmaq lazımdı. Ən azından öz ətrini saxlayan güllər xatirinə.

Son gücünü də döyüşə, düşmənə müqavimətə həsr edənlərin ruhu naminə.

Və mən də belə edirəm. Susuram, eşitdiyim misraların yaratdığı auranın içərisində öz zamanımın pıçıltısını dilə gətirirəm:

*Zaman burda ayaq üstə - diridi*
*Duyduğumu yazmalıyam, yeridi*
*Yurd həsrətim ümid tapdı - kiridi!*
*Əfsanəni, dözümünü bilincə -*
*Əlincə!*

Doğurdan da yeri gəlib, mən o zaman da, elə indi də əminliklə özüm üçün bir nəticə çıxarmışdım. Yurd həsrəti qalib gələcək.

Çünki tariximiz təkcə Əlincənin yox, onun timsalında tariximizdə bu gün də qalan neçə-neçə qalamızın sirlərini, möcüzələrini, lap konkret desəm, özünü yaşadır.

Deməli, xalqın qan yaddaşı ilə yanaşı, sənət, söz, eləcə də abidələrlə, mədəniyyətlə bağlı yaddaşı da onu həm yaşadır, həm də sabahlara daşıyır. Ona görə də tarixi güc verir, qorxutmur! Demək haqqımız bizimlədir. Bunu İbrahim Yusifoğlu da öz oxucusuna, eləcə də mənə deyir:

*Daha qorxusu yox yad qüvvələrdən,*
*Bu yurda göz dikmək çətinləşibdi.*
*Bu günkü qayğıdan, saf məhəbbətdən,*
*Əlincə daha da mətinləşibdi!*

Sonuncu misradan yapışaraq demək istəyirəm ki, İbrahim Yusifoğlu təkcə öz düşüncəsini, öz hökmünü şeirə çevirməyib.

O hamımızın tariximizə və bugünümüzə olan sevgimizi, sabahımıza olan inamımızı, Əlincənin mətinləşməsi timsalında bir möhür kimi sonluq edibdi. Şeirə bu cür nöqtə qoyubdur. Mən də Əlincədə olarkən Şuşa həsrətini, Qarabağ nisgilini yekunlaşdırmağın Əlincə zirvəsini, Əlincə ucalığını görməklə, duymaqla ifadə etməyə çalışmışdım. Onda yazmışdım ki:

*Burda başım göy üzünə dəysə də,*
*Nisgilim var - dilimdəki nəysədə!*
*Şuşa dərdim büküb məni əysə də -*
*Dözəcəyəm düşmən bağrı dəlincə -*
*Əlincə!*

**Hə, mən İbrahim Yusifoğlunun "Əlincə"sinin işığında ondan izn almadan, elə onun özünü də götürüb birlikdə Əlincəyə getdim. Bu səfərdə təkrar Əlincəni ziyarət etmək, sözün işığında Əlincəni təkrar, misra-misra oxumaq ruhumu rahatladı, yaddaşımı təzələdi. Məni tarixlə baş-başa, üz-üzə gətirdi. Hiss etdim ki, Əlincə də bu anlar üçün məmnundur. Deməli, təşəkkür həm Əlincənindi, həm də İbrahim Yusifoğlunun. Məni xəyalən Əlincəyə, Naxçıvana apardığı üçün.**



Eldar Nəsib Sibirel

### Unut məni

*Bu qala öz əllərinlə*
*Uçuldu, qurulmaz oldu.*
*Bu çeşmə elə bulandı*
*Bir daha durulmaz oldu.*
*Unut məni , unut, gülüm.*
*Bahar gözündə qəm gördüm,*
*Bir dərdimi yüz elədin.*
*Gen gəzdim, qəlbin ağrıdı,*
*Yaxın gəldim söz elədin*
*Unut məni , unut, gülüm.*
*Bir ilahi duyğu kimi*
*Qəlbinə dola bilmədim*
*Eşqim sənin idi, ancaq*
*Mən sənin ola bilmədim.*
*Unut məni , unut, gülüm.*

### Türk oğlu - 1991

*Yatanlar çoxdan ayılıb,*
*Oyan , türk oğlu, türk oğlu.*
*Bu yatışnan qarışmırmı,*
*Röyan, türk oğlu, türk oğlu.*
*Tarix-qədim, tarix-yeni.*
*Kim istər qınasın məni.*
*Gücü yoxsa, yox kimsəni*
*Sayan, türk oğlu, türk oğlu.*
*Tapın, tapın inamına,*
*Od sal düşmənin canına.*
*Ya azad ol, ya qanına*
*Boyan, türk oğlu, türk oğlu.*
*Oyat nərəni yaddaşda,*
*Qoy səslənsin dağda, daşda.*
*Ulu boz qurd kimi başda*
*Dayan, türk oğlu, türk oğlu.*

### ƏYİLMƏZ BAŞINI UCA TUT VƏTƏN

*Ağlama yaraşmır sənə göz yaşı,*
*Qurut gözləriyin yaşını, vətən.*
*Axı qalda gərək igidin başı,*
*Uca tut əyilməz başını, vətən.*
*Yamanca ağırmış Vətən, daşımız,*
*Onu qaldırmağa "dostlar" can çəkir.*
*Yox, daha oyanıb qan yaddaşımız,*
*Bizi azadlığa daha qan çəkir.*
*Zaman dost-düşməni bir-bir tanıdır,*
*Ölməyir Əsliyçün Kərəmlərimiz.*
*Sinəmiz Şəhidlər Xiyabanıdır,*
*Orda dəfn etmişik ərənləri biz.*
*Yolları uzundur özünü dərkin.*
*O yol igidlərin qanından keçir.*
*Sənin oğulların, Vətən, sevin ki,*
*Döyüşdə səndən yox, canından keçir.*
*Kökünün qədrini biləni varsa,*
*Nəsillər sabaha ümid daşıyır.*
*Azadlıq uğrunda öləni varsa*
*O xalqın yaşamaq haqqı yaşayır.*
*Qələbəyə saxla göz yaşlarını,*
*Azadlıq boylanmır sənə yad kimi.*
*O gün şəhidlər də baş daşlarını.*
*Düşmənə sıxacaq avtomat kimi.*
*Əyilməz başını uca tut ,Vətən*
*Azadlıq arzulu igidlərinlə.*
*Ömrü yaz ömrü tək qərənfilləşən,*
*Məzarı - and yeri şəhidlərinlə.*

*Bura Qazaxdır, Oğlum 1997*

*Gözünü aç bu elə, bu obaya yaxşı bax!*
*Damcılısında durul, Dəli Kürə qarış, ax!*
*Ərlər , ərənlər yurdu olub bu ulu torpaq!*
*Hər kaha, hər mağara sirli Azıxdıdır, oğlum,*
*Bura Qazaxdır, oğlum!*
*Burda Kür qırağının əcəbir seyranhgahı,*
*Sahilində mat qoyub müdriklər Nadir şahı.*
*Əliağa Şıxlıniski-dünyanın top allahı*
*Düşmənin başı üstə şimşək tək çaxdı, oğlum,*
*Bura Qazaxdır, oğlum!*
*Burdan qalxıb zirvəyə Vaqifin arzuları,*
*Vidadinin yanğısı dağda əridib qarı.*
*Osman Sarıvəllinin bənövşə misraları*
*Günəşdən nur içibdir burda yaz vaxtı, oğlum,*
*Bura Qazaxdır, oğlum!*
*İldırımlar Mehdinin kəsərinə oxşayır,*
*Burda Səməd Vurğunun ölməz ruhu yaşayır.*
*Misraları zülmətə gün işığı daşıyır ,*
*Lalə tək çəmənlərdə ocaq-ocaqdır, oğlum,*
*Bura Qazaxdır, oğlum!*
*Qalxıb Avey dagindan boylan Qarayazıya,*
*Bir ağ şırım çəkilər o dəm qara yazıya,*
*Bircə anda sinəmə yağan qar ayazıyar,*
*Elə ki,köynəyindən telli saz çıxdı, oğlum,*
*Bura Qazaxdır,oğlum!*
*Əyil torpağından öp ata yurdun Şıxlının,*
*Arzusu müqəddəsin, ürəyi işıqlının.*
*Əsrin vüqar heykəli,bax, İsmayıl Şıxlının*
*Mərdlik üstə qurulub kişilik taxtı,oğlum,*
*Bura Qazaxdır,oğlum!*
*İgidlərin köksüylə qorunur bənd, bərəsi,*
*Koroğlunu andırır hər oğlunun nərəsi.*
*Düşmənlərə məzardır qədim İncə dərəsi,*
*Dostlarınsa yolunda bir şam çıraqdı, oğlum,*
*Bura Qazaxdır,oğlum!*
*Əskipara dağları dağ oldu sinəsində,*
*Ancaq qaçqın düşmədi əsrin kəshəkəsində.*
*Şəhidlərə yas tutdu bülbüllərin səsində,*
*Zamanın qarşısında bil, üzü ağdır, oğlum,*
*Bura Qazaxdır,oğlum!*
*Bu ağ saçlı tarixin yaşdaşıdır Göyəzən,*
*Bu dağlar dünyasının qaş-daşıdır Göyəzən,*
*Şəhid məzarlarına başdaşıdır Göyəzən,*
*Bu torpağı duymayan kordur, yazıqdır, oğlum*
*Bura Qazaxdır,oğlum!*
*Bu yurdu qarış-qarış yaxşı gəz, yaxşı tanı,*
*Torpaq üstə gəzəni, torpaq altda yatanı.*
*Bu torpaq ürək verdi, şair etdi atanı,*
*Gülümsədi üzünə ömrün yaz baxtı,*
*Bura Qazaxdır,oğlum!*
*Bura Qazaxdır,oğlum!*

### YIXILMAZ DEYİRDİN…

*Yıxılmaz deyirdin, haqqın*
*Yerdədir kürəyi daha.*
*Cidarlanıb, qaça bilmir*
*Arzunun yüyrəyi daha.*
*Yalanmış vədlər, vədələr.*
*Verdi, unutdu gədələr.*
*Əvəz eyləyir mədələr*
*Deyəsən ürəyi daha.*
*Bu yol gedir hara, bilmir.*
*Dözümü dağ yara bilmir,*
*Daşdan da çıxara, bilmir,*
*Adamlar çörəyi daha.*

# "QIZLAR BULAĞI" ROMANINDA METOFORİZM



Gülşən TELMANLI

**Azərbaycan ədəbiyyatında elmi və bədii yaradıcılığı, həmçinin ictimai fəaliyyəti ilə özünəməxsus mövqeyi olan Yusif Vəzir Çəmənzəminlini tarix daim maraqlandırmışdır. Uşaqlıqdan bəri gördüyü ictimai-siyasi hadisələr, böyüdüyü naqis mühit onu cəlb etmiş, düşündürmüşdür. Müəllif gündəmin nəbzini tutan məqalələri, elmi və bədii əsərlərində dövrü üçün ən aktual məsələləri diqqətə çatdırmışdır.**

Y.V.Çəmənzəminli yaradıcılığının tədqiqi nəticəsində yaşadığı dövr və mühit haqqında kifayət qədər məlumat öyrənmək olar. Xüsusilə, məqalələri və avtobioqrafik xarakterli "Həyatımın 20 ili" yaxud "Bir cavanın dəftəri" adlı yazılarında demək olar ki, çox mətləblər aydınlığı ilə əks olunmuşdur.

Azadlıq eşqi, vətən, millət təəssübü ilə çırpınan yazar əsərlərində dönə-dönə Azərbaycanın istiqlaliyyəti, keçmişindən bəhs etmişdir. Onun keçmişə işıq salan əsərlərindəki mövzular sadəcə tarixə maraq deyil, müasir həyatdakı ictimai-siyasi suallara cavab tapmaq ehtiyacından irəli gəlirdi.

***Bəhs edəcəyim "Qızlar bulağı" əsəri də eyni ehtiyacdan yaranmış və müəllif özü onu tarixi roman adlandırmışdır. Tarixiləşdirən səbəb kimi proloqda adları çəkilən əsərlərə istinad edilməsi göstərilmişdir: burada 19 kitab adı çəkilir ki, çox güman bunlar müəllifin istifadə etdiyi mənbələrdir.***

### Repressiya illərinin romanı

Repressiyaya aparan əsərlərdən biri kimi dəyərləndirilən "Qızlar bulağı"nda əcdadın tarixini, hal-hazırkı mövqeyə necə, hansı yollarla gəldiyini anlatmağa çalışmış və bu amalı digər yazılarından başlayaraq təqib etmişdir. "Biz kimik", "Azərbaycan və azərbaycanlılar", "Biz kimik və nə istəyirik" məqalələri də həmin məqsədə xidmət etmişdir. Müəllif yazılarında "biz kimik, hansı millətə mənsubuq, tariximiz necədir, bu hala necə gəlmişik" kimi suallara cavab axtarmaqla sanki tarixi kimliyimizi sübut etməyə çalışırdı. Romanın əvvəlində oxuyuruq: "..qəbilənin tarixi onun-Cəməsbin tərcümeyi-halından ibarətdir" ("Qızlar bulağı" romanı). Çəmənzəminli nəyə görə tarixi öyrənməyi bu qədər vacib hesab edirdi?! Yaşadığı dövrə nəzər salsaq görərik ki, Rusiyanın yeritdiyi müstəmləkəçilik siyasətinin əsasını təşkil edən müddəalardan biri Rusiyaya sədaqətli nümayəndələr yetişdirmək, insanları milli mənlik şüurundan məhrum etməkdir. Heç təsadüfi deyildir ki, XX əsrin 20-ci illəri ədəbiyyat tariximizdə sosialist-realizmi adlanmış və həmin mərhələdə milli köklərə söykənən nə vardısa, yasaq edilmişdir. Yeridilən siyasətin faciəvi nəticələrini ürək ağrısı ilə duyub dərk edən Yusif Vəzir bununla barışa bilmir və mənən əzab çəkirdi.

***"Qızlar bulağı" romanında keçmişin müxtəlif qatlarına işıq salınmış, birbaşa, dolayı yolla Azərbaycanla əlaqəli məqamlar əks olunmuşdur. Həmin məqamlara diqqət edək:***

Midyalı Cəməsb, muğ, Muğan, artıvan, Suraqxana atəşgədəsi kimi adlar bilavasitə Azərbaycanla bağlıdır. Bunun ətraflı izahını müəllifin bir çox məqaləsində görə bilərik. "Tariximiz ətrafında" yazısında Azərbaycan adının etnoqrafiyası ilə bağlı üç nəzəriyyədən bəhs olunur ki, bunlardan biri də Azərbaycanın tarixi ərazisinin iki hissədən ibarət olması, bir hissəsinin Midiya adlandırılması, paytaxt şəhərlərindən digərinin Cəzə(Gəncə) adlandırılması yaxud müəllifin də tərəfdarı olduğu nəzəriyyəyə əsasən Azərbaycanın odlar yurdu, od məbədi olmasına, orada yaşayan moğ xalqının Kür sahillərindən Muğan çölünə gəlmələri və burada yurd salmalarına geniş aydınlıq gətirilmişdir . Əsərdə də bu adlarla rastlaşırıq: "Atam Muğandan gəlmə artıvan idi", "Cəzənin iqliminə alışmayıb qızdırmağa başlayır" və s.

***Vətənin tarixindən, enişli-yoxuşlu taleyindən bəhs edən əsərdə ola bilməz ki, müstəqil dövlətin ilk rüşeyminə toxunulmasın. Hələ ki, onun qurulmasında, ictimai-siyasi fəaliyyətində yaxından iştirak etmiş bir şəxsdən söhbət gedirsə. "Qızlar bulağı"nda oxuyuruq: "Günəş var ikən, ay var ikən, yeddi qardaş ulduz səyrişərkən göylərin əzəmətini duyarkən Midiya səltənəti yerə hakim idi. Onun ordusunun qüvvətindən Babil titrəyir, Elam və Suz amana gəlir, iskit Dərbənddən aşağı ayaq basa bilmirdi. Bu ifadələr bizə yad deyil: ay, ulduzlu bayrağımız, aləmi lərzəyə gətirən qüvvətli ordumuz hər kəsə əyandır. Yaxud, "Serimedis adlı bir muğ Həmədanı əldə edərək səltənətə oturdu. Atəşlər yenidən parladı. Zərdüştilərin üzü gülməyə başladı...Serimedis hökmranlığı da uzun sürmədi" ("Qızlar bulağı" romanı) misraları heç şübhəsiz, cəmi 23 ay yaşayan Azərbaycan Xalq Cümhuriyyətinə işarədir.***

Dördüncü pillədəki qocanın əhvalatı da cümhuriyyət qurucularını xatırladır. Naramsin cümlələrini onu əməlləri ilə yaradan, əbədi ruh qazanan şəxsiyyətlərlə əlaqələndirmək mümkündür. "Bu gördüyünüz Abadan qəbilə də ruhların məhsuludur. Fərdlər ölər, əməlləri onların ruhlarını əbədi yaşadar".

Ardınca oxuyuruq: "Günəş altında heç bir şey baqi deyil! Yalnız mətanət və mübarizə baqidir!". Dəfələrlə devrilməsinə baxmayaraq bir çox qaynaqlarda qeyd olunan kimi desək, Simurq quşu kimi öz küllərindən yenidən doğulan Azərbaycan mətanəti, mübarizəsi ilə mövcud olmuşdur və bu gün də olmaqdadır.

### Yaşamaq haqqı-mübarizə gücü

***Y.V.Çəmənzəminlini Şərq qadınının hüquqsuzluğu, Azərbaycan qadınının acı taleyi çox düşündürmüşdür. Bu mövzuda bir çox bədii və elmi əsərlər qələmə almışdır. "Qızlar bulağı" və bu mövzuda yazılmış məqalələrindəki paralelizmə baxaq: Romanda Cəməsb və bacısı Jinduqtun taleyi vasitəsilə köhnə adətlər, qadın hüquqsuzluğu, dini ehkamların müqəddəsliyini görürük. Bununla yanaşı Çoponun mühiti, gənclərə azad ailə qurmaq imkanının verilməsi ilə təzad yaradılmışdır.***

"..arvadlarımızın hüquqsuzluğu, onların şəxsiyyətsiz bir para şey sanılmaqları hamıya məlumdur. Könülsüz ərə verilən müsəlman qızlarının özlərini öldürmələri, oda atmaları, yaxud xristianlığı qəbul etmələri ki, qəzetələrdə yazılır, bəs niyə bu biçarələrin səslərinə səs verən yoxdur?". Eyni motivi Jinduqtun taleyində görürük. Dini qaydalara əsasən qardaşına arvad olan biixtiyar qız son çarəni ölümdə tapır. Onun da səsinə səs verən yoxdur. "Sabah səsə ayıldım daxmaya meyit gətirmişdilər. Artıvanlar arasında atamı və Eyzədəsbi gördüm. Məni görcək hönkürtü ilə ağlaşdılar..qonşumuza sordum, qısa olaraq hadisəni anlatdı: gecə Eyzədəsbi yataqda qoyaraq çıxmış, gözləmişlər gəlməmiş. Səhər tezdən meyitini Semiramis qələsinin altından tapmışlar, bürcə çıxıb, oradan özünü atmışdır..". Yaxud, "..əsrlərdən bəri 150 milyonluq bir insan kütləsini əsir edən, kabus kimi pəncəsində saxlayan çarşaf və çadra bu gün məğlub olmadadır...artıq zənciri qıran zəhmətkeş qadın dərəbəy məfhumlara boyun əymək istəmir. İnqilab davam edir və əsrlərin kölgəsini daşıyan, fəna qoxuyan həyatı alt üst edərək yenilik saçır". Bu cümlələrdə isə Çopo və onun çağdaş mühitində əski ehkamlar yırtılmağa başlayır və azadlıq doğur. Hüquqsuz əcdad Jinduqt və müəyyən müstəqilliyə malik nəslin nümayəndələri Çopo və Ceyniz. Son nəticə olaraq müəllif millətin səadət günəşinin ailə üfüqlərində parlayacağına inam yaradır.

### Din yoxsa siyasət?!

Romanda insanların dinə münasibəti, psixologiyası, hakimiyyəti ələ keçirmək üçün ondan bir vasitə kimi istifadə etməsi ustalıqla açılıb göstərilir. Çopo iskitlərin içinə kəşfiyyat üçün gedir və müşahidə etdiyi əsas şey dinin iskitlər arasında böyük nüfuza sahib olmasıdır. Bundan faydalanmağa başlayan Çopo çox keçmədən özünü qam (din nümayəndəsi) kimi tanıtmağa nail olur və hadisələrin gedişini dəyişdirməyi bacarır. "Hakimiyyət ətrafında çox həngamələr olduğunu ilk dəfə duydum və istifadə etmək yollarını düşünərək saraya getdim". Əzəldən hakimiyyət ətrafında çox həngamələr olmuşdur ki, biri də din pərdəsi altında görülən işlərdir.

***Ruhanilərin Sovet hakimiyyətinə qarşı çıxmaları və böyük qüvvəyə təsir etmələrinə görə bolşeviklər onlardan ehtiyat edirdilər. Yeni hakimiyyət qurulduqdan sonra məscid əmlakının, vəqf torpaqlarının müsadirə olunması dindarların qəzəbinə səbəb olmuş və hakimiyyətə qarşı çıxışlara başlamışdırlar. İlk vaxtlar respublikanın ərazisində dindarlar izlənir, sinfi düşmən kimi damğalanır, Sibirə sürgün edilib güllələnirdilər. Çünki, din xadimləri əhali arasında böyük qüvvə hesab olunurdu və xalqı ardınca apara biləcək gücə sahib idi. Kommunistlər müsəlmanları özlərinə cəlb etmək, ümumi dil tapmaq, öz müttəfiqinə çevirmək istiqamətində addımlar atmağa başladılar. 1921-ci ildə İ.Stalinin dəstəklədiyi "qırmızı şəriətçilər" hərəkatı yaradılmış, nəticədə əvvəllər müsadirə olunmuş əmlaklar geri qaytarılmış, ruhanilərin də hakimiyyətə münasibətində dəyişiklik yaranmışdır. Artıq onlar antisovet ruhlu çıxışlar etmir, yeni hökuməti dəstəkləyirdilər. Təbii ki, bu siyasət zahiri dostluqdan başqa bir şey deyildi və əsas məqsəd onlardan bir vasitə kimi istifadə etmək idi.***

Əsərin əvvəlində də müəllifin dinə yanaşması var. Deyərdim ki, bu münasibətin özəyində real hadisələr durur. Y.V.Çəmənzəminli avtobioqrafiyası ilə tanışlıqdan sonra romanda belə bir eyniyyət diqqət çəkir. Cəməsb nəsil ənənələrinə görə artıvan olmalıydı. Onları dini təlim keçmək üçün məbədə çağırırlar və Cəməsb şahidi olduğu hadisələrdən sonra məbədə getməkdən imtina edir. "..halbuki, o, əllərini ac qurd kimi quzu buduna uzadandan bəri ürəyim ondan soyumuşdu" yaxud, "atəşgədə yanından keçərkən Şizi gördük. Hiddətlə yanaşıb:

-Məbədə niyə gəlmirsən?,- sordu". Y.Vəzirin xatirələrində də oxşar əhvalat oxuyuruq. Atasının "niyə ağanın yanına getmirsən, səni çox xəbər alır" sualına "getmirəm, çünki mənim boynuyoğun və insafsız adamla işim yoxdur" deyə cavab verir. Bunlar da heç şübhə yoxdur ki, yazarın şahidi olduğu hadisələrlə əlaqədardır.

### Qadağan olunmuşlar

**"Şura Yazıçılarının Ümumittifaq Qurultayına" roman belə bir epiqrafla başlayır. Əsər boyu da şura, qurultay təşkil etmək, qərar qəbul etmək kimi səhnələri ilə qarşılaşırıq. Xüsusilə, Nahura adlı bir qızın öz qəbiləsindən olan Murdadı sevməklə qəbilə qərarlarına qarşı çıxması, sabahı gün "şura çağırılıb, müzakirə edilməsi" hissələri xəyalımda XX əsrin əvvəllərində baş verən hadisələri canlandırdı. Bir düşünün: necə ki, Sovet ideologiyasından deyil, Azərbaycandan, onun tarixindən yazan, bir növ "öz qəbiləsindən olanı" sevənlər şura qarşısında müzakirəyə çıxarılır, müxtəlif səbəblər gətirilməklə ya "parçalanma", ya "sürülmə", ya da "bağışlanma" qərarı alırdılar. Əsərdə də eyni motivi görmək mümkündür.**

(ardı var)

## Sizin səxavətiniz 14 yaşlı bir uşağı YAŞADA BİLƏR: Talassemiyalı İlhamə...



**Həzrət Əli (ə) səxavətli olmağın insan həyatına təsirini belə belə açır: Bəzi xəstələr vardır ki, dərmanın yaxşı təsirini hiss edərək, onu əldə etmək üçün uzun yolu qət etməyə razı olurlar. Biz də səxavət dərmanımızın ardınca düşək və onu əldə etməyə çalışaq.Nədir səxavətin təsiri?-deyə sorsanız.**

***1. Səxavət Allahın kamal sifətlərindən biridir.***

***2. Səxavət İlahi peyğəmbərlərin (ə) əxlaqındandır.***

***3. Səxavət dinin möhkəm sütunudur.***

***4. Səxavət yəqin nurunun şüasıdır. Yəni, səxavətin yaranma amillərindən biri də yəqindir.***

***5. Səxavətli insan öz malını başqalarına gözüyumulu infaq edər.***

***6. O kəs ki, səxavətli deyildir, ölümü həyatından daha yaxşıdır".***

***Bu gün səxavətli olmağınızın, Allaha yaxınlığınızın, insanlığa borcunuzun, dinə sədaqətinizin, dindaşınıza yardım əlinizi uzatmağınızın sübut günüdür...***

Adalet.az xəbər verir ki, 14 yaşlı Nağızadə İlhamə anadangəlmə talassemiya xəstəliyindən əziyyət çəkir. Bir neçə il əvvəl Almaniyada ona ilik transplantasiyası edilmişdir. Lakin əməliyyatdan sonra yaranmış müxtəlif yan təsirlərin aradan qaldırılması üçün müalicənin davam etdirilməsinə təcili ehtiyac var. Dəri savaşı və bir çox yan təsirlər başlayıb.

Almaniyanın Tubingen şəhərinin Kinderklinikası müalicə kursu üçün iyul ayının 18 de ora olmagı söyleyiblər . Həmin tarixə qədər klinikanın göndərdiyi invoys məbləği ödənməli, bilet və viza alınmalı, o cümlədən 3 aylıq müalicə dövrü üçün yaşamaq xərcləri toplanmalıdır. İlhamənin anası Günay xanım qızını tək böyüdür, bir müəllimə kimi onun müalicə xərclərini ödəməyə gücü çatmır. Əməliyyat xərclərini ödəmək üçün xeyirxah insanların yardımları ilə bərabər öz əmlakını da satmağa məcbur olmuş ailənin maddi durumu müalicələri davam etdirməyə imkan vermir. Buna görə də ailənin xeyirxah insanların yardımına ehtiyacı var. Kliniki nəticələrin təhlilinə əsasən İlhamə gələcəkdə ana ola bilməyəcək, lakin uşaqlıqdan xəstəliklə mübarizə aparan qızcığaz müalicə kurslarını keçdikdən sonra sağlamlığına qovuşa bilər. Hazırda İlhamə 17 saylı məktəbdə təhsil alır və əlaçıdır. İlhaməyə kömək etmək istəyənlər anasının adına olan aşağıdakı kart hesabına yardım göndərə bilərlər.

**4169 7377 0706 4693 Gunay Asgarova!**

**Allah köməyiniz olsun!Əmin olun ki, səxavətli olmağınız bir soydaşınızı ölümün pəncəsindən qurtaracaq: Allah, din, insanlıq, vicdanınınz xatirinə səxavətli olun ki, İlhamə balamız normal həyata dönsün!**

**Əntiqə Rəşid**

**Kürdəmir rayon Aqrar İslahat Komissiyasının 24.07.2004-cü il tarixli 01 saylı qərarı ilə Qəniyev Seyidzadə Miryaqub oğlunun adına verilmiş A N 081044 nömrəli 499 kv.m torpaq sahəsinin ölçü-plan sənədləri itdiyi üçün etibarsız sayılır.**

***

**Kürdəmir rayon Aqrar İslahat Komissiyasının 24.07.2004-cü il tarixli 01 saylə qərarı ilə mərhum Şirəliyev Ələsgər Qasım oğlunun adına verilmiş A N 056430 nömrəli 616 kv.m torpaq sahəsinin ölçü-plan sənədləri itdiyi üçün etibarsız sayılır.**


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 79
Çapa imzalanmışdır: 20.05.2022